RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 80 (9825) 23 aprel 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# “24 aprel”ə 23 aprel hədiyyəsi



30 illik işğal dövründə ermənilərin saxta 24 aprel soyqırımı günündə necə göz yaşları tökdüklərini, ABŞ, Fransa, Rusiya parlamenti üzvlərinin İrəvandakı yalançı soyqırımı abidəsinə necə əklillər qoyduqlarını, ermənilərə xoş gəlsin deyə hətta yalandan göz yaşları axıtdıqlarını dəfələrlə izlədik.

Saxta soyqırımının "anım günü"nü keçirən ermənilər əməldə Xocalı, Qaradağlı, Başlıbel, Ağdaban, Bağanıs-Ayrım soyqırımlarını törətdilər və onların bu vəhşilikləri sənədlərlə, foto və video çəkilişləri şahidlərin ifadələri ilə sübuta yetirilir.

Özlərini "qədim mədəniyyətə malik xalq" adlandıran haylar Qarabağda və Şərqi Zəngəzurda Azərbaycana məxsus bütün mədəni və tarixi abidələri qəsdən məhv etdilər.

Özlərini "xristianlığı birinci qəbul edən" millət kimi təqdim edən ermənilər Azərbaycan ərazisindəki bütün məscidləri dağıtdılar, içərisində mal-qara, donuz saxladılar, qəbiristanlıqlarımızı yerlə yeksan etdilər.

ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri onların bütün barbarlıqlarına göz yumdular, sülh danışıqlarını sonsuzadək uzadaraq işğalı əbədiləşdirmək və legitimləşdirmək yolunu tutdular.

Azərbaycan xalqı bütün bu ədalətsizliklərə dözdü.

Dözdü və qisas gününə hazırlaşdı!

Dözdü və torpaqları hərbi yolla azad etmək üçün zəruri tədbirlər gördü!

Həmin gün gəldi çatdı!

Müzəffər Ali Baş Komandan İlham Əliyev "irəli" əmrini verdi!

"Dəmir yumruq" işə düşdü!

44 gün ərzində Ermənistan ordusu məhv edildi, torpaqlar işğaldan azad olundu!

Lakin cənab İlham Əliyev tələsmədi...

Nəyi nə vaxt və necə etməyi yaxşı bildiyindən hər addımı vədəsində atdı.

2023-cü il aprelin 24-nə gözəl bir hədiyyə də hazırladı!

Qəhrəman hərbçilərimiz 2023-cü il aprelin 23-də Həkəri çayı üzərindəki körpüdə möhtəşəm bir hərbi əməliyyat keçirdilər.

Artıq xəyanət yoluna çevrilən, Qarabağa terrorçu, silah-sursat, mina daşınan Laçın dəhlizi bağlanaraq körpü üzərində Azərbaycana məxsus nəzarət-buraxılış məntəqəsi quruldu.

Beləliklə, Azərbaycanın ərazi bütövlüyü də tam təmin edildi!

Bu, "dəmir yumruğ"un ikinci zərbəsi idi!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəfələrlə etdiyi xəbərdarlıqlardan nəticə çıxarmayan;

RSK-nın ikiüzlü mövqeyindən istifadə edərək ölkəmizdə terror əməllərini davam etdirən;

Qarabağdakı hərbi birləşmələri, terrorçu qruplaşmaları geri qaytarmayan;

Üçtərəfli Bəyanatın bütün maddələrini icra etməyən Ermənistan ikinci böyük məğlubiyyətə uğradıldı!

İndi daha 24 aprel "soyqırımı günü" bizi qıcıqlandırmır!

Çünki bizim 23 aprel qələbəmiz həmin günü haylar üçün əsl matəmə çevirdi!

2023-cü il sentyabrın 19-20-də isə bütün saxtakarlıqlara son qoyduq!

"Böyük Ermənistan" xülyasını böyük qələbələrimizlə puça çıxardıq!

Bu isə "dəmir yumruğ"un üçüncü zərbəsi oldu!

→ 3

# Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfərinə gedib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Çin Xalq Respublikasına dövlət səfərinə gedib.**

AZƏRTAC xəbər verir ki, Pekin Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Çin Xalq Respublikasının nəqliyyat naziri Liu Vey və digər rəsmi şəxslər qarşıladılar.

# Uzaqlar yaxın olur

## Azərbaycanın etibarlı tərəfdaş imici Çin kimi dünya nəhəngini də cəlb edir

Prezident İlham Əliyevin Çinin "Sinxua" Agentliyinə verdiyi məxsusi müsahibədə bu, bir daha xatırladılıb. Dövlətimizin başçısı bu təşəbbüsün iki ölkə arasında praktik əməkdaşlığın inkişafında rolu haqqında sualı cavablandırarkən deyib: "Astanada ÇXR-in Sədri ilə görüşüm əsnasında əldə olunan daha bir razılaşmaya diqqətinizi yönəltmək istəyirəm. Söhbət ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin gələcək inkişafından, onların keyfiyyətcə yeni məzmunla zənginləşməsindən gedir. Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Bəli, həqiqətən Çin Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşına çevrilib, onun xarici ticarət dövriyyəmizdə payı 7,9 faiz olub, həmçinin idxal üzrə də lider mövqeyinə çıxıb və bu göstərici 17,69 faizə çatıb. İki ölkə arasında getdikcə artan iqtisadi-ticari əməkdaşlığa bax-



mayaraq, hələ də reallaşdırılmayan böyük potensial mövcuddur. Hesab edirəm ki, iki ölkə arasında iqtisadi-ticari əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya ikitərəfli iqtisadi əlaqələri genişləndirmək, əməkdaşlığın perspektivli istiqamətlərini aşkara çıxarmaq və onları hüquqi müstəvidə bundan sonra möhkəmləndirmək üçün mühüm mexanizmdir. Komissiyanın qərarlarının vaxtında yerinə yetirilməsi səylərimizin uğur qazanmasının rəhni olacaq".

→ 5

## *Azərbaycanın xarici siyasəti müasir dövrdə:* Şərqə və Asiyaya doğru

Bütün bu geosiyasi dəyişikliklər fonunda Azərbaycan Şərqə və Asiyaya doğru xarici siyasət kursunu yalnız alternativ istiqamət kimi deyil, strateji prioritet olaraq formalaşdırmağa başlayıb. Bu siyasət təkcə iqtisadi maraqlarla məhdudlaşmır, həm də siyasi təhlükəsizlik, beynəlxalq nüfuz və diplomatik balansın qorunması baxımından dərin məna daşıyır.

→ 6



## Ərazilərimizin bütövlüyü günü

Azərbaycan 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin ərazilərimizi tərk etmələri ilə bağlı qəbul etdiyi 4 qətnaməsini öz gücünə təmin etdi. Çünki düz 27 il ərzində aparılan səmərəsiz danışıqlar nəticəsində iki ölkə arasında münaqişə nəinki yoluna qoyulmuş, əksinə, dalana dirənərək həlli mümkünsüz vəziyyət yaratmışdı. Məsələnin bu hala gəlməsində isə ATƏT-in keçmiş Minsk qrupunun xüsusi rolu olmuşdu. Yarıtmaz həmsədrlər, eləcə də erməni lobbisinin rüşvətləri sayəsində işğalçı Ermənistana havadarlıq edən digər qərəzli Qərb siyasətçiləri elə hesab edirdilər ki, vəziyyəti olduğu kimi saxlamaqla Azərbaycanı işğal siyasəti ilə barışdıracaqlar. O da təsdadüfi deyildi ki, bədnam Qərb dairələri alternativ variant kimi müharibə versiyasını qəbul etmirdilər.

Ancaq 2020-ci il noyabrın 10-da Ermənistanı təslimçilik aktına imza atmağa məcbur edən Azərbaycan həm torpaqlarının 30 illik işğalına son verdi, həm də dünyada həlli müşkülə çevrilən bu tip münaqişələrə son qoymağın unikal modelini ortaya qoydu.

→ 7

## "Qərb Cənubi Qafqazda yeni hərbi-siyasi toqquşma üçün zəmin hazırlayır"

Avropa İttifaqının "müşahidə missiyası" adı altında regionda təxribatçı fəaliyyətləri, hər hansı hüquqi bağlılıq olmadan Avropa Parlamentinin "Azərbaycan məsələsini" daimi gündəliyə çevirməsi sübut edir ki, Bakı və İrəvan arasında davamlı sülhə, sabitliyə və təhlükəsizliyə nail olmaq üçün unikal imkan yarandığı bir zamanda Qərb Cənubi Qafqazda yeni hərbi-siyasi toqquşma üçün zəmin hazırlamaqdadır.

→ 10



## Ruben Vardanyanın məhkəməsində Ermənistanın mina terrorunun qurbanları danışıb: “Bir gündə iki oğlumu itirdim"

Dövlət ittihamçısı Fuad Musayevin suallarına cavab olaraq A.Hüseynov deyib ki, mina partlayışları nəticəsində oğlanları Razi və Bayram həlak olub, özü, digər oğlu Anar ağır xəsarətlər alıb, nəvəsi Hüseyn yüngül yaralanıb və güclü psixoloji travma alıb. "Bir gündə iki oğlumu itirdim", - deyə o qeyd edib.

Hadisə zamanı onlarla birlikdə olan qonşusu Bəhruz Abdulov da yaralanıb. Zərərçəkmiş şəxs qismində ifadə verən A.Hüseynovun oğlu Anar Hüseynov və qonşusu Bəhruz Abdulov da ifadə verərək hadisənin necə baş verdiyini danışıblar.

Zərərçəkmiş şəxslər Nicat Cabbarov və qohumu Rafael Bayramov isə ifadələrində Tərtər rayonunun işğaldan azad olunmuş hissəsində eyni vaxtda minaya düşdüklərini, ayaqlarının bir hissəsinin amputasiya edildiyini bildiriblər.

→ 11

## Milli Məclisin iclasında

# Dövlət vəsaitlərinin səmərəli istifadəsinə nəzarət təmin olunur

Aprelin 22-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə başçılığı ilə nümayəndə heyətinin aprelin 17-18-də Rusiyanın Sankt-Peterburq şəhərinə etdiyi işgüzar səfər barədə məlumat verib. O, diqqətə çatdırıb ki, səfərdə məqsəd Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının Şura iclasında və 58-ci plenar iclasında, faşizm üzərində qələbənin 80 illiyinə həsr olunmuş təntənəli iclasda və digər tədbirlərdə iştirak etmək idi.

Spiker qeyd edib ki, MDB Parlamentlərarası Assambleyasının Şura iclasında və 58-ci plenar iclasında ötən dövr ərzində Assambleya çərçivəsində yerinə yetirilmiş işlər, görülmüş tədbirlər və təşkilati məsələlər nəzərdən keçirilib. Milli Məclisin Sədri həmin müzakirələrdə çıxış edərək fikirlərini bölüşdüyünü bildirib. Assambleyanın 58-ci plenar iclasında və yaz sessiyasının komissiya iclaslarında Azərbaycan nümayəndə heyətinin üzvü olan deputatlar da iştirak və çıxış ediblər.

Səfər çərçivəsində 1941-1945-ci illərdə faşizm üzərində Qələbənin 80 illiyi münasibəti ilə MDB Parlamentlərarası Assambleyasının təntənəli iclası keçirilib. Sahibə Qafarova iclasda etdiyi çıxışda Qələbəyə Azərbaycan xalqının verdiyi böyük töhfələr barəsində danışaraq, digər faktlarla yanaşı, onu da yada salıb ki, xalqımızın cəbhəyə göndərdiyi 600 mindən artıq insanın yarısından çoxu döyüşlərdə həlak olub, 130-dan çox azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Spiker Qələbədə Azərbaycan neftinin böyük rolunu xüsusi vurğulayıb, arxa cəbhədə həyata keçirilmiş işlərin əhəmiyyətini nəzərə çatdırıb.

Çıxışında Ümummilli Lider Heydər Əliyevin "Veteranlar xalqımızın qızıl fondudur" fikrini xatırladan spiker qeyd edib ki, ölkəmizdə İkinci Dünya müharibəsi veteranlarına diqqət və qayğı Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Bildirib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılmış Qələbə sayəsində Azərbaycan torpaqlarının 30 illik işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası, bu torpaqlarda həyatın yenidən canlandırılması xalqımızın həm keçmiş, həm də indiki nəsillərinin ədalətin zəfərinə olan sarsılmaz inamını və onu bərqərar etmək əzmini təcəssüm etdirir.

Səfər zamanı Azərbaycan parlamentinin nümayəndə heyəti Qələbənin 80 illiyinə həsr olunan tədbirlərdə iştirak edib. Piskaryov memorial məzarlığı ziyarət olunub, müharibə qurbanlarının, o cümlədən blokada zamanı Leninqradın müdafiəsində iştirak etmiş Azərbaycan xalqının nümayəndələrinin xatirəsi ehtiramla anılıb.

Sahibə Qafarova Rusiya Federasiyasına işgüzar səfərin uğurlu olduğunu qeyd edib və bununla əlaqədar nümayəndə heyətinin hər bir üzvünə minnətdarlığını bildirib.

Sonra Milli Məclisin Sədri iclasda 12 məsələnin müzakirə olunacağını söyləyib. O bildirib ki, gündəliyin birinci məsələsi Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabatıdır. Qeyd edilib ki, Hesablama Palatasının hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentin nəzarət funksiyasının həyata keçirilməsində mühüm rol oynayır.

İclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Palatanın 2024-cü ildə fəaliyyəti haqqında hesabatını təqdim edib. Palata sədri bildirib ki, 2024-cü il üzrə hesabatda Hesablama Palatasının audit və qeyri-audit fəaliyyəti əhatə olunub, icmal-statistik məlumatlar öz əksini tapıb. Sənəddə Hesablama Palatasının qanunla müəyyən edilmiş 21 vəzifəsinin hər birinin icra vəziyyəti barədə qısa şərh verilib. Hesablama Palatasının 2021-2025-ci illəri əhatə edən strateji planının icrası məqsədilə 2024-cü ildə də əməliyyat planı tərtib olunub, fəaliyyətin institusional, təşkilati və peşəkar istiqamətlərinin təkmilləşdirilməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirilib. O, Palatanın fəaliyyətinin 4 istiqamətdən ibarət olduğunu söyləyib.

Vüqar Gülməmmədov, əvvəlcə kənar dövlət maliyyə nəzarəti tədbirləri barədə məlumat verib. O nəzərə çatdırıb ki, 2024-cü ildə Palata tərəfindən audit və analitik fəaliyyət formasında 52 nəzarət tədbiri keçirilib. Bu tədbirlərin 45,5 faizində audit və ya analitik fəaliyyət ilk dəfə və ya fərqli mövzu üzərindən olmaqla keçirilib. Auditlərin əhatə dairəsini icmal büdcənin müxtəlif elementləri, o cümlədən dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları və Naxçıvan Muxtar Respublikasının büdcələrinin gəlir və xərcləri təşkil edib. Hesabat dövründə auditlərlə dövlət büdcəsinin müxtəlif illər üzrə 8,3 mlrd. manatı, büdcədənkənar dövlət fondları üzrə Dövlət Neft Fondu, Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən Sığorta Fondunun, eləcə də Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminatı Fondunun 2023-cü ilin büdcələri, Naxçıvan Muxtar Respublikasının büdcəsinin 2023-2024-cü illər üzrə 180,6 mln. manatı, bununla yanaşı, qeyri-büdcə vəsaitlərindən 2022-2024-cü illər üzrə 1,0 mlrd. manat əhatə olunub. Hesabat ilində Hesablama Palatasının diqqətdə saxladığı sahələr - işğaldan azad olunmuş ərazilərin bərpası, ətraf mühit, iqtisadi fəaliyyət və büdcədənkənar fondlardır.

İcmal büdcənin xərcləri 47 auditdə araşdırılıb, auditlərdə xərclərin proqnozlaşdırılması, hesablanması, icrası və digər öhdəliklərin yerinə yetirilməsi uyğunluq, maliyyə və səmərəlilik elementləri aspektindən qiymətləndirilib və hesabatda audit nəticələri həmin elementlər üzərindən qruplaşdırılıb. Uyğunluq elementləri ilə dövlət vəsaitinə tələbatın proqnozlaşdırılmasının əsaslılığı, maliyyə əməliyyatlarının, dövlət vəsaitinin və digər dövlət əmlakının istifadəsi və idarə olunmasının, büdcə və dövlət satınalmalarının və sair hüquqi aktlara uyğunluğu araşdırılıb.

2024-cü ilin iş planı üzrə keçirilmiş auditlərdə xərclər maliyyə elementləri aspektindən də araşdırılıb və burada əsas məqsəd maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlərdə müvafiq qaydada tərtib edilib-edilmədiyini müəyyənləşdirmək olub. Auditlərdə, həmçinin xərclər səmərəlilik elementləri aspektindən də araşdırılıb və dövlət vəsaitinin, digər dövlət əmlakının istifadəsi zamanı səmərəlilik, qənaətlilik və nəticəlilik prinsiplərinin diqqətdə saxlanıb-saxlanmadığı müəyyənləşdirilib.




Palata sədri qeyd edib ki, hesabatda öz əksini tapmış digər istiqamət - büdcə layihəsi və icrasına rəy verməkdən ibarətdir. O, diqqətə çatdırıb ki, 2024-cü ildə Hesablama Palatası tərəfindən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələri və icrası üzrə 6 rəy, yenidən baxılma üzrə layihələrə isə 3 rəy hazırlanaraq təqdim olunub. Rəylər büdcə layihəsi və icrası barədə təqdim edilən məlumatların qanunvericiliyə, ölkənin strateji sənədlərinə uyğunluğunu, büdcə parametrlərinin düzgünlüyü və tamlığı barədə Hesablama Palatasının qiymətləndirici mövqeyini ifadə edib. Rəylərdə verilmiş tövsiyələrin icrası üzrə bir sıra addımlar atılıb, dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihəsi və icrası üzrə 36 tövsiyə büdcə sənədləşməsində tam və ya qismən nəzərə alınıb. Dövlət büdcəsinin icrası və layihəsinə rəylər üzrə nəzərə alınmış tövsiyələr məbləğ ifadəsində 260,5 mln. manat təşkil edib.

Hesablama Palatasının sədri bildirib ki, hesabatın əhatə etdiyi növbəti istiqamət dövlət maliyyəsinin idarəedilməsinə tövsiyələr verməkdir. O, diqqətə çatdırıb ki, hesabat dövründə dövlət maliyyə idarəetməsinin və dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi, dövlət vəsaitindən və digər dövlət əmlakından səmərəli və məqsədyönlü istifadə ilə bağlı tövsiyələr Hesablama Palatası tərəfindən aidiyyəti üzrə təqdim olunub.

Sonra Vüqar Gülməmmədov rəhbərlik etdiyi qurumun daha bir fəaliyyət istiqaməti - beynəlxalq əməkdaşlıq barədə söhbət açıb. Bildirib ki, 2024-cü ildə Çin, Qazaxıstan və Tacikistan AAO-ları ilə əlaqələrin daha da gücləndirilməsi məqsədilə memorandumlar, Türkiyə Hesablama Məhkəməsi ilə paralel auditlərin keçirilməsinə dair sənəd imzalanıb.

O, habelə hesabat ilində maraqlı tərəflərlə əməkdaşlıq barədə məlumatları bölüşüb. Qeyd edib ki, ötən müddət ərzində Milli Məclislə intensiv əməkdaşlıq davam etdirilib, kənar dövlət maliyyə nəzarəti nəticələri, fəaliyyət hesabatı, büdcə rəyləri təqdim olunub. Milli Məclisin deputatları tərəfindən səsləndirilən fikirlər nəzərə alınmaqla 2024-cü ilin iş planına 2 yeni kənar dövlət maliyyə nəzarəti tədbiri əlavə edilib. Bununla yanaşı, icra hakimiyyəti orqanları ilə əməkdaşlıq uğurla davam etdirilib, Baş Prokurorluqla qarşılıqlı əməkdaşlıq barədə memorandum imzalanıb.

Vüqar Gülməmmədov öz çıxışında Hesablama Palatasının 2025-ci il üçün planlaşdırılan tədbirlərindən də bəhs edib.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti barədə hesabata dair bu komitənin rəyini bildirib. O, hesabatın komitənin iclasında geniş müzakirə olunduğunu, sənədin vaxtında, qanunvericiliyin tələblərinə, audit sahəsində beynəlxalq standartlara və prinsiplərə uyğun olaraq təqdim edildiyini söyləyib.

Komitə sədri hesabatla bağlı bəzi məqamlara toxunaraq, qeyd edib ki, Palatanın struktur və məzmun baxımından əsaslandırılmış hesabatında təqdim olunan dolğun məlumatlar onun 2024-cü ildəki fəaliyyətini obyektiv qiymətləndirməyə imkan verir, gələcək planlaşdırma və strateji qərarlar üçün informativ və analitik əsaslar yaradır. O deyib ki, sənəddə nəticə əsaslı büdcə modelinə istinad edilməsi, fəaliyyətin qiymətləndirilməsinin strateji sənədlərə və ölçülə bilən çoxsaylı göstəricilər sisteminə əsaslanması, audit nəticələrinin təkcə dövlət büdcəsi üzrə deyil, bütövlükdə icmal büdcə üzrə təqdim edilməsi, aşkar edilmiş nöqsanlarla yanaşı, onların aradan qaldırılması üzrə təkliflərin verilməsi, analitik məzmunu və informativliyi hesabatın əsas xüsusiyyətləri kimi qeyd edilə bilər.

Azər Əmiraslanov bildirib ki, hesabatda büdcə vəsaitlərindən istifadə edilməsinin vəziyyətinə dair geniş məlumatlar verilir, Hesablama Palatası Milli Məclisin büdcəyə nəzarət funksiyasının və mandatının həyata keçirilməsini təmin edir. Parlamentə hesabat təqdim etmək ali maliyyə nəzarəti orqanının fəaliyyətini daha da gücləndirir, onun şəffaflığını və ictimai nüfuzunu artırır. O, Palatanın hesabatlılığının institusional təsirləri barədə danışaraq, bunun özünü dövlət və büdcə sektorunda şəffaflıq meyllərinin dərinləşməsində, korrupsiya risklərinin azaldılmasında, dövlət qurumlarının məsuliyyətinin artmasında təzahür etdiyini söyləyib. Hesabatda Palata ilə hökumət arasında əməkdaşlığın dərinləşməsini səciyyələndirən məlumatların da əks olunduğunu, Palatanın bir sıra təklif və tövsiyyələrinin hökumət qərarlarında nəzərə alınmasının, onların icrası ilə bağlı məlumatların Nazirlər Kabinetinin hesabatına daxil edilməsinin təqdirəlayiq olduğunu deyib.

Komitə sədri nəzərə çatdırıb ki, hesabatda Palatanın Strateji Plan üzrə 348 fəaliyyəti 98 göstərici əsasında qiymətləndirilib. O deyib ki, perspektivdə bu göstəricilərin kəmiyyət və keyfiyyət meyarları üzrə təsnifləşdirilməsini və hər iki blok üzrə göstəricilərin bir-birini tamamlamasını vacib hesab edirik. Komitə sədri Hesablama Palatasının dövlət maliyyəsinin effektiv idarə olunması, fiskal intizamın gücləndirilməsi, dövlət proqramları və investisiya layihələri üzrə büdcə xərcləmələrinə səmərəli nəzarətin həyata keçirilməsi, büdcə dayanıqlığının təmin olunması ilə bağlı çağırışlarla üzləşdiyini qeyd edib.

Azər Əmiraslanov Palatanın tövsiyyələrinin icra edilməsi mexanizminin təkmilləşdirilməsi, inzibati və hüquqi məsuliyyət tədbirlərinin sərtləşdirilməsi, büdcə prosesinin və qanunvericiliyinin, maliyyə-büdcə hesabatlılığının və uçot sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi təkliflər səsləndirib.

Müzakirələrdə komitə sədrləri Fazil Mustafa, Hicran Hüseynova, Sadiq Qurbanov, Zahid Oruc, deputatlar Razi Nurullayev, Aydın Mirzəzadə, Rövşən Muradov, Ceyhun Məmmədov, Bəhruz Məhərrəmov, Müşfiq Cəfərov, Müşfiq Məmmədli, Vüqar Bayramov, Rəşad Mahmudov, Bəxtiyar Əliyev, Aydın Hüseynov, Samir Vəliyev, Soltan Məmmədov çıxış edərək, hesabatla bağlı öz fikirlərini açıqlayıblar.

Spiker Sahibə Qafarova müzakirələrdə 17 nəfərin çıxış etdiyini, çıxış edənlərin hamısının hesabat haqqında müsbət fikirlər söylədiyini, bir sıra təkliflər səsləndirdiyini bildirib, hesabatın yüksək səviyyədə hazırlandığını qeyd edib.

Müzakirələrin sonunda Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabatı səsə qoyularaq nəzərə alınıb.

Sonra "Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi təqdim olunub. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bildirib ki, saziş tərəflər arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq üçün hüquqi çərçivənin yaradılması məqsədinə xidmət edir. 20 maddədən ibarət sazişdə tərəflər arasında müdafiə və hərbi təhlükəsizlik, sülhə dəstək əməliyyatları, qarşılıqlı səfərlər və təcrübə mübadiləsi, hərbi təlim və təhsil, müdafiə sənayesi və texnologiyası və sair sahələrdə qarşılıqlı əməkdaşlığın inkişafı ilə bağlı müddəalar əks olunub. Sazişin həyata keçirilməsinə cavabdeh olan səlahiyyətli orqanlar kimi Azərbaycan Respublikası Hökuməti adından Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Müdafiə Sənayesi Nazirliyi, Somali Federativ Respublikası Hökuməti adından isə Somali Federativ Respublikasının Müdafiə Nazirliyi müəyyən olunur.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Zaur Şükürov məsələ barədə bu komitənin rəyini diqqətə çatdırıb. O, qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qlobal miqyasda nüfuzunun artması və Qoşulmama Hərəkatına uğurlu sədrliyi, habelə müstəmləkəçilikdən əziyyət çəkən ölkələrin haqq səsinin beynəlxalq miqyasda eşidilməsində əhəmiyyətli rolu, öz gücü ilə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi digər ölkələrlə yanaşı, Afrika qitəsi dövlətlərinin də Azərbaycana marağını artırıb. Millət vəkili müzakirəyə çıxarılan Sazişin iki dövlət arasında hərbi-texniki sahədə əməkdaşlığın inkişafında mühüm əhəmiyyətə malik olduğunu deyib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Dərman vasitələri haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumatı təqdim edib. Bildirilib ki, qanun layihəsinin məqsədi keyfiyyətə nəzarət sahəsində rəqəmsallaşmanın həyata keçirilməsi məqsədilə vahid elektron informasiya sisteminin hüquqi bazasının yaradılması, bu sahədə elektron xidmətlərin tətbiqi yolu ilə prosedurların optimallaşdırılması, ölçmə, texniki tənzimləmə və uyğunluğun qiymətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və xidmətlərin şəffaflığının artırılmasıdır.

Layihəyə əsasən, yaradılması nəzərdə tutulan vahid elektron informasiya sistemi keyfiyyət infrastrukturu sahəsində fəaliyyət göstərən akkreditasiya edilmiş səlahiyyətli qurumlar tərəfindən təqdim edilən hüquq müəyyənedici sənədlərin elektron formada vahid elektron platforma üzərindən qeydiyyatının və reyestrinin aparılmasını, bu sənədlərin verilməsini, keyfiyyət təminatı sahəsində fəaliyyətlərin rəqəmsallaşdırılmasını, bu sahədə mövcud pərakəndəliyin aradan qaldırılmasını təmin edəcək, maraqlı tərəflərə keyfiyyətə nəzarət sahəsində həyata keçirilən fəaliyyətlərin nəticələrini asanlıqla izləmək imkanı yaradacaq.

Deputat Eldar Quliyev məsələ barədə fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Mülki Məcəllədə, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

Sənəddə təklif olunan dəyişikliklərdə uşaq hüquqlarının qorunması məqsədilə qəyyumluq və himayə orqanlarına bir sıra səlahiyyətlər verilir. Nəzərdə tutulan dəyişikliklər qəyyumluq və himayəçilik orqanlarının razılığı ilə həmin orqanların qərarlarının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın informasiya sisteminə daxil edilməsi və həmin sistem vasitəsilə əldə edilməsi məqsədilə hazırlanıb və bu sahədə fəaliyyətin elektron informasiya sistemi üzərindən daha operativ həyata keçirilməsinə yönəlib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Əmək və sosial siyasət komitəsinin üzvü Nigar Məmmədova sənədin təmsil etdikləri komitələr tərəfindən dəstəkləndiyini bildiriblər.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Millət vəkili bildirib ki, dəyişikliklərdə icra məmurunun icra sənədləri üzrə ödənilməli olan pul vəsaitlərinin, icra ödənişlərinin, habelə icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin ödənilməsinin yalnız nağdsız qaydada həyata keçirilməsi ilə bağlı vəzifəsi təsbit olunur. Layihəyə əsasən, həmçinin icra icraatı çərçivəsində pul vəsaitlərinin ödənilməsi də yalnız nağdsız qaydada icra xidmətinin depozit hesabları vasitəsilə həyata keçirilir. Bununla əlaqədar İnzibati Xətalar Məcəlləsində icra icraatı üzrə ödənişlərin nağd qaydada həyata keçirilməsinə görə inzibati məsuliyyət müəyyən edilir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məsələ ilə əlaqədar rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini nəzərə çatdırdıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra iclasda Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) nəzərdən keçirilib. Layihə barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məlumat verib. Qeyd edilib ki, dəyişiklik Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) və Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi (EKTİS) arasında məlumat mübadiləsinin təkmilləşdirilməsinə xidmət edir.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov təqdim edib. O bildirib ki, konseptual cəhətdən təqdim edilən qanun layihəsi hərbi məhkəmələrin yurisdiksiyası çərçivəsinin hərbi xidmət əleyhinə olan böyük ictimai təhlükə törətməyən cinayətlər hesabına genişləndirilməsini və sadələşdirilmiş icraat qaydasında təhqiqatın aparılmasını nəzərdə tutur.

Layihədə Cinayət-Prosessual Məcəlləsinə əlavə edilməsi nəzərdə tutulan 214.4-1-ci maddəyə əsasən, müvafiq icra hakimiyyəti orqanına aid hərbi hissələrin və hərbi idarələrin ərazisində həmin orqanın hərbi qulluqçuları tərəfindən törədilmiş Cinayət Məcəlləsinin "Hərbi xidmət əleyhinə olan cinayətlər" adlanan 35-ci fəslində nəzərdə tutulan bir sıra cinayətlər üzrə müvafiq icra hakimiyyəti orqanının təhqiqatçıları tərəfindən məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat aparılması təklif edilir. Həmin cinayət əməllərinin tərkibini açıqlayan Nizami Səfərov bu konseptual dəyişikliklə bağlı layihədə Cinayət-Prosessual Məcəlləyə, İnzibati Xətalar Məcəlləsinə, həmçinin "Məhkəmələr və hakimlər haqqında" Qanuna təklif olunan zəruri əlavələri və terminoloji dəqiqləşdirmələri ətraflı şəkildə diqqətə çatdırıb.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Məsələ ilə bağlı Mədəniyyət komitəsinin üzvü Şahin Seyidzadə məlumat verib. O diqqətə çatdırıb ki, dövlət mühafizəsinə götürülən abidələrin pasportlaşdırılmasının ümumi qaydalarının qəbulu üçün "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunun 6-cı maddəsinə müvafiq dəyişiklik təklif olunub. Dəyişikliyə əsasən, daşınmaz abidələrin pasportlaşdırılması qaydaları və pasportun nümunəvi forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

Müzakirədə Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, deputatlar Sahib Alıyev, Rizvan Nəbiyev və Səyyad Salahlı çıxış ediblər, qeydlərini səsləndiriblər.

Şahin Seyidzadə səslənən qeydlərə münasibət bildirəndən sonra sənəd birinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*



# “24 aprel”ə 23 aprel hədiyyəsi

Dünya coğrafi, iqlim, ərazi fərqlilikləri ilə doludur.

Belə fərqliliklər etnik qrupların, millətlərin, xalqların da həyatında müşahidə edilir.

Söhbət təkcə irqi, dini, adət-ənənə və dil müxtəlifliyindən getmir.

Bunlar təbiidir!

*Hər hansı bir millətin, xalqın özünəməxsus, başqalarında olmayan cəhət və xüsusiyyətləri də mövcuddur.*

MƏSƏLƏN:

Afrikadakı tropik meşələrdə yaşayan qəbilələr geyimləri və həyat tərzləri ilə kimsəyə bənzəmirlər.

Şimalda yaşayan, ömürləri buzlaqlarda keçən aborigenlər də qida, "mənzil" və məişət sarıdan xeyli fərqlidirlər.

Bunlar iqlimdən və coğrafi ərazidən irəli gələn fərqliliklərdir.

**Amma millətin mahiyyətindən doğan xüsusiyyətlər də olur!**

Adətən qaraçılar köçəri həyat sürər, vətənsiz hesab olunar, dolanışıqlarını dilənməkdən çıxararlar.

Belə yaranıblar, əsrlər boyu bu cür yaşayırlar, həyatları da buna uyğunlaşıb.

*Ermənilər də vətənsizdirlər.*

*Günləri harada xoş keçsə, orada kök salırlar.*

Amma harada yaşasalar, sonradan həmin ərazinin əsrlər boyu onlara məxsusluğunu "sübut etməyə" çalışırlar.

**Həmişə onlara yurd, çörək və dolanışıq verənlərə sonda xəyanət edirlər.**

**Özlərinə daim bir ağa taparaq ona nökərçilik etməyi, ağalarını hərdən dəyişməyi sevirlər.**

*Ən böyük istəkləri isə məzlum, fağır, soyqırımına uğramış millət kimi özlərini tanıtmaq və qəbul etdirməkdir!*

Uzun illər buna çalışıb, xeyli pul xərcləyib senator, konqresmen, deputat, siyasətçi və digərlərini korrupsiya yolu ilə ələ alaraq bu "müqəddəs arzularına" xidmət edən alətə çeviriblər.

**Yırtıcı xislətlərini məzlum, fağır libasında gizlətmək ən böyük şakərləridir! Buna "erməni xəstəliyi" də deyirlər.**

❖ ❖ ❖

*Haylar əbədi arzularını "tarixiləşdirmək" üçün zaman və məkan da müəyyənləşdiriblər.*

**Guya bu "zavallı millət" Türkiyədə 1915-ci ildə "soyqırımı"na uğrayıb.**

*Səbəbindən çox danışmırlar.*

*Əvəzində saxta göz yaşları ilə "ümman"lar yaradırlar.*

Müharibə aparan Türkiyənin kürəyinə arxadan bıçaq sapladıqlarını, onların xəyanətini zərərsizləşdirməkdən ötrü Türkiyə dövlətinin köçürülmə ilə bağlı xüsusi qərar qəbul etdiyini dilə gətirmirlər.

**Öz arxivlərini dünyaya açan Türkiyənin erməni arxivlərinin açılması və birlikdə tədqiqat, araşdırma aparılması barədə təkliflərini qulaqardına vurduqlarını da gizlədirlər.**

*Yaxşı bilirlər ki, nə "erməni soyqırımı"nı sübut edən fakt, sənəd var, nə də "soyqırımına məruz qalanlar"ın sənədlə sübuta yetirilən siyahısı.*

Bir sıra dövlətlər isə bu saxta iddiadan Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə etmək niyyətilə illər ərzində dəfələrlə saxta iddianı müzakirəyə çıxarır, müəyyən "sənədlər" qəbul edirlər.

**Hər il aprelin 24-də haylar özlərinə "qara bayram" keçirirlər.**

Bu da səmimiyyətdən doğmur...

"Erməni soyqırımı" mifini gündəmdə saxlamağa, saxta göz yaşları axıdaraq ianə və qrantverənlərin ürəyini yumşaltmağa, müxtəlif ölkələrin parlamentlərində korrupsiya yolu ilə yalançı sənədlər qəbuluna xidmət edir.

Üstəlik, erməni diasporlarının təşkilatçılığı ilə müxtəlif ölkələrdə pulyığma kampaniyaları keçirilərək ianələr hesabına yaşayan Ermənistana göndərilir.

*Çoxsaylı ianə kampaniyalarında toplanan böyük məbləğdə vəsaitlərin bir hissəsini təşkilatçılar, bir hissəsini forpost dövlətin rəhbərləri mənimsəyirdilər.*

Qalanı işğala dəstəkdən ötrü erməni ordusuna yönəldilirdi.

*Burada da generalitet və qondarma qurumun "rəhbərləri" öz paylarını oğurlayırdılar.*

**Erməni xalqının və erməni hərbi hissələrində xidmət edənlərin payına düşən isə Yerablurun sahəsini genişləndirmək olurdu.**

❖ ❖ ❖

24 aprelin ən "həyəcanlı anı" isə həmin gün ABŞ prezidentlərinin bu "hadisə" ilə bağlı çıxışları və öz nitqlərində işlətdikləri "ifadə" olardı.

Dünya erməniliyi adəti üzrə çalışır ki, ABŞ Prezidenti hadisədən danışarkən "soyqırımı" ifadəsi işlətsin.

Bu zaman ermənilər özlərini hədsiz dərəcədə xoşbəxt sayırlar.

Belə bir xoşbəxtlik isə cəmi iki dəfə dünya ermənilərinə qismət olub.

Birinci dəfə 22 aprel 1981-ci ildə R.Reyqan "soyqırımı" ifadəsini işlətdi.

Bundan 40 il sonra 2021-ci ildə C.Bayden "soyqırımı" dedi.

*ABŞ-nin iki prezidenti bu sözü işlədərkən dünya qopmadı.*

*Sadəcə olaraq seçkilər zamanı onlara səs vermiş erməni diasporunun borcundan çıxmış oldular.*

Onların "soyqırımı" demələri heç bu nağıla inananların sayını da artırmadı.

**Ermənilər diqqəti özlərinə cəlb etmələri və gündəmdə qalmaları üçün hələ ki "soyqırımı"ndan başqa bir şey icad edə bilməyiblər.**

Xocalı soyqırımından, Qarabağda barbarlıqlar törətdikdən sonra o da "moddan" düşməkdədir.

Amma vərdişi tərgitmək də asan iş deyil.

❖ ❖ ❖

Uzun illər ermənilərin "qara bayram"larına təəssüflə, təbəssümlə, bəzən də qəzəblə baxmışıq.

**Çünki bu "bayram"la onlar vəhşi xislətlərini, murdar simalarını gizlətməyə can atırdılar.**

Özlərini "zorakılığa məruz qalan", "məzlum", "günahsız" varlıq kimi təqdim etməklə bizə qarşı ərazi iddialarını, işğal faktını ört-basdır edəcəklərini düşünürdülər.

Əslində, buna inananlar yalnız dünya erməniliyindən, onun ayrı-ayrı ölkələrdəki diasporlarından maliyyə, seçkilərdə səs asılılığı olan dövlətlərdir.

Məsələn, ABŞ-nin keçmiş prezidenti R.Reyqan "soyqırımı" ifadəsini işlətdikdən sonra öz müşavirinə belə bir faktın doğruluğunu yoxlamaq tapşırığı vermişdi.

Araşdırmadan sonra saxtakarlığın mövcudluğunu dəqiqləşdirən müşavir bu barədə mətbuatda öz açıqlamasını yaymışdı.

Lakin illər sonra C.Bayden eyni ifadəni işlətdi.

Bilə-bilə ki, belə bir soyqırımı heç zaman olmayıb!

*Çünki o, prezident seçkilərində D.Trampa məğlub olacağını başa düşmüşdü.*

*Bu səbəbdən ABŞ-dəki "erməni səsləri"nə möhtac idi.*

Amma son məqamda Ermənistanla strateji müttəfiqlik barədə imzaladıqları sənəd də köməyinə çatmadı.

**Fransa Prezidenti E.Makron isə prezidentliyinə görə təkcə "erməni səsi"nə deyil, Fransadakı erməni diasporunun maliyyəsinə də borcludur.**

Odur ki, daim ermənidən də betər ermənilik edir, bu gün isə Ermənistanı silahlandırmaqla, ona siyasi dəstək nümayiş etdirməklə revanşa hazırlaşdırır.

*Rusiya KİV-i də erməni diasporunun tam nəzarəti altındadır və Rusiyanın maraqlarından çox erməni maraqlarını qoruyur.*

Ermənilərin müdafiəçiləri və dəstəkçiləri "soyqırımı günü" nə qədər göz yaşları axıtsalar da, bilirlər ki, artıq qatar gedib!

**"Soyqırımı" iddiası da yalandır, "qara bayram" ağlaşması da faydasızdır!**

**"Dəmir yumruq" təkcə işğal faktını aradan qaldırmayıb, "erməni soyqırımı"nı da puça çıxararaq mənasız hala salıb!**

❖ ❖ ❖

Nə qədər ki Azərbaycanla Ermənistan arasında sülh sazişi bağlanmayıb, deməli, müharibə ilə sülh arasında seçim də hələ başa çatmayıb.

Azərbaycanın mövqeyi bəllidir və qətidir!

İlk dəfə sülh təşəbbüsü ilə çıxış edən də biz olmuşuq!

Ermənistan isə hələ də nala-mıxa döyür.

Müharibə etməyə özündə təpər yoxdur.

Ordusu qocaların və "haxcıxlar"ın hesabına komplektləşdirilir!

*Lakin ilana zəhər verən kərtənkələlər - onu intensiv şəkildə silahlandıranlar və revanşa hazırlayanlar başqa niyyətdədirlər.*

Ermənistan isə belələrinin küyünə gedərək atəşkəsi sistemli şəkildə pozur və xislətinə xas olaraq günahı Azərbaycanın üzərinə qoymaq istəyir.

**Azərbaycan isə nə qədər sülh və Cənubi Qafqazda əməkdaşlıq tərəfdarı olsa belə qoyduğu şərtlər təmin edilməyənədək - Ermənistan öz Konstitusiyasında dəyişiklik apararaq Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyincə, ATƏT-in Minsk qrupunun ləğvinə dəstək verməyincə və Azərbaycandan Azərbaycana sərbəst keçidi təmin etməyincə sülh müqaviləsi imzalanmayacaqdır!**

"Dəmir yumruq" daim hazır vəziyyətdədir!

Azərbaycanın hansı silahlara və orduya sahib olduğunu təkcə Ermənistan deyil, onu qızışdıranlar da yaxşı bilirlər!

*Yeni müharibənin başlayacağı təqdirdə isə Ermənistanın dəstəkçilərinin heç biri canlı qüvvəsini ona köməyə - ölümə göndərməyəcəkdir!*

Hadisələrin gedişi isə göstərir ki, Paşinyan sülh yaratmaqla yox, hakimiyyətdə qalma ömrünü uzatmaqla məşğuldur.

*Sonuncu fakta nəzər salaq:*

Ermənistanın "ARAR" sivilizasiya araşdırmaları fondunun ictimai məsələlərlə bağlı keçirdiyi sosial sorğunun nəticələrinə görə, hayların 97,5 faizi Ermənistan Konstitusiyasında dəyişikliklərin əleyhinədir.

"Daşnaksütyun" partiyası isə Azərbaycanla imzalanacaq istənilən sazişi "satqınlıq", "ərazi itkiləri", yaxud "rəsmi təslimolma aktı" sayır.

Erməni keşişləri də dayanmadan hayları yeni müharibəyə çağırırlar.

**Göründüyü kimi, dövlət vətəndaşını sülhə hazırlamır.**

**Atəşkəs rejimi isə sistemli qaydada pozulur.**

❖ ❖ ❖

30 illik işğal dövründə ermənilərin saxta 24 aprel soyqırımı günündə necə göz yaşları tökdüklərini, ABŞ, Fransa, Rusiya parlamenti üzvlərinin İrəvandakı yalançı soyqırımı abidəsinə necə əklillər qoyduqlarını, ermənilərə xoş gəlsin deyə hətta yalandan göz yaşları axıtdıqlarını dəfələrlə izlədik.

Saxta soyqırımının "anım günü"nü keçirən ermənilər əməldə Xocalı, Qaradağlı, Başlıbel, Ağdaban, Bağanıs-Ayrım soyqırımlarını törətdilər və onların bu vəhşilikləri sənədlərlə, foto və video çəkilişləri şahidlərin ifadələri ilə sübuta yetirilir.

**Özlərini "qədim mədəniyyətə malik xalq" adlandıran haylar Qarabağda və Şərqi Zəngəzurda Azərbaycana məxsus bütün mədəni və tarixi abidələri qəsdən məhv etdilər.**

Özlərini "xristianlığı birinci qəbul edən" millət kimi təqdim edən ermənilər Azərbaycan ərazisindəki bütün məscidləri dağıtdılar, içərisində mal-qara, donuz saxladılar, qəbiristanlıqlarımızı yerlə yeksan etdilər.

*ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri onların bütün barbarlıqlarına göz yumdular, sülh danışıqlarını sonsuzadək uzadaraq işğalı əbədiləşdirmək və legitimləşdirmək yolunu tutdular.*

Azərbaycan xalqı bütün bu ədalətsizliklərə dözdü.

Dözdü və qisas gününə hazırlaşdı!

Dözdü və torpaqları hərbi yolla azad etmək üçün zəruri tədbirlər gördü!

Həmin gün gəldi çatdı!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev "irəli" əmrini verdi!**

**"Dəmir yumruq" işə düşdü!**

*44 gün ərzində Ermənistan ordusu məhv edildi, torpaqlar işğaldan azad olundu!*

*Lakin cənab İlham Əliyev tələsmədi...*

**Nəyi nə vaxt və necə etməyi yaxşı bildiyindən hər addımı vədəsində atdı.**

**2023-cü il aprelin 24-nə gözəl bir hədiyyə də hazırladı!**

*Qəhrəman hərbçilərimiz 2023-cü il aprelin 23-də Həkəri çayı üzərindəki körpüdə möhtəşəm bir hərbi əməliyyat keçirdilər.*

**Artıq xəyanət yoluna çevrilən, Qarabağa terrorçu, silah-sursat, mina daşınan Laçın dəhlizi bağlanaraq körpü üzərində Azərbaycana məxsus nəzarət-buraxılış məntəqəsi quruldu.**

*Beləliklə, Azərbaycanın ərazi bütövlüyü də tam təmin edildi!*

*Bu, "dəmir yumruğ"un ikinci zərbəsi idi!*

- Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəfələrlə etdiyi xəbərdarlıqlardan nəticə çıxarmayan;
- RSK-nın ikiüzlü mövqeyindən istifadə edərək ölkəmizdə terror əməllərini davam etdirən;
- Qarabağdakı hərbi birləşmələri, terrorçu qruplaşmaları geri qaytarmayan;
- Üçtərəfli Bəyanatın bütün maddələrini icra etməyən Ermənistan ikinci böyük məğlubiyyətə uğradıldı!

**İndi daha 24 aprel "soyqırımı günü" bizi qıcıqlandırmır!**

**Çünki bizim 23 aprel qələbəmiz həmin günü haylar üçün əsl matəmə çevirdi!**

*2023-cü il sentyabrın 19-20-də isə bütün saxtakarlıqlara son qoyduq!*

*"Böyük Ermənistan" xülyasını böyük qələbələrimizlə puça çıxardıq!*

Bu isə "dəmir yumruğ"un üçüncü zərbəsi oldu!

❖ ❖ ❖

"Axmaq baş sahibinə qapaz yedizdirər" - Azərbaycan atalar sözüdür.

Ermənistan ağıllanmasa, revanş fikri ilə axmaq addımlarını davam etdirsə, "dəmir yumruğ"un yeni qapaz-zərbələrini alacaqdır!

Həm də daha güclü və şiddətli şəkildə!

**Bəxtiyar SADIQOV**








# Leyla Əliyeva Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibinin xanımı ilə görüşüb






Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vyetnama səfəri çərçivəsində Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş bu ölkənin Milli Təsviri İncəsənət Muzeyində keçirilib. Bildirilib ki, muzey Vyetnamın bədii irsini nümayiş etdirən əsas mədəniyyət ocaqlarındandır. Muzeyin qalereyaları yerli və digər ölkələrdən ziyarətçiləri cəlb edən unikal kolleksiyaya sahibdir. Daimi ekspozisiyalarla yanaşı, burada müvəqqəti sərgilər, uşaqlar üçün yaradıcı məkan da var.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li iki ölkə arasında mövcud əlaqələrin genişlənməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

Qeyd edilib ki, Azərbaycanla Vyetnam arasında sıx əməkdaşlıq hələ Ulu Öndər Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində ilk xarici səfərini məhz Vyetnama etdiyi vaxtdan başlayıb. Bu gün isə Ümummilli Liderin adını daşıyan fond iki ölkə arasında münasibətlərin sıx tərəfdaşlıq, qarşılıqlı hörmət və dostluq səviyyələrində davam etdirilməsi üçün Vyetnamla müxtəlif sahələrdə əlaqələrin dərinləşməsinə öz töhfəsini verir.

Görüşdə dövlət səviyyəsində qurulan münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən mədəniyyət, təhsil, sosial sahələr üzrə layihələr çərçivəsində daha da dərinləşməsinin vacibliyi vurğulanıb, bu il mayın 7-8-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana nəzərdə tutulan səfərinin iki ölkə əməkdaşlığının möhkəmlənməsində növbəti addım olacağına əminlik ifadə edilib.

Dahi Azərbaycan bəstəkarı Qara Qarayevin 1954-cü ildə yazdığı "Vyetnam süitası" əsərinin 2023-cü ildə Hanoy şəhərində premyerasının keçirilməsi, Azərbaycan musiqiçilərinin Vyetnam Milli Musiqi Akademiyası ilə birgə konsert proqramının təşkili kimi mədəni layihələrin gələcəkdə də davam etdirilməsinin, hər iki ölkənin mədəniyyət günlərinin təşkil olunmasının, o cümlədən mədəniyyət xadimlərinin, ziyalıların və gənc fəalların qarşılıqlı səfərlərinin vacibliyi vurğulanıb.

Heydər Əliyev Fondunun Vyetnamda həyata keçirdiyi layihələrin bundan sonra da müxtəlif sahələr üzrə davam etdiriləcəyi bildirilib, iki ölkənin turizm potensialı, ətraf mühitin qorunmasına yönələn layihələr diqqət mərkəzində olub. Həyata keçirilən layihələrin ölkələrimiz və xalqlarımız arasında münasibətlərdə xüsusi rol oynadığı qeyd edilib.

# Leyla Əliyeva Vyetnamın vitse-prezidenti ilə görüşüb




Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vyetnam Sosialist Respublikasına səfəri çərçivəsində bu ölkənin vitse-prezidenti Vo Ti An Suan ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın salamlarını Vo Ti An Suana çatdıran Leyla Əliyeva səfər zamanı keçirilən görüşlərin və aparılan müzakirələrin bundan sonra da əlaqələrə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı Azərbaycan və Vyetnamın dövlət başçılarının qarşılıqlı səfərlərindən sonra əməkdaşlığın və siyasi dialoqun intensivləşdiyi bildirilib.

Dövlətlərarası diplomatik münasibətlərlə yanaşı, xalqlar arasında əlaqələrin, o cümlədən qeyri-hökumət səviyyəsində əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb. Hanoy Ticarət və Turizm Kollecində, görmə qabiliyyəti məhdud uşaqlar üçün orta məktəbdə bir sıra görüşlərin keçirildiyi qeyd olunub, təhsil, sosial və ətraf mühitin qorunması sahələrində layihələrin bundan sonra da davam etdiriləcəyi bildirilib.

Görüşdə, həmçinin hər iki ölkənin turizm potensialının inkişafı baxımından əməkdaşlıq və ayrı-ayrı sahələri əhatə edən mübadilə proqramlarının icrası, iki ölkə mədəniyyətinin daha yaxından tanıdılması üçün tədbirlərin təşkili məsələləri diqqət mərkəzində olub.




# Azərbaycan və Əlcəzair XİN-ləri arasında siyasi məsləhətləşmələr aparılıb

Aprelin 21-də Əlcəzair şəhərində Azərbaycan və Əlcəzair Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin ikinci iclası keçirilib.

Azərbaycan Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Əlcəzair tərəfindən isə Xarici İşlər Nazirliyinin Baş katibi Lounes Maqraman rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ikitərəfli siyasi, iqtisadi, ticarət və parlamentlərarası əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb. İki ölkə arasında neft-qaz, eləcə də bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların mövcud olduğu qeyd edilib. Çoxtərəfli formatda, xüsusilə beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib. Azərbaycanın 2026-cı ildə İslam Əməkdaşlıq Təşkilatının sammitinə evsahibliyinin mühüm hadisə olduğu, ölkəmizin nüfuzu və beynəlxalq tədbirlərə evsahibliyində zəngin təcrübəsinin qeyd edilən Zirvə görüşünün uğurlu təşkilinə əminlik yaratdığı xüsusi olaraq qeyd edilib. Əlcəzair tərəfinə münaqişə sonrası mövcud vəziyyət və sülh prosesi, o cümlədən azad olunmuş ərazilərdə aparılan bərpa, quruculuq işləri, ərazilərimizin minalardan təmizlənməsi və vətəndaşlarımızın öz doğma torpaqlarına qayıdışı barədə məlumat verilib. Siyasi məsləhətləşmələr zamanı tərəflər, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıblar.

Y.Rəfiyev, həmçinin səfər çərçivəsində Əlcəzair xarici işlər, xaricdəki milli icma və Afrika məsələləri naziri Əhməd Attaf tərəfindən qəbul edilib. Görüşdə Azərbaycan ilə Əlcəzair arasında siyasi münasibətlərin inkişaf dinamikasından məmnunluq ifadə olunub, iki ölkə arasında iqtisadi, ticarət və sərmayə sahələrində əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulanıb.

Nazir müavini səfəri çərçivəsində Əlcəzairin Milli Mücahidlər Muzeyi ilə tanış olub. Muzeylə tanışlıq zamanı Əlcəzair xalqının müstəmləkəçiliyə qarşı apardığı müqavimət hərəkatı barədə məlumat verilib.

# Azərbaycan ilə Çin arasında energetika sahəsində bir sıra sənədlər imzalanıb

Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində ölkəmizin Energetika Nazirliyi ilə Çin şirkətləri arasında bir sıra sənədlər imzalanıb.

AZƏRTAC xəbər verir ki, imzalanmış sənədlər arasında "Azərbaycan Respublikasının Hökuməti və "Universal Solar Azerbaijan" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Azərbaycan Respublikasında 100 MVt gücündə Qobustan Günəş-Elektrik Stansiyası Layihəsi ilə bağlı İnvestisiya Müqaviləsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "China Energy Overseas Investment Co. Ltd." şirkəti arasında Azərbaycan Respublikasında dənizdə külək enerjisi layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "China Datang Overseas Investment Co. Ltd" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Böyükşor gölündə 30 MVt gücündə batareya enerji saxlanc sistemi ilə 100 MVt gücündə üzən Günəş-Elektrik Stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi, "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "PowerChina Resources Limited" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 160 MVt gücündə Günəş-Elektrik Stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi (mübadilə ediləcək)", Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında "Bərpaolunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti, "China Datang Overseas Investment Co. Ltd" və "PowerChina Resources Limited" arasında Xəzər dənizinin Azərbaycan sektorunda 2 QVt gücündə dənizdə külək enerjisi layihəsinin inkişafına dair Anlaşma Memorandumu" yer alıb.

# "Vətənpərvər gənclik parlaq gələcəyimizin təminatıdır"

Aprelin 22-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, YAP Xətai rayon təşkilatı və Xətai Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Vətənpərvər gənclik parlaq gələcəyimizin təminatıdır" mövzusunda tədbir keçirilib.




Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin Xətai rayonu ərazisində yerləşən abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra Zəfər parkı ziyarət olunub.

YAP Xətai rayon təşkilatının qərargahında keçirilən tədbirdə öncə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının əhəmiyyətindən danışıb. R.Mirzəyev bildirib ki, bu il müstəqil Azərbaycanın ilk Konstitusiyanın qəbul edilməsinin 30, Vətən müharibəsində tarixi Zəfərin qazanılmasının 5 ili tamam olur. Onun sözlərinə görə, möhtəşəm Qələbənin əldə edilməsində gənclərin müstəsna rolu var. Bu da onların vətənpərvərlik ruhunda formalaşmasından irəli gəlir.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva bildirib ki, gənclər siyasəti Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu siyasətin əsas məqsədi gənclərin hərtərəfli inkişafını təmin etmək, onları yüksək vətənpərvərlik ruhunda formalaşdırmaq, layiqli vətəndaş kimi yetişdirməkdən ibarətdir. Qeyd edib ki, xalqımız şanlı Zəfər qazanmaqla tarix yazıb: "Bu tarixi gələcək nəsillərə çatdırmalıyıq. Bunun üçün Vətəni sevmək, tariximizi dərindən öyrənmək lazımdır. Müstəqil dövlətimiz Ulu Öndər Heydər Əliyevin bizə əmanətidir və bu əmanəti hər zaman qorumalıyıq".

Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev çıxışında müstəqil Azərbaycanın ilk Konstitusiyanın Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə geniş ictimai müzakirələr şəraitində hazırlandığını, Əsas Qanunda demokratik dəyərlərin öz əksini tapdığını vurğulayıb. Diqqətə çatdırıb ki, 1995-ci ildə Konstitusiyanın ümumxalq səsverməsi ilə qəbul olunmasından sonra müstəqil dövlət quruculuğu başlandı. Artıq Azərbaycan böyük inkişaf yolu keçərək güclü dövlətə çevrilib. "Şanlı Qələbəmizin qazanılmasının ciddi əsasları var. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dövlətimiz bütün istiqamətlərdə gücləndi. Nəticə etibarilə, ölkəmiz möhtəşəm Qələbəyə imza ataraq öz ərazi bütövlüyü və suverenliyini təmin etdi", - deyən R.Quluyev qeyd edib ki, yüksək vətənpərvərlik ruhunda formalaşan gənclərimiz bu müqəddəs işdə tarix yazdı. O deyib ki, öz qanları, canları hesabına tarix yazan vətənpərvər Azərbaycan gənclərinin həyat yolu gələcək nəsil üçün nümunə oldu: "Bu gün şəhid ailələrinə, qazilərə yüksək qayğı mövcuddur. Onlara hər zaman diqqət göstərmək bizim əsas vəzifələrimizdən biridir". YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova isə qeyd edib ki, müstəqil Azərbaycanın konstitusiya quruluşunun tam bərqərar olmasında gənclərimizin vətənpərvərliyi öz sözünü dedi: "Gənclər hər bir xalqın xoşbəxt gələcəyə olan ümididir. Gənclər cəmiyyətin dinamik, hərəkətverici, fəal hissəsi, ideyaların gələcəyə ötürülmə qüvvəsidir. Buna görədir ki, onların vətənpərvərlik ruhunda yetişdirilməsi əsas məsələlərdən biridir. Azərbaycanda dövlət siyasətinin mühüm prioritetlərindən biri gənclərin inkişafıdır. Bu istiqamətdə davamlı addımlar atılır", - deyə YAP Veteranlar Şurasının sədr müavini vurğulayıb.

Çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov qeyd edib ki, Azərbaycan gəncliyinin inkişafında Ümummilli Lider Heydər Əliyev əvəzolunmaz xidmətlər göstərib: "Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin müxtəlif illərdə gəncliyin inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar ölkəmizdə həyata keçirilən gənclər siyasətinə yeni impuls verib".

B.İslamov deyib ki, gənclərimizin böyük üstünlük təşkil etdiyi rəşadətli Azərbaycan Ordusunun tarixi Qələbəsi milli kimliyimizin, vətənpərvərlik və dövlətçilik dəyərlərimizin real təzahürü idi: "Vətən müharibəsində qazandığımız Qələbə yeni dövrün də əsasını qoydu. Təsadüfi deyil ki, 2020-ci ilədək Azərbaycan gəncliyinin ən ali vəzifəsi işğal altındakı tarixi torpaqlarımızın azad olunması idi. Yeni dövrün reallıqları isə Azərbaycan gəncliyinin üzərinə yeni bir vəzifə qoyur. Prezident İlham Əliyevin Vətən müharibəsindən sonrakı dövrdə çıxışlarına nəzər saldıqda bu vəzifəni daha aydın başa düşürük. Qazanılmış Zəfərin qorunması, hər zaman savadlı, dünyagörüşlü, vətənpərvər yeni nəslin formalaşması, Qələbəmizi əsas miras olaraq gələcək nəsillərə ötürmək - məhz bunlar Azərbaycan gəncliyinin yeni dövrün reallıqları fonunda başlıca vəzifələridir".

Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov çıxışında bildirib ki, torpaqlarımızın işğaldan azad edilməsində Azərbaycan gəncləri böyük şücaət göstəriblər: "Qazandığımız Zəfər Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlıq salnaməsidir. Hər bir döyüşçü, o cümlədən gənclər, öz həyatını Vətən yolunda fəda edən şəhidlərimiz və qəhrəman qazilərimiz tarix yazdılar".

O qeyd edib ki, müharibəyə yollanan gənclərin hamısı döyüşlərdə qəhrəmancasına iştirak etdi. "Onlar bütün dünyaya Azərbaycan gəncinin nəyə qadir olduğunu göstərdilər. Hər biri öz cəsurluğu, igidliyi ilə vətənpərvərlik salnaməsi yazdı, Qələbəmiz dillərdə dastana döndü. Vətən uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalanların böyük əksəriyyətini də məhz gənclər təşkil etdi. Biz şəhidlərimizin əziz xatirəsini hər zaman böyük ehtiramla anırıq", - deyə Vətən müharibəsi Qəhrəmanı vurğulayıb.

İnteraktiv formada davam edən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

Daha sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Azərbaycanın xarici siyasətinin uğurları



# Uzaqlar yaxın olur

## Azərbaycanın etibarlı tərəfdaş imici Çin kimi dünya nəhəngini də cəlb edir

**Keçən ilin iyul ayında ŞƏT-in Astanada keçirilən 24-cü sammitində Azərbaycan-Çin strateji tərəfdaşlığının qurulmasına dair Birgə Bəyannamənin imzalanması ölkələrimizin münasibətlərində yeni səhifə açdı. Bununla qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın inkişafına geniş imkan yarandı. Bu mühüm sənəd o cümlədən iqtisadi əməkdaşlığın genişləndirilməsinə yeni bir impuls verdi.**

Beləliklə, iki ölkə arasında iqtisadi əməkdaşlıq da müsbət dinamikaya malikdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il ölkəmizin xarici ticarətinin ümumi həcminin 7,9 faizi Çinin payına düşüb. Çin bizim dördüncü böyük ticarət tərəfdaşımızdır və ilk dəfə əsas idxal mənbəyinə çevrilib. Noyabrın 24-də Bakıdan bu ölkəyə Azərbaycanın ixrac malları daşıyan ilk dəmir yolu qatarı yola salınıb. Çinin ayrı-ayrı şəhərlərində Azərbaycan ticarət evləri yaradılıb. Bir sıra yüksəkkeyfiyyətli məhsullarımız çinli alıcıların rəğbətini qazanmaqdadır.

Azərbaycan Çinin irəli sürdüyü "Kəmər və yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olub. Hələ 2019-cu ilin aprelində Çində keçirilən 2-ci "Kəmər və yol" Forumunda çıxış edərkən Prezident İlham Əliyev bildirmişdi ki, bu layihə təkcə nəqliyyat əlaqəsini təmin etmir, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Çinin "Sinxua" Agentliyinə verdiyi məxsusi müsahibədə bu, bir daha xatırladılıb. Dövlətimizin başçısı bu təşəbbüsün iki ölkə arasında praktik əməkdaşlığın inkişafında rolu haqqında sualı cavablandırarkən deyib: "Astanada ÇXR-in Sədri ilə görüşüm əsnasında əldə olunan daha bir razılaşmaya diqqətinizi yönəltmək istəyirəm. Söhbət ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin gələcək inkişafından, onların keyfiyyətcə yeni məzmunla zənginləşməsindən gedir. Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Bəli, həqiqətən Çin Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşına çevrilib, onun xarici ticarət dövriyyəmizdə payı 7,9 faiz olub, həmçinin idxal üzrə də lider mövqeyinə çıxıb və bu göstərici 17,69 faizə çatıb. İki ölkə arasında getdikcə artan iqtisadi-ticari əməkdaşlığa baxmayaraq, hələ də reallaşdırılmayan böyük potensial mövcuddur. Hesab edirəm ki, iki ölkə arasında iqtisadi-ticari əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya ikitərəfli iqtisadi əlaqələri genişləndirmək, əməkdaşlığın perspektivli istiqamətlərini aşkara çıxarmaq və onları hüquqi müstəvidə bundan sonra möhkəmləndirmək üçün mühüm mexanizmdir. Komissiyanın qərarlarının vaxtında yerinə yetirilməsi səylərimizin uğur qazanmasının rəhni olacaq".

Azərbaycan ilə Çin arasında iqtisadi əlaqələrin inkişafı, ölkələrimizin strateji tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi və mövcud problemlərin həlli məqsədilə 2009-cu ilin mayında Hökumətlərarası İqtisadi Komissiya yaradılıb. 2012-ci ildə Pekində Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi ilə Çinin Kommersiya Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Həmçinin Azərbaycan 2016-cı ildə Asiya İnfrastruktur İnvestisiya Bankına üzv olaraq beynəlxalq iqtisadi layihələrə daha sıx inteqrasiya edib.

Müsahibədə bir daha vurğulanıb ki, artıq ÇXR-in Pekin, Şanxay, Urumçi, Tsindao, Çendu, Nankin və Çjantszyatsze şəhərlərində Azərbaycan ticarət və şərab evləri fəaliyyət göstərir. Çində tanınmış beynəlxalq "JD" onlayn ticarət platformasında da Azərbaycan Ticarət Evi yaradılıb. Bütün bunlar ticarət münasibətlərinin daha da inkişafına xidmət edir.

İndiyədək Azərbaycanda Çin kapitalı ilə 375 şirkət qeydə alınıb, onlardan 298-i ölkəmizdə aktiv fəaliyyət göstərir. Hazırda iki ölkə arasında qeyri-neft sektorunda, xüsusən yüksək texnologiyalara və innovasiyalara, alternativ və bərpaolunan energetikaya yönəlmiş birbaşa investisiyaların cəlb olunması sahəsində birgə əməkdaşlığın perspektivlərinə dair danışıqlar aparılır.

Prezidentimiz "Kəmər və yol" təşəbbüsü çərçivəsində Çinlə əməkdaşlığın genişləndirildiyini də vurğulayaraq deyib: "Bu istiqamətdə artıq mühüm uğurlar qazanılıb. Özünün əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, beynəlxalq nəqliyyat dəhlizlərini fəal inkişaf etdirməyə, müasir infrastruktur yaratmağa və onların ötürücülük qabiliyyətinin artırılmasına əlavə investisiya qoymağa davam edir. Son 20 ildə ölkəmizdə 21 min kilometr avtomobil yolları salınıb və təmir edilib, 335 körpü və yolayrıcı, 45 tunel, 163 yerüstü və yeraltı keçid tikilib. Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması üzrə böyük işlər görülüb, 1500 kilometrdən artıq dəmir yolu tikilib və 1800 kilometrlik sahə təmir edilib. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz), həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "Kəmər və yol" təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması üçün yeni perspektivlər açır".

Orta dəhlizin əhəmiyyəti sürətlə artır. Hazırda bu, Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur. Yüklərin Çindən Avropaya və əks istiqamətdə çatdırılmasının ən optimal yolu da budur. Keçən il Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta dəhlizlə 287 marşrut qatarı yola salınıb. İl ərzində Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur.

Hazırda Azərbaycan beynəlxalq ictimaiyyət tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilir, qlobal güc mərkəzləri ilə siyasi və iqtisadi əlaqələrinin inkişafı əməkdaşlığın daha da genişləndirilməsi baxımından böyük önəm daşıyır. Bunu Çində də yaxşı bilirlər. Dünyanın fövqəldövləti olan Çinin həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycanla əməkdaşlığa böyük diqqət ayırması təbiidir.

Bu gün bunlar deməyə əsas verir ki, Azərbaycan-Çin əməkdaşlığı daha da genişlənəcək və şaxələnəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan-Çin münasibətləri:

## getdikcə dərinləşən strateji tərəfdaşlıq daha qlobal əməkdaşlığa çevrilir

**Azərbaycan qədim İpək yolu üzərində yerləşən strateji mövqeyi ilə yalnız tarixən deyil, həm də müasir dövrdə dünya iqtisadiyyatında və siyasətində mühüm yer tutur. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz Cənubi Qafqazın lider dövləti olaraq beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirib.**



Hazırda Azərbaycan beynəlxalq ictimaiyyət tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilir, qlobal güc mərkəzləri ilə siyasi və iqtisadi əlaqələrinin inkişafı, əməkdaşlığın daha da genişləndirilməsi baxımından böyük önəm daşıyır. Bu mənada Çin Xalq Respublikası ilə əlaqələrin əhəmiyyəti xüsusilə vurğulanmalıdır. Çin öz növbəsində dünyanın fövqəldövləti kimi həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycanla əməkdaşlığa böyük diqqət ayırır. Bu əməkdaşlıq yalnız iki ölkə arasındakı əlaqələri möhkəmləndirməklə məhdudlaşmır, həm də regional və qlobal iqtisadi inteqrasiyanı gücləndirmək üçün mühüm amildir.

AZƏRTAC Azərbaycanla Çin arasında tarixən formalaşmış əlaqələrə, iki ölkə arasındakı münasibətlərin müasir dövrdə inkişafına qısa nəzər salır.

Azərbaycanla Çin arasında münasibətlər min ildən çox əvvəl qədim İpək yolu vasitəsilə başlayıb və bu əlaqələr bu günədək davamlı inkişaf edir. İki xalq arasında tarixi və mədəni əlaqələrin təməli qədim dövrlərə gedib çıxsa da, son 32 il ərzində bu münasibətlər daha da möhkəmlənib və hər iki ölkənin rifahı naminə müxtəlif sahələrdə inkişaf edib.

Azərbaycan ilə Çin arasındakı diplomatik münasibətlər 1992-ci ilin aprelində qurulub. Bu illər ərzində əlaqələr güclənərək, müxtəlif sahələrdə müştərək əməkdaşlıq təşəbbüsləri irəliləyib. 1992-ci ilin avqustunda Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyi açılıb və 1993-cü ilin sentyabrında isə Azərbaycan Milli Məclisi Pekində səfirliyin açılması haqqında qərar qəbul edib.

Azərbaycan-Çin münasibətlərinin inkişafı Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra daha da sürətlənib. 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin Çinə rəsmi səfəri zamanı iki ölkə arasında səkkiz mühüm müqavilə imzalanıb. 1996-cı ilin aprelində isə Çin Xalq Respublikasının Baş nazirinin müavini Tsyan Tsiçen Azərbaycanda səfərdə olub. Bu səfərlər qarşılıqlı əməkdaşlığın və dostluğun möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edib.

Azərbaycan Prezidenti İlham Əliyev də Çinlə əlaqələrin inkişafına xüsusi diqqət ayırıb. 2003-cü ildən sonra dövlətimizin başçısı bir neçə dəfə Çinə rəsmi səfər edib. 2015-ci ilin dekabrında həyata keçirilən səfər zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu" imzalanıb. Bu sənəd ölkələrimizin əməkdaşlığında mühüm önəm daşıyır.

Son illər ərzində Azərbaycan və Çin arasındakı əlaqələrdə xüsusi canlanma yaşanır. 2022-ci ilin sentyabrında Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə keçirilən sammiti zamanı Azərbaycan Prezidenti İlham Əliyev ilə Çin Sədri Si Cinpin arasında keçirilən görüşdə iki ölkə arasındakı münasibətlərin gələcək inkişaf istiqamətləri müəyyənləşdirilib. 2023-cü ilin əvvəlindən isə yüksəksəviyyəli ikitərəfli mübadilələrin yeni dalğası başlayıb, qarşılıqlı səfərlər davam edib.

Prezident İlham Əliyev 2023-cü ildə Çinin "China Media Group" media korporasiyasına verdiyi müsahibədə iki ölkə arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayıb. Dövlətimizin başçısı eyni zamanda bu gün regionun siyasi, habelə nəqliyyat marşrutları xəritəsinə nəzər saldıqda ölkələrimizin bir-biri ilə nə dərəcədə eyni mövqedən çıxış etməsinə toxunub.

"Beynəlxalq gündəliyə aid təməl məsələləri götürsək görərik ki, bizim mövqelərimiz suverenlik, müstəqillik, ərazi bütövlüyü, digərlərinin daxili işlərinə qarışmamaq, iqtisadi əməkdaşlıq məsələlərində üst-üstə düşür. Biz qarşılıqlı ticarətin həcminin artmasını görürük və böyük potensial xüsusilə göz qabağındadır. Ölkələrimizi gələcəkdə daha da birləşdirəcək meydana gələn yeni nəqliyyat marşrutlarını görürük. Bunun özü də regional təhlükəsizliyə və sabitliyə böyük töhfə olacaq", - deyə Azərbaycan Prezidenti bəyan edib.

Prezident İlham Əliyevin bu fikri Azərbaycan ilə Çin arasında mövcud



olan strateji münasibətlərin və əməkdaşlığın uzunmüddətli perspektivini çox yaxşı əks etdirir. Əslində, beynəlxalq gündəlikdə duran suverenlik, müstəqillik və ərazi bütövlüyü kimi prinsiplər bir çox ölkə üçün önəmli məsələlərdir və Azərbaycanla Çin bu mövzularda oxşar mövqedədirlər. Bu yanaşma həmçinin iki ölkənin beynəlxalq arenada bir-birini dəstəkləməsini və qarşılıqlı etibarı artırır. Prezidentin vurğuladığı mövqelər, yalnız rəsmi səviyyədə deyil, həm də gündəlik praktikalarda da əhəmiyyətli bir yol xəritəsi kimi qəbul edilməlidir. Bu yanaşma həm Azərbaycanın, həm də Çinin uzunmüddətli xarici siyasət hədəflərini dəstəkləyən və qarşılıqlı faydalara əsaslanan bir strateji təməl yaradır.

Çin Xalq Respublikasının Sədri Si Cinpin də Azərbaycanla münasibətlərə böyük önəm verdiyini və iki ölkənin dost və tərəfdaş olduğunu dəfələrlə ifadə edib. Bu münasibətlər yalnız iqtisadi və siyasi deyil, həm də regional təhlükəsizlik və sabitlik baxımından mühüm əhəmiyyət daşıyır.

2024-cü il iyulun 3-də isə "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Bu bəyannamə iki ölkə arasında münasibətlərin yeni mərhələyə keçməsini təmin edən mühüm bir addım olub. Birgə Bəyannamə tarixi hadisədir və Azərbaycan-Çin münasibətlərində yeni səhifə açır. Bu bəyannamə həmçinin ÇXR ilə Azərbaycanı rəsmi strateji tərəfdaşlara çevirir.

Dövlətimizin başçısının Çinə budəfəki dövlət səfəri iki ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi işinə xidmət edəcək. Prezident İlham Əliyev Çinin "Sinxua" Agentliyində dərc olunmuş müsahibəsində bu barədə qeyd edib: "Əminliklə deyə bilərəm ki, ÇXR-ə bütün əvvəlki səfərlər zəngin proqrama malik idi və qarşılıqlı maraqlara əsaslanan Azərbaycan-Çin çoxtərəfli əməkdaşlığının genişləndirilməsinə yönəlmiş bir sıra mühüm ikitərəfli sənədlərin imzalanması ilə müşayiət olunurdu. İnanıram ki, qarşıdakı səfər də Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi işinə xidmət edəcək".

Azərbaycan ilə Çin arasında iqtisadi əlaqələrin inkişafı ölkələrimizin strateji tərəfdaşlıq münasibətlərində mühüm yer tutur. Bu əlaqələrin genişləndirilməsi və mövcud problemlərin həlli məqsədilə 2009-cu ilin mayında Hökumətlərarası İqtisadi Komissiya yaradılıb. 2012-ci ildə Pekində Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi ilə Çinin Kommersiya Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Həmçinin Azərbaycan 2016-cı ildə Asiya İnfrastruktur İnvestisiya Bankına üzv olaraq beynəlxalq iqtisadi layihələrə daha sıx inteqrasiya edib.

Azərbaycanın "Kəmər və yol" təşəbbüsünə verdiyi önəm 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə öz təsdiqini tapıb. Bu mühüm layihə həm Azərbaycan, həm də Çin üçün iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə və regional ticarət marşrutlarının inkişafına xidmət edir. Çin hökuməti bu dəmir yolunun istifadəyə verilməsini və tikintisində Azərbaycanın oynadığı mühüm rolu yüksək qiymətləndirib.

Ölkələrimiz arasındakı ticarət dövriyyəsində də müsbət dinamika müşahidə edilir. Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Beləliklə, Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib.

Azərbaycan ilə Çin arasındakı iqtisadi əlaqələrin genişlənməsi, həmçinin beynəlxalq təşkilatlarda da öz əksini tapıb. Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsindəki birgə əməkdaşlıq, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının fəaliyyəti, Asiya İnfrastruktur İnvestisiya Bankı ilə həyata keçirilən birgə layihələr və Azərbaycanın "Kəmər və yol" təşəbbüsünə qoşulması bu əlaqələri daha da gücləndirib. Eyni zamanda "Şərq-Qərb" və Orta dəhliz layihələri çərçivəsindəki tərəfdaşlıqlar nəqliyyat və ticarət əlaqələrinin inkişafına böyük töhfə verib. Pekində Azərbaycanın Ticarət Evinin açılması da bu əməkdaşlığın uğurlarını təzahür etdirir.

Bundan əlavə, Azərbaycan Çin vətəndaşları üçün sadələşdirilmiş viza prosedurları tətbiq etməklə iki ölkə arasında turizm və mədəni mübadiləni asanlaşdırıb. Bu cür təşəbbüslər ölkələrimiz arasında iqtisadi, mədəni və sosial əlaqələrin dərinləşməsinə imkan verir.

İnformasiya sahəsindəki əməkdaşlıq da iki ölkə arasında sıx əlaqələrdə mühüm yer tutur. AZƏRTAC ilə "Sinxua" agentlikləri arasında 20 ildən artıq müddətdir ki, qarşılıqlı xəbər mübadiləsi və sosial media sahəsində əməkdaşlıq həyata keçirilir. Bu, hər iki ölkə arasında informasiya mübadiləsinin sürətlənməsinə və daha geniş auditoriyaya çatdırılmasına şərait yaradır.

Azərbaycan ilə Çin arasında mədəni əlaqələr uzun illərdir möhkəm dostluq körpüsü qurur. 1995-ci il aprelin 12-21-də Pekində keçirilən Səttar Bəhlulzadənin əsərlərinin sərgisi iki ölkə arasında mədəni əməkdaşlığın başlanğıcını qoyub. Həmçinin 2001-ci ildə Çinin Cizian əyalətinin Çücou şəhəri ilə Sumqayıt şəhəri qardaşlaşıb.

2008-ci il avqustun 10-da Pekində XXIX Yay Olimpiya Oyunları çərçivəsində "Azərbaycan günü", 2011-ci ilin mayında isə Çində Azərbaycan Mədəniyyəti Günləri keçirilib. Eyni zamanda 2012-ci il dekabrın 10-14-də Azərbaycanda Çin Xalq Respublikasının Mədəniyyət Günləri təşkil olunub. Azərbaycanda fəaliyyət göstərən iki Konfutsi İnstitutu və Çin dilinə artan maraq iki ölkə arasındakı mədəni əlaqələrin güclənməsinə xidmət edir. Heydər Əliyev Fondunun Nizami Gəncəvinin büstünü Şanxay Əməkdaşlıq Təşkilatının katibliyinə hədiyyə etməsi isə Azərbaycan mədəniyyətinin Çinlə əlaqələrdəki dəyərini nümayiş etdirir. Bu cür mədəni fəaliyyətlər xalqlarımız arasında daha yaxın əlaqələrin qurulmasına və qarşılıqlı anlaşmanın güclənməsinə mühüm töhfə verir.

Heydər Əliyev Fondunun hədiyyəsi olan dahi şair Nizami Gəncəvinin büstünün isə Şanxay Əməkdaşlıq Təşkilatının katibliyinin binasında daim nümayiş olunması Azərbaycan üçün böyük rəmzi xarakter daşıyır.

Azərbaycan ilə Çin arasında formalaşan strateji tərəfdaşlıq münasibətləri təkcə ikitərəfli əməkdaşlıq çərçivəsində deyil, həm də regional və qlobal səviyyədə sülhə, sabitliyə və inkişafa töhfə verən nümunəvi model kimi çıxış edir. Tarixi İpək yolunun yeni nəfəs aldığı dövrdə bu əməkdaşlıq gələcək nəsillər üçün dayanıqlı tərəfdaşlıq və qarşılıqlı fayda prinsipinə əsaslanan uğurlu bir yol xəritəsidir.

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

**XXI əsrin geosiyasi reallıqları, xüsusən də Qərbin siyasi oyunları, enerji təhlükəsizliyi və beynəlxalq hüququn pozulması kimi amillər bir çox ölkələri öz xarici siyasət konsepsiyalarını yenidən nəzərdən keçirməyə vadar edir. Azərbaycan da bu qlobal kontekstdə öz maraqlarını qorumaq və daha etibarlı tərəfdaşlıq modelləri qurmaq üçün xarici siyasətinin coğrafi istiqamətlərini şaxələndirir. Son illərdə isə bu istiqamətlər arasında Şərq və Asiya ön plana çıxmaqdadır. AZƏRTAC bu mövzuda analitik təhlilini oxuculara təqdim edir.**

## *Azərbaycanın xarici siyasəti müasir dövrdə:*
## Şərqə və Asiyaya doğru

### Azərbaycanın xarici siyasəti: Şərqə və Asiyaya doğru

Azərbaycanın xarici siyasət doktrinası uzun illərdir ki, balanslaşdırılmış və çoxtərəfli əməkdaşlığa əsaslanan bir model üzərində qurulub. Bu yanaşma Azərbaycanın həm Qərb, həm də Şərq ölkələri ilə münasibətlərini paralel şəkildə inkişaf etdirməsinə şərait yaradıb. Lakin postpandemiya dövründə və xüsusilə 2020-ci ildən sonra regionda və dünyada baş verən proseslər, Qərbin riyakar münasibəti, Rusiya-Ukrayna müharibəsi, enerji bazarındakı dəyişikliklər Azərbaycanın xarici siyasətində yeni tərəfdaşlıqlar qurması üçün əsaslı zəmin formalaşdırıb.

Bütün bu geosiyasi dəyişikliklər fonunda Azərbaycan Şərqə və Asiyaya doğru xarici siyasət kursunu yalnız alternativ istiqamət kimi deyil, strateji prioritet olaraq formalaşdırmağa başlayıb. Bu siyasət təkcə iqtisadi maraqlarla məhdudlaşmır, həm də siyasi təhlükəsizlik, beynəlxalq nüfuz və diplomatik balansın qorunması baxımından dərin məna daşıyır.

Bu kontekstdə Azərbaycanın beynəlxalq təşkilatlarla fəal əməkdaşlığı da xüsusi vurğulanmalıdır. Azərbaycan Türk Dövlətləri Təşkilatı (TDT) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində fəal diplomatik xətt yürüdərək həm Türk, həm də İslam aləmində inteqrasiyanı gücləndirən mühüm təşəbbüslərlə çıxış edir. Ölkəmizin 2024-2026-cı illərdə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) sədrlik etməsi, regional iqtisadi əməkdaşlığın fəallaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycanın son illərdə nümayiş etdirdiyi uğurlu sədrliyi və təşəbbüsləri bu qurumun nüfuzunun artmasında mühüm rol oynayıb. Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə əməkdaşlıq isə Azərbaycanın Asiya regionundakı geosiyasi mövqeyini möhkəmləndirən, təhlükəsizliyi və iqtisadi əməkdaşlığı təşviq edən yeni bir istiqamət kimi aktuallıq qazanır.

### Asiyada yüksəliş: Yeni iqtisadi güc mərkəzlərində Azərbaycanın strateji rolu

Bu gün Asiya təkcə coğrafi baxımdan deyil, həm də geoiqtisadi və geosiyasi baxımdan dünyanın strateji mərkəzinə çevrilməkdədir. Çin, Pakistan, Hindistan, Cənubi Koreya, İndoneziya, Malayziya, Sinqapur kimi ölkələrin sürətli iqtisadi artımı, texnologiya və sənayedə innovativ yanaşmaları Asiya qitəsini qlobal güc mərkəzi statusuna yüksəldib.






Çin Xalq Respublikası 2023-cü ildə təxminən 18 trilyon ABŞ dolları həcmində ümumi daxili məhsul (ÜDM) ilə dünyada ikinci ən böyük iqtisadiyyata sahib olub. Bununla yanaşı, Çin "Kəmər və yol" təşəbbüsü ilə Asiyanı, Avropanı və Afrikanı birləşdirən nəhəng ticarət və infrastruktur şəbəkəsi formalaşdırır. Bu təşəbbüs çərçivəsində Azərbaycan kimi strateji keçid ölkələri xüsusi əhəmiyyət qazanır. Ölkəmizin nəqliyyat və logistika imkanları, - xüsusilə Zəngəzur dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz), - Asiyanın məhsul və resurslarının Avropa bazarına çıxışı üçün əvəzolunmaz körpü rolunu oynayır. Bu baxımdan, Azərbaycan artıq təkcə regionda enerji ixracatçısı yox, həm də qitələrarası nəqliyyat qovşağı kimi tanınır.

Çin və Azərbaycan arasında əlaqələr son illərdə yalnız ticarət sahəsində deyil, eyni zamanda, təhsil, texnologiya və infrastruktur sahələrində də dərinləşməkdədir. Ötən il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbul olunması iki ölkənin enerji, yaşıl texnologiyalar və nəqliyyat sahələrində əməkdaşlığını daha da genişləndirib. Çin "Kəmər və yol" təşəbbüsündə ölkəmizin rolunu yüksək qiymətləndirir və Azərbaycan vasitəsilə Avropaya çıxışı təmin etmək niyyətindədir. Çin texnologiya, süni intellekt və rəqəmsal transformasiya sahələrində dünya lideridir. Bu sahələrdə əməkdaşlıq Azərbaycanın rəqəmsal iqtisadiyyat strategiyası ilə də üst-üstə düşür.

Qardaş ölkədən strateji tərəfdaşa çevrilən Pakistan isə Azərbaycanın beynəlxalq səviyyədə ən güclü siyasi dəstəkçilərindən biri olmaqla yanaşı, iqtisadi əməkdaşlığın genişlənməsi üçün də böyük potensiala malikdir. Pakistanın Cənubi Asiyanın enerji və logistika mərkəzinə çevrilmək istəyi, Azərbaycanın isə Asiyaya açılan qapı kimi mövqeyi iki ölkəni daha sıx əməkdaşlığa vadar edir. Ölkələrimiz arasında enerji, müdafiə sənayesi, tekstil və əczaçılıq sahələrində əməkdaşlıq perspektivləri xüsusilə əhəmiyyətlidir.

Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistanla Azərbaycanın münasibətləri isə yalnız ortaq türk-mədəni və tarixi köklərə deyil, həm də real iqtisadi maraqlara əsaslanır. Bu ölkələrlə enerji ticarəti, kənd təsərrüfatı, nəqliyyat-logistika, su resurslarının idarə olunması və rəqəmsallaşma sahələrində çoxsaylı razılaşmalar və layihələr həyata keçirilir. Mərkəzi Asiya ölkələri ilə Türk Dövlətləri Təşkilatı çərçivəsində siyasi və iqtisadi inteqrasiya modeli inkişaf edir. Azərbaycan bu təşkilatın fəal üzvü olaraq, region ölkələri ilə transregional enerji və nəqliyyat layihələri sahəsində təşəbbüskar mövqe tutur. Məsələn, Türkmənistan qazının Trans-Xəzər enerji dəhlizi vasitəsilə Azərbaycan ərazisindən Avropaya ötürülməsi məsələsi gündəmdədir. Həmçinin Orta Asiyadan Türkiyə və Avropaya uzanan yükdaşımalarında Azərbaycan əsas tranzit məntəqələrindən biridir.

Asiya ölkələri ilə əməkdaşlıq yalnız ticarət və nəqliyyatla məhdudlaşmır. Rəqəmsal transformasiya, yaşıl enerji, smart kənd təsərrüfatı və texnoloji startaplar sahəsində Asiya dövlətlərinin təcrübəsi, Sinqapurun ağıllı şəhər idarəçiliyi, Cənubi Koreyanın rəqəmsal hökumət modeli və Çinin alternativ enerji texnologiyaları Azərbaycanın milli inkişaf strategiyası ilə üst-üstə düşür. Bu sahələrdə təcrübə mübadiləsi və birgə layihələrin reallaşdırılması ölkəmizin iqtisadiyyatının şaxələndirilməsinə xidmət edir.

Əminliklə deyə bilərik ki, Asiya artıq təkcə uzaq bazar yox, Azərbaycan üçün strateji tərəfdaşlar coğrafiyasıdır. Bu regionla çoxşaxəli əməkdaşlıq ölkəmizin yalnız iqtisadi gələcəyinə deyil, beynəlxalq nüfuzuna və regional liderliyinə də birbaşa təsir göstərir. Azərbaycanın qlobal ticarət və enerji dəhlizlərinin mərkəzində yerləşməsi Şərqlə Qərbi birləşdirən körpü rolunu daha da gücləndirir.

### Prezident İlham Əliyevin ADA Universitetindəki çıxışında strateji niyyətin ifadəsi

Aprelin 9-da ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın xarici siyasətində müşahidə olunan yeni vektorların mahiyyətini aydın şəkildə izah etdi. Prezident çıxışı zamanı Azərbaycanın xarici siyasətinin Şərqə və Asiyaya yönəldiyini xüsusi olaraq vurğuladı. Bu, ölkəmizin artıq təkcə Qərb tərəfdaşları ilə deyil, Şərqdə yerləşən yeni iqtisadi və siyasi güc mərkəzləri ilə sistemli əməkdaşlıq qurmağa qərarlı olduğunu göstərdi.

Prezidentin çıxışı qlobal və regional reallıqları dərindən analiz edən məqamlarla zəngin idi. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanın bu istiqamətdə atdığı addımlar təkcə alternativ axtarışı deyil, çoxqütblü dünya nizamında balanslaşdırılmış siyasət yürütmək strategiyasına əsaslanır. Ölkə Prezidenti bu yanaşmanı Azərbaycanın müstəqil və milli maraqlara söykənən xarici siyasət xəttinin təzahürü kimi təqdim etdi.

Prezident İlham Əliyev, həmçinin bildirdi ki, Qərbdə mövcud olan ikili standartlar, xüsusilə də Ermənistan-Azərbaycan münasibətləri fonunda sərgilənən ədalətsiz yanaşmalar, Azərbaycanın yeni strateji tərəfdaşlıq marşrutları üzrə fəaliyyətini gücləndirməyə sövq edib. Azərbaycan Prezidentinin sözlərinə görə, Asiya və Şərq ölkələri ilə əməkdaşlıq daha real, qarşılıqlı hörmətə və ədalətə əsaslanır. Prezidentin bu çıxışı ilə ölkəmizin xarici siyasətində Şərqə və ya Asiyaya yönəlik kursun artıq konseptual çərçivədə təsdiqləndiyi, dövlət strategiyasına çevrildiyi aydın şəkildə elan edilmiş oldu. Bu çıxış yalnız daxili auditoriyaya deyil, həm də beynəlxalq tərəfdaşlara ünvanlanmış diplomatik mesaj idi: Azərbaycan gələcək inkişafını yalnız bir tərəfə yönəlmiş siyasətlə deyil, balanslı, tərəfdaşlığa əsaslanan və çoxtərəfli münasibətlər üzərindən qurmaq niyyətindədir.

Bu Forumdan sonra müşahidə olunan beynəlxalq səfərlər, diplomatik fəallıq və ikitərəfli əməkdaşlıq formatlarının artması, Prezidentin ADA-da səsləndirdiyi mesajların artıq praktiki siyasi və iqtisadi nəticələr doğurduğunu göstərir.

### Qərbin ikili standartları və etimadsız siyasəti

Azərbaycanın Qərblə münasibətləri uzun müddət qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq şəklində inkişaf etsə də, son illərdə bu münasibətlərdə ciddi soyuqluq müşahidə olunmaqdadır. Bu soyuqluğun əsas səbəblərindən biri Qərbin regiondakı proseslərə subyektiv, ikili standartlar çərçivəsində yanaşmasıdır.

Xüsusilə, 2020-ci ildə 44 günlük Vətən müharibəsindən sonra Qərb institutlarının, o cümlədən Avropa Parlamenti və bəzi Qərb ölkələrinin media orqanlarının Azərbaycanın haqlı mövqeyinə qarşı ədalətsiz və qeyri-obyektiv münasibəti ictimaiyyətin geniş narazılığına səbəb olmuşdu. Daha sonralar Avropa İttifaqının Ermənistana müşahidə missiyası göndərməsi və Avropa Sülh Fondu vasitəsilə bu ölkəyə silah yardımı göstərməsi regionda gərginliyi artırmaqla yanaşı, Qərbin vasitəçilik missiyasını şübhə altına almış oldu.

Bu hadisələr Azərbaycanda Qərbə qarşı etimadsızlıq yaratmaqla yanaşı, strateji qərarların istiqamətini də dəyişdirdi. Azərbaycanın tərəfsiz və ədalətli mövqe gözlədiyi Avropa strukturları tərəfindən birtərəfli şəkildə Ermənistana dəstək verilməsi ölkəmizi alternativ geosiyasi tərəfdaşlara üz tutmağa sövq etdi.

### Diplomatik fəallıq: Şərq ölkələri ilə sıx əməkdaşlıq

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın Şərq və Asiya ilə münasibətlərində nəzərəçarpacaq dərəcədə artan diplomatik fəallıq son illərin xarici siyasət xəttinin bariz göstəricisidir. Bu fəallıq həm ikitərəfli, həm də çoxtərəfli formatda özünü göstərir.

Prezident İlham Əliyevin aprelin 22-də Çinə dövlət səfəri bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. Çin Azərbaycanın Orta Dəhliz layihəsindəki rolunu yüksək qiymətləndirir və regionda bu əməkdaşlıq yeni enerji və ticarət marşrutlarının formalaşmasına zəmin yaradır.

Pakistanla münasibətlər də yüksələn xətt üzrə inkişaf edir. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin bu il fevralın 24-də ölkəmizə dövlət səfəri bu əlaqələrin daha da möhkəmlənməsinə şərait yaradıb. Bununla yanaşı, İran və Vyetnam prezidentlərinin Azərbaycana nəzərdə tutulan səfərləri, İsrail rəsmilərinin ardıcıl olaraq Bakıya gəlmələri, Azərbaycanla Türkiyə arasında yüksək səviyyəli və çoxsaylı qarşılıqlı səfərlərin davam etməsi, COP29 çərçivəsində bir çox Şərq liderlərinin ölkəmizə səfərləri, ECO (İqtisadi Əməkdaşlıq Təşkilatı) Sammitinin Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilmiş qərar, eləcə də Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin intensiv şəkildə güclənməsi - bütün bunlar Azərbaycanın Şərq və Asiya istiqamətində fəal, çoxşaxəli və strateji xarici siyasət kursunun bariz təzahürüdür.

### Qərbin səhvini anlaması və Azərbaycanın strateji dönüşü: Yeni prioritet - Şərq və Asiya

Son aylarda Avropa İttifaqı (Aİ) rəsmilərinin və Qərb liderlərinin Azərbaycana münasibətində müəyyən yumşalma və korrektə cəhdləri müşahidə olunur. Xüsusilə Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Bakıya rəsmi səfəri, Qərbin illərdir yol verdiyi birtərəfli, ikili standartlara əsaslanan yanaşmaların fəsadlarını, nəhayət, anlamağa başladığını göstərir. Bu səfər təkcə rəmzi diplomatik jest deyil, həm də Qərbin etimadı bərpa etmək üçün təşəbbüs göstərməyə məcbur qalmasının əlamətidir. Lakin bu etimadın bərpası artıq yalnız bəyanatlarla deyil, real, davamlı və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıqla mümkün olacaq.

Bu kontekstdə Azərbaycanın xarici siyasətində baş verən strateji dəyişikliklər daha da aktuallaşır. Son illər ölkənin xarici siyasəti reaktiv deyil, proaktiv və çoxşaxəli planlama əsasında qurulur. Şərq və Asiya istiqamətinə yönəlmiş bu yeni xarici siyasət xətti Azərbaycanın müstəqil qərarvermə qabiliyyətini və regiondakı geosiyasi prosesləri düzgün analiz etdiyini sübut edir. Artıq Azərbaycan yalnız Asiya ilə əməkdaşlıq edən tərəf deyil, Avropa və Asiyanı birləşdirən mühüm körpünün mərkəzinə çevrilməkdədir.

Daha önəmlisi isə bu siyasət təkcə diplomatik deyil, iqtisadi, texnoloji, nəqliyyat-logistika və təhlükəsizlik sahələrini də əhatə edir. Bu yanaşma ölkəmizin regional və qlobal miqyasda oyunçu statusunu gücləndirir. Azərbaycanın Şərq və Asiya ölkələri ilə qurduğu tərəfdaşlıq platformaları bir tərəfdən onun iqtisadi suverenliyini və dayanıqlığını artırır, digər tərəfdən isə Qərbə qarşı alternativ əlaqə marşrutlarının və seçimlərinin olduğunu göstərir.

Nəticə etibarilə Qərbin gecikmiş jestləri Azərbaycanın artıq çoxdan müəyyənləşdirdiyi yeni xarici siyasət prioritetlərini dəyişmir, əksinə, həmin prioritetlərin nə qədər düzgün və uzaqgörən olduğunu bir daha təsdiqləyir.

Bir sözlə, Azərbaycanın xarici siyasətində müşahidə olunan istiqamət dəyişikliyi təsadüfi və müvəqqəti reaksiya deyil, düşünülmüş və strateji qərardır. Şərqə və Asiyaya yönəlmiş bu siyasət Azərbaycanı yalnız regionun deyil, həm də Avrasiya məkanının yeni diplomatik və iqtisadi mərkəzlərindən birinə çevirir.

---

## “Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 124** **Bakı şəhəri, 22 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); 2024, № 4, maddə 451, № 7, maddə 900, № 10, maddə 1169; 2025, № 2, maddə 182) 2-ci hissəsində "aprelin" sözü "iyulun" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 125** **Bakı şəhəri, 22 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459, № 7, maddə 901, № 10, maddə 1172; 2025, № 2, maddə 183) 2-ci hissəsində "aprelin" sözü "iyulun" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***




# Konstitusiya və Suverenlik İli 2025








# Ərazilərimizin bütövlüyü günü

## Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində Azərbaycan bayrağının dalğalandırılmasından iki il ötür

"23 aprel hadisələri çox önəmli bir tarixdir. O vaxt və ondan sonra mən demişdim ki, 23 aprel tarixində bizim ərazi bütövlüyümüz tam bərpa edildi. Bütün sərhədlərə biz nəzarət etməyə başlamışdıq və bir daha göstərdik ki, bu torpaqların sahibləri bizik".

Ötən ilin yanvarında yerli televiziya kanallarına verdiyi müsahibəsi zamanı Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycanın üçrəngli, ay-ulduzlu şanlı bayrağının 2023-cü il aprelin 23-də Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində yüksəldilməsi xalqımızın daha bir milli hədəfinə yetməsinin təcəssümü oldu.

Qalib lider İlham Əliyevin sərgilədiyi qətiyyətli siyasətin, müstəsna səylərin, prinsipial mövqeyin sayəsində torpaqlarımızın bütövlüyü, sərhədlərimizin bərpası kimi tarixi qələbəyə imza atdıq.






### Milli maraqların təmini

Azərbaycan 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin ərazilərimizi tərk etmələri ilə bağlı qəbul etdiyi 4 qətnaməsini öz gücünə təmin etdi. Çünki düz 27 il ərzində aparılan səmərəsiz danışıqlar nəticəsində iki ölkə arasında münaqişə nəinki yoluna qoyulmuş, əksinə, dalana dirənərək həlli mümkünsüz vəziyyət yaratmışdı. Məsələnin bu hala gəlməsində isə ATƏT-in keçmiş Minsk qrupunun xüsusi rolu olmuşdu. Yarıtmaz həmsədrlər, eləcə də erməni lobbisinin rüşvətləri sayəsində işğalçı Ermənistana havadarlıq edən digər qərəzli Qərb siyasətçiləri elə hesab edirdilər ki, vəziyyəti olduğu kimi saxlamaqla Azərbaycanı işğal siyasəti ilə barışdıracaqlar. O da təsdadüfi deyildi ki, bədnam Qərb dairələri alternativ variant kimi müharibə versiyasını qəbul etmirdilər.

Ancaq 2020-ci il noyabrın 10-da Ermənistanı təslimçilik aktına imza atmağa məcbur edən Azərbaycan həm torpaqlarının 30 illik işğalına son verdi, həm də dünyada həlli müşkülə çevrilən bu tip münaqişələrə son qoymağın unikal modelini ortaya qoydu.

Vətən savaşından ötən 3 illik müddət ərzində isə ölkəmiz milli maraqlarının təmini istiqamətində ardıcıl və məqsədyönlü addımlar atmağa başladı. Təbii ki, məqsəd tezliklə ərazi bütövlüyünün bərpası və suverenliyin tam təmini idi ki, bu da Xankəndi-Laçın yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasını birmənalı edirdi.

Sözügedən ərazidə sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasının təxirəsalınmaz şəkildə həyata keçirilməsini tələb edən bir başqa hal isə məhz Ermənistanın bu yol vasitəsilə Qarabağda qanunsuz yerləşdirilmiş silahlı qruplaşmalara silah-sursat daşıması idi.

Ermənistan 2020-ci ildə imzalanan üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozaraq Qarabağda fəaliyyət göstərən qanunsuz erməni hərbi birləşmələrini ərazilərimizdən çıxarmaq əvəzinə yalnız humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolundan hərbi təyinatlı yüklər daşıyaraq ölkəmizə qarşı təxribatlar törədirdi.

Vətən müharibəsindən sonra 2021-ci il istehsallı minaların bu yolla gətirilərək Azərbaycan ərazilərində basdırılması faktları da mövcud idi.

Digər tərəfdən separatçılar Qarabağda təbii sərvətlərimizi istismar edir, talayır və Laçın yolu ilə daşıyırdılar. Eyni zamanda həmin ərazilərdə ekoloji terror törədirdilər. Buna görə də 2022-ci ilin dekabrından 2023-cü ilin aprelinədək ekofəallarımız Laçın yolunda dinc etiraz aksiyası həyata keçirmişdilər. Bunun sayəsində Laçın yolundan Ermənistan tərəfindən hərbi təyinatlı yüklərin daşınmasına son qoyulmuş, lakin İrəvan yenə də qanunsuz əməllərindən əl çəkməyərək Laçın yoluna paralel olan torpaq yollarla Qarabağ iqtisadi zonasına gizli şəkildə silah-sursat, canlı qüvvə daşımağa davam etmişdi. Həmin vaxt separatçıların bu qanunsuz əməllərinə Azərbaycan Ordusunun bölmələrinin keçirdiyi uğurlu əməliyyatla son qoyulmuşdu.

### Suverenliyimizin təmininə uzanan yol

Ermənistan tərəfindən törədilən bu və digər sadalamadığımız təxribatlar Azərbaycanın Laçın yolunun son nöqtəsində nəzarət-buraxılış məntəqəsini yaratmasını qaçılmaz etmişdi.

Beləliklə, 2023-cü il aprelin 23-də bu vacib addım atılmış və Laçın-Xankəndi yolunun başlanğıcında, Həkəri çayının üzərində sərhəd nəzarət-buraxılış məntəqəsi yaradılmışdı.

Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasına gətirib çıxaran hadisələr barədə Prezident İlham Əliyev sözügedən müsahibəsində demişdi: "Nəhayət, aprelin 23-də bizim başqa çarəmiz qalmamışdı, biz daha gözləmək fikrində deyildik. Biz bir neçə saat ərzində həmin o Həkəri çayının üzərindəki körpüdə yerləşdik. Təbii ki, buna hazırlıq aparılmışdır və bəzi səylərə baxmayaraq, oradan artıq heç yerə getmədik. Beləliklə, Qarabağa qanunsuz silahların, sursatların, minaların və canlı qüvvənin daşınması və göndərilməsi artıq mümkünsüz olmuşdu".

Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsini heç cür qəbul edə bilməyən qərəzli Qərb dairələri isə həmin zaman Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasını fərqli və məkrli şəkildə dünyaya tirajlayırdılar. Onlar əsassız ittihamlar səsləndirir, gülünc bəyanatlar verirdilər. Bu anti-Azərbaycan təbliğatın başında da Cənubi Qafqazda sülh istəməyən Fransa dayanırdı. Lakin Avropada yuvalanmış antiazərbaycançı qüvvələrin uydurduqlarının əksinə, Laçın yolu ilə yalnız Qarabağa qanunsuz silah-sursatların, silahlı qüvvələrin daşınması mümkünsüz olmuşdu. Humanitar gediş-gəliş üçün heç bir maneə yox idi.

2023-cü il iyulun 6-da Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Laçında Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbini yekdilliklə rədd etdi. BƏM-in bu qərarı Azərbaycanın separatizm üzərində qəti qələbəsinin beynəlxalq hüquqla təsdiqlənməsi kimi böyük əhəmiyyətə malik oldu.

Azərbaycanın tarixi ədalətin, beynəlxalq hüququn bərqərar olması üçün nümayiş etdirdiyi qərarlı və israrlı mövqeyi nəticəsində Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi yaradıldı. Bundan cəmi 5 ay keçdikdən sonra - 2023-cü il sentyabrın 19-20-də keçirilən 23 saatlıq antiterror tədbirləri sayəsində isə Qarabağda quldur yuvası tamamilə dağıdıldı, Azərbaycan bayrağı Xankəndidə qürurla dalğalandırıldı.

Beləliklə, Azərbaycan xalqının onilliklərin o üzündən milli maraqlarının təmini istiqamətində çıxdığı və torpaqlarının işğaldan azad edilməsindən, ərazi bütövlüyünün bərpasından keçərək suverenliyinə uzanan haqq yolu məntiqi zirvəsinə çatdırıldı.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Gənclər gələcək karyeralarına sağlam təməl qoyurlar

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət gənclər siyasəti gənclərimizin hərtərəfli inkişafına mühüm töhfə verir. Bu siyasət çərçivəsində vətənpərvərlik hisslərinin gücləndirilməsi, gənclərin şəxsi inkişafı və karyera quruculuğuna dəstək məqsədilə Gənclərin İnkişaf və Karyera Mərkəzinin (GİKM) təşkilatçılığı ilə Bakı və regionlarda silsilə tədbirlər həyata keçirilib.

Bu barədə AZƏRTAC-a açıqlamasında GİKM-in İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Könül Abdulrəşidova mərkəzin 2025-ci ilin yanvar-mart aylarını əhatə edən ilk rübü üzrə fəaliyyəti haqqında məlumat verərkən bildirib.

Qeyd edilib ki, ölkə üzrə 11 regional nümayəndəlik və 44 bölmədən ibarət olan mərkəz tərəfindən 8 minə yaxın gənc 200-dən çox müxtəlif formatlı proqram, təlim və tədbirlərə cəlb olunub. Prezident tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına uyğun olaraq hüquqi maarifləndirmə və vətəndaşlıq dəyərlərinin təbliği istiqamətində 30-dan çox maarifləndirici görüş, seminar və intellektual yarış təşkil edilib. Bu tədbirlər nəticəsində gənclər Azərbaycan Konstitusiyası, hüquqi dövlətin əsas prinsipləri və vətəndaş məsuliyyəti mövzularında əhatəli və praktiki biliklər əldə ediblər.

Vurğulanıb ki, vətənpərvərlik ruhunda yetişən, milli dəyərlərə bağlı gənclər yetişdirmək GİKM-in əsas prioritetlərindəndir. Bu istiqamətdə həyata keçirilən layihələr gənclərdə dövlətçilik düşüncəsinin formalaşmasına xidmət edir. Gənclər tərəfindən maraqla qarşılanan bu tədbirlər çərçivəsində yüzlərlə layihə uğurla icra olunub. Rüb ərzində 100-dən artıq gəncə "Karyera kompası" layihəsi çərçivəsində fərdi karyera məsləhətləri təqdim olunub. Gənclərə peşə seçimi, CV və motivasiya məktubu hazırlanması, iş müraciəti ilə bağlı konsultasiyalar verilib. Xüsusilə regionlarda yaşayan gənclər üçün "GPS - Gənclə-



rin Peşə Seçimi" adlı maarifləndirici sessiyalar təşkil olunub.

Gənclərin təhsil aldıqları ixtisaslar barədə məlumatlılığını artırmaq, onların karyera planlamasına dəstək vermək və şəbəkələşməni təşviq etmək məqsədilə "CareerLAB" şəbəkəsi bu il də fəaliyyətini davam etdirib. Üç ay ərzində Bakı və regionlardakı ali təhsil müəssisələrində keçirilən layihələrə 500-dən çox gənc qoşulub.

"Peşəkarla dialoq" layihəsi çərçivəsində müxtəlif sahələrdə çalışan tanınmış şəxslərlə interaktiv görüşlər təşkil olunub. Bu görüşlər gənclərə real iş təcrübəsi, əmək bazarının tələbləri və şəxsi inkişaf yolları barədə birbaşa məlumat əldə etmək imkanı verib.

Eyni zamanda "İnkişaf və Təcrübə Akademiyası" 2025-ci ilin ilk rübündə fəal şəkildə fəaliyyət göstərib. Bakı üzrə 50-yə yaxın, regionlarda isə 100-dən çox gənc real iş mühitində təcrübə keçərək bacarıqlarını inkişaf etdirmək imkanı qazanıb. Artıq beşinci dəfədir təşkil olunan "Hazır mühasib" adlı ödənişsiz tədris proqramında 100 gənc mühasibatlıq sahəsində praktiki biliklər və bacarıqlar əldə edərək gələcək karyeralarına sağlam təməl qoyurlar.

Gənclərin Karyera İnkişaf Platforması da karyera quruculuğu sahəsində əsas fəaliyyətlərdən biridir. Bu platforma çərçivəsində 6 sessiya keçirilib, 100-dən çox gənc iştirak edib. "Karyera üçün addım at", "Qadınlar üçün karyera inkişafı və rəqəmsal bacarıqlar" və "Karyerada biz" forumları çərçivəsində ümumilikdə 400-dən çox gənc əhatə olunub. Forumlarda peşəkar spikerlərin iştirakı ilə keçirilən panel müzakirələri iştirakçılara praktiki tövsiyələr və dəyərli məlumatlar təqdim edib.

GİKM tərəfindən həyata keçirilən bütün tədbirlər gənclərin nəzəri biliklərlə yanaşı, real təcrübə və motivasiya qazanmalarına şərait yaradıb. Şəxsi inkişaf GİKM-in fəaliyyətinin əsas prioritetlərindəndir. Bu istiqamətdə keçirilən "YouthStart" proqramı çərçivəsində ünsiyyət, təqdimat bacarıqları, vaxtın idarə olunması və komanda işi üzrə təlimlər təşkil olunub. 300-dən çox iştirakçının qatıldığı bu sessiyalar gənclərin özünəinamının və sosial bacarıqlarının inkişafına töhfə verib.

"Rəqəmsal gənclik" layihəsi isə gənclərin müasir texnologiyalarla tanışlığına və rəqəmsal bacarıqlarının artırılmasına yönəlib. GİKM-in təşkil etdiyi təlimlər gənclərin əmək bazarına uyğun biliklər qazanmasına şərait yaradıb.

Mərkəz çərçivəsində könüllü fəaliyyət də geniş vüsət alıb. Gənclər müxtəlif layihə və tədbirlərdə könüllü kimi iştirak edərək həm təcrübə qazanır, həm də faydalı işlərə töhfə vermək imkanı əldə edirlər. GİKM müxtəlif qurum və təşkilatlarla əməkdaşlıq edərək gənclər üçün daha geniş imkanlar yaratmağa davam edir.

Gənclərin İnkişaf və Karyera Mərkəzinin əsas məqsədi xüsusilə regionlarda yaşayan gənclərin vətənpərvərlik ruhunda yetişməsi, onların sosiallaşması, könüllülük fəaliyyətlərində aktiv iştirakı, şəxsi inkişafı və karyera quruculuğuna dəstək göstərilməsidir. GİKM bu istiqamətlər üzrə fəaliyyətlərini ilin növbəti aylarında da davam etdirməyi planlaşdırır.

# Qazaxda intellektual yarış keçirilmişdir

Bakı Dövlət Universitetinin Qazax filialında "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Müasir Azərbaycanın Demokratik Hüquqi Əsasları - Konstitusiyamız" mövzusunda "Nə? Harada? Nə zaman?" intellektual yarış keçirilmişdir.



Filialın direktoru Arif Rüstəmov giriş sözü ilə çıxış edərək 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında düşmən üzərində qazandığımız tarixi qələbədən, eləcə də müəllifi Ulu Öndər Heydər Əliyev olan və 1995-ci ildə qəbul edilən Konstitusiyamızın Azərbaycanın hüquqi dövlət kimi formalaşmasında əsas rol oynadığını diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, bu gün Azərbaycan vətəndaşı olaraq hər birimiz müstəqil ölkəmizin uğurları, regionda və dünyada söz sahibi olması ilə fəxr edirik.

Sonra Qazax RİH-in baş məsləhətçisi Gülnar Quluyeva və münsiflər heyətinin üzvü, filialın tələbə həmkarlar ittifaqı komitəsinin sədri, qazi Qılınc Cəfərov yarışın qaydaları haqqında məlumat vermişlər.

Ümumilikdə 12 komandanın qatıldığı yarışda hər komandada 5 nəfər olmaqla 60 gənc iştirak etmişdir. 2 turda təşkil olunan və hər turda 6 komandanın iştirak etdiyi yarışda iştirakçılara Azərbaycanın Konstitusiyasının qəbul edilməsindən sonra ölkəmizin hüquqi, dünyəvi dövlət quruculuğunda keçdiyi tarixi yol, suverenliyimizin, ərazi bütövlüyümüzün qorunması, möhtəşəm Zəfərimiz, qəhrəman şəhidlərimiz haqqında suallar verilmişdir. Yekun nəticəyə əsasən, "Bayraqdarlar" komandası 1-ci, "Göyəzən" komandası 2-ci, "Xocalı sədası" komandası 3-cü yerə layiq görülmüşlər. Qalib komandalar fəxri fərmanlarla təltif olunmuşlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür

# Saxtakarlıq və yalan sağalmaz erməni xəstəliyidir



İnsanın ən təmənnasız dostu kitabdır. Əbəs yerə deyilməyib ki, kitab olan ev qaranlıq olmaz. Çox kitab oxuyan insanın üzü nur saçar. Kitab insanı depressiyadan xilas edir, stressi azaldır, yuxusuzluğu aradan qaldırır, beynin fəaliyyətini gücləndirir...

23 Aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü ərəfəsində Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri, professor Kamran İmanovla görüşüb söhbət etdik. Söhbət zamanı Kamran İmanov qeyd etdi ki, Əqli Mülkiyyət Agentliyi aprel ayında üç beynəlxalq tədbirdə iştirak edib. Aprelin 10-da Cenevrə şəhərində keçirilən ÜƏMT-nin Müəlliflik Hüququ Daimi Komitəsində "Süni intellekt və əqli mülkiyyət" prezentasiyası zamanı ölkəmizdə görülən işlər barədə iştirakçılara geniş məlumat verilib. Aprelin 14-də Cenevrə şəhərində İnformasiya Kommunikasiya Texnologiyaları məsələləri üzrə ÜƏMT-nin Yüksək Səviyyəli Dialoqunda Azərbaycan nümayəndəsinin məruzəsi dinlənilib. Aprelin 21-də isə Moskva şəhərində ənənəvi təşkil edilən məşhur "Avtor/Author - 2025" beynəlxalq konfransında əsas məruzəçi qismində "Melodiya, harmoniya və ritmlərin başında duran yaradıcılıqdır" mövzusunda geniş prezentasiya-təqdimatla iştirak edib.

Professor aprel ayının bu sahədə çalışanlar üçün həqiqi mənada əqli mülkiyyət ayı olduğunu xüsusi olaraq vurğuladı və bildirdi ki, iki ildir bu bayramı suverenliyini tam bərpa edən qalib xalqın və müzəffər millətin nümayəndələri kimi ərazi bütövlüyünü bərpa edən doğma Vətənimizin hər bir guşəsində qeyd edirik. Fürsətdən istifadə edib bizə bu sevinci yaşadan, arzularımızın gerçəkləşməsində, ölkəmizin beynəlxalq aləmdə söz sahibinə çevrilməsində, Azərbaycan ruhunun yüksəlməsində müstəsna xidmətləri olan Prezident İlham Əliyevə dərin ehtiram və sevgi duyğularımızı çatdırmaq istəyirik.

Professor məşhur "Qutadqu-bilik"ə istinad edərək söylədi ki, insanı səadətə aparan əqldir. 30 il ədalətin bərpasına gücünü əsirgəməyən, 44 gündə bizə qürur bəxş edən və 23 saat 43 dəqiqədə bizə şərəf və sevinc gətirən Ali Baş Komandan səadətimizi qurdu. Bir həqiqətdir ki, zaman öz müddət kəsiyi, uzunluğu ilə deyil, dərinliyi ilə ölçülür. Zəka dərinliyi isə ictimai təsiri, yaratdığı kölgəsinin həcmi və uzunluğu ilə ölçülməlidir: "Burada mütləq qeyd etməliyəm ki, Azərbaycan Prezidenti İlham Əliyev sabahın memarı olaraq hər bir ötən günü səxavətlə gələcək naminə qura bilib. Hadisələrin göstərdiyi kimi, Prezident İlham Əliyev nə qədər uzaqgörən, səbirli, düşməni səhv etməyə vadar edən və həmin səhvlərdən məharətlə gərəkli hadisələri yaratmağı bacaran, baş verənlərdən ustalıqla istifadə edən dahi siyasətçidir".

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri qeyd etdi ki, hazırda dövlətimiz qalib ölkə olmağına baxmayaraq, Ermənistanla sülh sazişi bağlamağın təşəbbüskarıdır: "Heç uzağa getməyək, cənab Prezidentin 2025-ci il aprelin 9-da ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumda səsləndirdiyi fikirlərə nəzər salaq. Yeni dünya düzəni, Cənubi Qafqazda inteqrasiya ilə bağlı suala cavab verərək dövlətimizin başçısı deyib: "…Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı Cənubi Qafqaza nisbətən inteqrasiya olunmuş region kimi inkişaf etməyə imkan vermədi".

"…Beləliklə, Ermənistan bu prosesin bir hissəsi ola bilərdi. Gələcəkdə cərəyan edəcək hadisələrin düzgün hesablanılmaması və gələcək iqtisadiyyatını, "böyük Ermənistan" arzusu olan həqiqi müstəqilliyini qurban verməsi onların təqsiridir. Azərbaycan və Ermənistan arasında saziş imzalananda və imzalandığı təqdirdə əlbəttə ki, əməkdaşlığın başlanılmasına heç bir maneə qalmayacaq…"

"…Ermənistanın siyasi isteblişmenti Azərbaycan məsələsində parçalanmayıb. Onlar konsolidasiyalı mövqeyə malikdirlər. Bu, sadəcə, terminologiya, davranış və taktikadan asılı olan bir məsələdir. Beləliklə, biz buna hazır olmalıyıq, həm hərbi nöqteyi-nəzərdən, həm də siyasi nöqteyi-nəzərdən. Beləliklə, sülh sazişi imzalanana və Ermənistan da onların konstitusiyasında hələ də mövcud olan Azərbaycana qarşı bütün ərazi iddialarından imtina edənə və Azərbaycanla münasibətlərin normallaşması üçün səmimi davranış sərgiləyənə qədər onlar həmişə yeni hərbi qarşıdurma təhlükəsini törədəcəklər".

Bu məqamda Prezidentin bir fikri üzərində dayanaq - hay-ermənilərin səmimiyyətdən uzaq olduqlarının, ikiüzlü davranışlarının səbəbini məğlubiyyətlə barışmazlığı və revanşizm istək və arzularında görürük.

Misal üçün, ötən ilin aprelində və sonra fikrini təkrarlayan Paşinyan parlamentdə çıxışında qonşularla münasibətdə Ermənistanın keçmişinin yenidən dərk olunmasına çağırış edib. Onun söylədiyinə əsasən, "tarixi Ermənistan" və "real Ermənistan" bir-biri ilə ziddiyyətdə olduğuna görə, təhlükələr yaradır. Bir daha vurğulayıb ki, dünyaya Van çarlığının mövqeyindən yox, bugünkü Ermənistan dövlətinin mövqeyindən baxılmalıdır, əks halda dövlətçiliyimizin qurulmasına zərər gətiriləcək.

Bunlar yalnız sözlərdir, əslində, onların dedikləri ilə əməlləri düz gəlmir. Sərhəddə atəş açılması fonunda sülh sazişinin perspektivindən danışır, özü də ümidə əsaslanmaq yox, planlı və davamlı fəaliyyət göstərmək lazımdır deyir. Əgər bu etiraflar səmimidirsə, bəs real Ermənistan hansı səbəbdən sülh sazişinin bağlanmasını uzadır, dövlətimizin şərtlərini həll etmir?"

Söhbətin bu məqamında professor Kamran İmanov qeyd etdi ki, doğrudan da, hər şey kitabdan başlayır və hər şey kitabdadır. Bir həqiqətdir ki, tarixə aid yalanlarla dolu keçmişin və müasir erməni müəlliflərinin kitabları çoxsaylı olaraq bir-birinə istinadən həqiqətə uyğun olmayan "fakt"ları tirajlayır və bununla "ermənisayağı mənbə", yəni "dəlillər" sistemi yaratmaqdadırlar.

O ki qaldı böyük həvəslə istinad edilən qədim erməni mətnlərinə, onların əlyazmaları, orijinalları adətən tapılmır, yaxud köçürmələr şəklində əksini tapmış olur. Bunların kökündə erməniçilik saxtakarlığı dayanır.

"Biz 9 ildir ki, "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir…" devizi altında ənənəvi konfrans keçiririk. Bu, heç də təsadüfi deyil. Hayların Milli EA-nın (Tarix İnstitutu) dərc etdiyi son kitablardan biri V.Q.Tunyanın müəllifliyi ilə belə adlanır: "İstoriçeskoe pristrastie Azerbaydjana k istorii Armenii: mifı i realii" ("Azərbaycanın Ermənistan tarixinə olan ehtirası (həvəsi): miflər və reallıqlar"). Bir baxın, yalan səpənlər bizi yalanda suçlayırlar. Dünyanın ən zəngin arxivlərindən biri sayılan Sankt-Peterburq arxivində qədim erməni müəlliflərinin manuskriptlərinin tapılması müşkül bir işdir. 2003-cü ildə Sankt-Peterburqun 300 illiyinə həsr olunmuş "Sokrovişa akademiçeskix sobraniy Sankt-Peterburqa" kitabı çapdan çıxmışdı və kitabın tərtibatçı kollektivinin rəhbəri, milliyyətcə erməni olan professor Yuriy Petrosyanın yazdığı kimi, minlərlə nüsxədə qorunub saxlanan erməni əlyazmaları çərçivəsində bir dənə də orijinal yoxdur, əksəriyyəti, 80 faizə qədəri XVII-XVIII əsrlərə aid köçürmələrdir, bir neçəsi XIV-XV əsrlərdə köçürülənlərdir və bəlkə də onlardan birini XII əsrə aid etmək mümkündür. Erməni aliminin digər etirafına əsasən, bu arxivdə VII-XI əsrlərə aid olan türk orijinallarının sayı isə minlərlədir".

Professor söhbət zamanı sarkazmla qeyd edir ki, əqli oğurluq ənənəsini davam etdirən və folklorun bir qolu - miflərin yaradılmasında ustalıq göstərən erməniçilik digər xalqların, xüsusən də biz azərbaycanlıların maddi və qeyri-maddi irsinə, torpaqlarına və mədəniyyətinə göz dikməkdən əl çəkmir, özününküləşdirmək, mənimsəmək, əqli oğurluq, saxtakarlıq və uydurma cəhdləri ilə çantalarını "zənginləşdirir". Bunlar istər real siyasi həyatımıza, istərsə də keçmişə, tarixi hadisələrə aiddir.

### Tarixə baxış... uydurmalar və həqiqətlər

Professor Kamran İmanov bildirdi ki, gəlin iki mif - Şərqi Armeniya və Qərbi Armeniya mifləri üzərində dayanaq.

Haylara məxsus olmayan armen/erməni etnonimini və Arminiya (Ermənistan) adlı qədim toponimini mənimsəyərək hay-erməni tarixşünaslığı Türkmənçay müqaviləsinin (1828) bağlanmasından sonra Şərqi və Qərbi Armeniya, hətta uydurma "böyük Armeniya" mövcudluğuna dair tezisləri fəal şəkildə gündəmə gətirməyə başladı. Çar Rusiyasının 1827-ci ildə işğal etdiyi və Qacar şahın İranın ruslara güzəştə getdiyi İrəvan və Naxçıvan xanlıqlarının torpaqları Şərqi Armeniya ərazisi elan olundu, halbuki müqavilənin 16 maddəsindən heç birində bu toponim barədə tək kəlmə belə qeyd olunmamışdı.

"İrəvan xanlığının torpaqlarında çar Rusiyası tərəfindən yaradılan və süni şəkildə şişirdilən yersiz hay-erməni ərazi iştahası Naxçıvan, Qarabağ, Zəngəzur torpaqlarına da iddialara təkan vermiş oldu. Hətta bolşevik obrazına girmiş ikiüzlü erməni milliyyətçiliyi və daşnak terroru sonralar bu torpaqların bir qisminin qoparılmasına gətirib çıxardı. Lakin 1921-ci ildə Türkiyə və sovet Rusiyası arasında yaradılmış Naxçıvan Muxtar Respublikasının Azərbaycanın protektoratı altına verilməsi haqqında müqavilə ilə nəticələndi. Erməni iddialarının könlünü almaq üçün isə əvvəlcə Zəngəzur qəzası, 1922-ci ildə isə Göyçə (Şərur-Dərələyəz) Azərbaycandan qopardılıb Ermənistana verildi. Bu azmış kimi, 1923-cü ildə Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

Nədir Şərqi Armeniya?

Uydurma Şərqi Armeniya torpaqsız sovet Ermənistanının məhz bu yolla Azərbaycan əraziləri hesabına yaradılmasıdır.

Əvvəlcə Şərqi Armeniya çar Rusiyasına birləşməsi adı altında Azərbaycan ərazilərində yaradılmış bu milli erməni yuvası mahiyyətcə ərazilərin hərbi işğalı ilə nəticələnən təcavüzkarlıq, sovet dövründə isə sülh yolu ilə ermənilərin ərazi iddialarını təmin edən güzəşt olmuşdur".

Professor K.İmanov xüsusi vurğuladı ki, uydurma "parçalanmış erməni torpaqları" tarixi İkinci Dünya müharibəsindən sonra aktuallaşdı, çünki bu, sovet Rusiyasının Ərdahanı və Qarsı Türkiyəyə qaytarılmasını nəzərdə tutan və 1921-ci ildə imzalanan Türk-Sovet müqaviləsinə yenidən baxılmasını planlaşdıran Stalinin niyyətlərinə uyğun idi.

Bununla da Qərbi Armeniya məsələsi gündəmə gəldi. Şükür, Stalinin niyyəti baş tutmadı, ancaq mövcud olmayan Şərqi Armeniya çərçivəsində tarixi Azərbaycan əraziləri haylar tərəfindən erməniləşdirildi. Bu azmış kimi, sovet tarixi elminin dəstəyi ilə erməni tarixşünaslığı hayların bu torpaqlardakı qədimliliyinə dair yalan və uydurmaları tirajlamağa başladı. Bunun üçün qondarma hay-erməni çar sülalələri uyduruldu, Şərqi Armeniyanın Rusiyaya xəyali birləşməsi aspektində Kürəkçay müqaviləsinin əsasnamələri təhrif olunmağa başlandı, Qafqaz Albaniyasının tarixi, bu torpaqların əzəli sakinləri olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəni irsi, ümumiyyətlə, hay-ermənilərin bu ərazilərdə avtoxtonluğunu "sübut" edə biləcək hər bir şey saxtalaşdırılaraq mənimsənilməyə məruz qaldı.

Kamran İmanov dedi: "Bu gün də hay-erməni uydurma qədimliliyi erməniçiliyin təcavüzkar və riyakar izini sürdürür. Heç də təsadüfi deyil ki, XVI-XVII əsrlərə dair erməni xalqının tarixi adı altında Azərbaycanın Qarabağ, Gəncə, İrəvan, Naxçıvan və Zəngəzur diyarlarının tarixi təsvir olunur. XV əsrdə patriarx taxtının Eçmiədzinə köçürülməsindən sonra (Eçmiədzində patriarxat yeparxiyasız fəaliyyət göstərirdi, çünki yeparxiya Kiçik Asiyada qalmışdı) ermənilər bu dövrü lovğalanaraq erməni tarixinin "Eçmiədzin dövrü" adlandırdılar.

Bundan başqa, onlar müxtəlif siyasi və elmi dairələrdə belə bir fikir yaymağa başladılar ki, Qərbi Armeniya hələ də Türkiyənin tərkibində qalıb.

Ümumiyyətlə, erməniçilik sayca neçə Armeniya adlı toponim işlədir?

Armenistlərin yazı ənənəsini qoyan "erməni tarixinin atası" M.Xorenski V və ya VII əsrlərdə, bəlkə də XIV əsrdə (əslində, müəlliflik və yazı tarixi sual altında qalır) yazdığı "Hayların tarixi", "İncili" təftiş, "Xalqlar cədvəli"nə Hayk, Armenak və s. fantomları daxil edərək hay etnosunun Sakalara, Qəmərlilərə qohumluğunu çatdıraraq hətta Torqom (Toqarma) əcdadlarına (türk soykökü) çevirərək 5 Armeniya (1-4 və yunan) iddiasını irəli sürmüşdü. İki əsr sonra isə A.Şirakatsi öz "Aşxaratsuyts"unda ("Coğrafiya") yenə də anonim deyil, müəllif kimi artıq 8 Armeniya vermişdi, indi isə "Armeniya"ların sayı 35-ə çatıb.

Bəs neçə "Armeniya" adlı dövlət mövcud idi? Bugünkü dövlətləri istisna olmaqla heç bir dənə də yoxdur. "Armeniya" adı ilə tarixdə qələmə verilən dövlətlər isə hayların yox, digər xalqların yaratdığı və başçılıq etdiyi dövlətlərdir".

Həmsöhbətimiz onu da dedi ki, elə erməni alimlərinin etirafına əsasən, ermənilər hazırda etno-konfessional cəhətdən fərqlənən 11 subetnik qruplar təşkil edir və əlavə edim ki, bu qədər "Armeniya" olduğu halda, hansı "Armeniyanın tarixi"ndən söhbət gedəcək? Odur ki, avtoxton xalqlardan fərqli olaraq erməni alimləri "Armeniya tarixi"ni yox, hay etnosunun tarixini yazmaq məcburiyyəti qarşısındadırlar, ya da "Hayastan" adlı ölkəsi olmayan mifoloji hayların tarixini yazırlar və burada digər xalqların ərazisindən və tarixindən söhbət açırlar.

Armenistlər bundan vaz keçir, erməni yazarları armeniyaların çoxluğuna əsaslanaraq Aralıq, Qara və Xəzər dənizləri arasındakı "böyük Ermənistan" xülyasını yaşatmağa çalışırlar, bu mifologem ayrı-ayrı, parça-parça olan uydurma armeniyaları yeni bir uydurma "kompleksinə" çevirməyə dəstək verərək, buraya Türkiyə, Gürcüstan və Şimal-Cənubi Azərbaycan torpaqlarını daxil edirlər.

Kamran müəllim xüsusi olaraq qeyd etdi ki, hər bir xalqın, o cümlədən erməni xalqının özünəməxsus tarixi var, millətin keçmişində baş verən olaylar, hadisələr, uğurlar və məğlubiyyətlər gerçəkliyin ayrılmaz bir hissəsidir. Biz erməni xalqına qarşı deyil, erməniçiliyə, sağlam olmayan dünyagörüşünü dəstəkləyən bədnam qonşularımızın millətçi müəllifləri, ya da sifarişlə tutulmuş muzdlu xaricilər tərəfindən yazılan yalan, uydurma və böhtanlarla dolu kitablara və digər yazılara qarşı çıxış edirik. Xüsusən tarixşünaslığa aid bu növ əsərlərdə əsas leytmotiv ermənilərin Cənubi Qafqazda gəlmə yox, avtoxton millət olmasına və buradan guya itirilmiş torpaqlarla bağlı ərazi iddialarına qarşı çıxış edirik.

"Erməni miflərini saymaqla qurtarmaz. Onların hamısı quruluşuna və praktiki təyinatına görə birləşərək siyasi mifologiya kateqoriyasına aid olur. Erməni etnik aləminin mənzərəsinin bir hissəsi olan məhz bu mifologiya zahiri reallığın və burada cəmləşən əxlaq mexanizminin erməni etnosu tərəfindən qavranılması üsulunu müəyyən edir. Fikir verin, bir neçə müasir politoloqun, o cümlədən S.B.Luryenin araşdırmalarına əsasən, digər xalqlardan fərqli olaraq, erməni siyasi düşüncəsinin xüsusiyyəti geosiyasi xarakter daşıyaraq ermənilərin yaşadığı yerlər əsasında müəyyən coğrafi xəritə qurmaqdan və yaşadığı yerləri özləri üçün növbəti "Ermənistan" adlandırmaqdan ibarətdir.

Lakin erməniçilik mifomaniyası bununla bitmir. Erməniçiliyin sifarişi ilə muzdlu xarici müəlliflər tərəfindən yazılan çoxlu sayda "əsərlər" riyakarlığa əsaslanaraq tarixi saxtalaşmaya yol açır. Uydurmalar isə qəbul edilmədiyi halda "çox əzabkeş" xalqın millətçiləri təcavüz və terrora əl atırlar".

Professor K.İmanov qeyd edir ki, tanınmış avstriyalı tarixçi Erik Fayql "Erməni mifomaniya" kitabında yazdığı kimi "…Erməni terrorizminin kökləri tarixə yanlış baxımdan irəli gəlir… Müasir erməni terrorçularının unikallığı ondadır ki, tarix (daha doğrusu, tarixə öz baxışı) onlar üçün yeganə bəraətdir". Odur ki, "insanlıqdan uzaq əməllərə bəraət qazandırmaq məqsədilə tarixin yenidən yazılması terrorçuluğun unikal xüsusiyyətidir". Bəli, bu, həqiqətən belədir.

Çünki bəllidir ki, "bəziləri qəsdən yalan səpir, digərləri isə aldanaraq yalan yayır".

Mifomaniya, saxtakarlıq və yalanlara uyanlara erməni mənşəli tanınmış alimin bir fikrini xatırladıram. Söhbət Miçiqan və Çikaqo universitetlərinin professoru Ronald Qriqor Sünidən gedir. Onun "Ararata baxış. Armeniya yeni tarixdə" adlı tədqiqatında söylədiyi fikirləri nəzərdən keçirək: "Ermənilər - xüsusi xalqdır, əvvəla ona görə ki, onlar digər millətin içərisində yaşayan millətdir və ikincisi bu xalq adətən heç bir təsəvvürü olmayan irsi ilə fəxr edir".

Tanınmış erməni aliminin etiraf-xəbərinə baxmayaraq, saxtakarlıq yuvaları artır, deməli, yalanlar da çoxalır.

### Erməni xisləti dəyişmir

Kamran İmanov deyir ki, ermənilərdə saxtakarlıq və yalan sağalmaz xəstəlik halını alıb. Fikir verin, 2023-cü ilin əvvəllərində Armeniyada çox gurultulu adı olan bir ictimai struktur peyda olub - "Gardman-Şirvan-Naxçıvan Ümumerməni İttifaqı". Fəallığı müxtəlif bəyanatlarla, beynəlxalq strukturlara müraciətlərlə və təbii olaraq mediada, müsahibələrdə saxta və uydurmalara əsaslanan məlumatların yayılması və ölkəmizi daim pisləməyi ilə səciyyələnir. Məqsədi isə bəyan etdikləri kimi, yaranan ictimai birlik 1988-1992-ci illərdə Azərbaycanın müxtəlif regionlarından Ermənistana köçən hay-ermənilərin hüquqlarının müdafiəsi ilə bağlıdır.

Əslində isə, təşkilatın yaranması 2022-ci ilin sonunda Qərbi Azərbaycan İcmasının formalaşmasına "simmetrik cavabdan" ibarətdir. Erməni müxalif mediasında qeyd olunduğu kimi, təşkilatın peyda olmaq təşəbbüsü baş nazir N.Paşinyandan olub və bu struktura başçılıq edən şəxs "Mülki saziş" hakim partiyasının üzvü, deputat, Bakıda doğulan və Paşinyanın yaxın adamı olan Vilen Qabrielyandır. Kamran İmanov bildirdi: "Bu struktur haqqında əlavə məlumat vermək fikrində deyiləm, lakin onun başçısı haqqında bir neçə söz söyləmək istərdim. Bu, həmin Vilendir ki, bu yaxınlarda deputat mandatını qaytarmalı oldu. Səbəbi isə media nümayəndələri ilə Gümrüdə yaratdığı biabırçılıq ucbatından idi. Məsələ ondadır ki, hakim partiya "Mülki saziş (dialoq)" Gümrüdə Ağsaqqallar Şurasına olan seçkilərdə öz nümayəndəsini keçirdə bilməyib. Halbuki hakim partiyanın mövqeyini gücləndirmək məqsədilə Paşinyan buraya həmin Vilen Qabrielyanı yollamışdı. Media nümayəndələri ilə hay-küylü dava nəticəsində Qabrielyanı istefaya göndərdilər. Vilen isə öz növbəsində hakim partiyada mövcud olan əhvali-ruhiyyənin sağlamlaşdırılması ilə məşğul olmağına vəd verib. Bu, onların daxili işləridir, lakin xüsusi olaraq qeyd etməliyəm ki, bu günə qədər onun başçılıq etdiyi "Ümumerməni İttifaqı" yalnız və yalnız işlənmiş silaha - plagiata əsaslanır və Qərbi Azərbaycan İcmasının qanuni və dəlillərə əsaslanan addımlarını təkrarlayır".

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

---

*Aygün ATTAR:*

## "Qərbi Azərbaycan həqiqətlərinin təbliği TADİV-in prioritet istiqamətlərindən biridir"



Tarixi ədalətin bərpası səylərinə töhfə vermək, o cümlədən Qərbi Azərbaycan həqiqətlərinin təbliği Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) prioritet istiqamətlərindən biridir.

Bu barədə AZƏRTAC-a TADİV-in rəhbəri, professor Aygün Attar müsahibəsində deyib.

O xatırladıb ki, TADİV-in yaradılması ideyası Ümummilli Lider Heydər Əliyevə məxsusdur, o, iki qardaş xalqın bir-birinə daha da yaxınlaşmasının, mədəni dəyərlərin ortaqlığının, Azərbaycan xalqının tarixi və həqiqətlərinin türk və dünya ictimaiyyətinə çatdırılmasının vacibliyini vurğulayıb.

Onun sözlərinə görə, uzun illər fəaliyyəti ərzində TADİV öz səylərini təkcə Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi və bərpasına verdiyi töhfələrə deyil, həm də Zəngəzur və bütövlükdə Qərbi Azərbaycan mövzularına yönəldib.

"TADİV xətti ilə Türkiyə və Qərb alim və ekspertlərinin iştirakı ilə çoxsaylı tədbirlər təşkil edilib: "Qərbi Azərbaycan həqiqətlərinin sosial şəbəkələrdə fəal təbliğatı davam etdirilir", - deyə A.Attar qeyd edib. Fondun rəhbəri bəhs edib ki, TADİV-in təşəbbüsü ilə ayrı-ayrı illərdə bir sıra ölkələrin, o cümlədən Fransanın diplomatik nümayəndəliklərinin binaları önündə Qarabağla bağlı tarixi ədalətin bərpası tələbi ilə aksiyalar keçirilib. "Biz diplomatik nümayəndəlikləri təkcə Azərbaycan torpaqlarının işğalının nəticələri barədə deyil, həm də Qərbi Azərbaycanın yerli əhalisinin deportasiyası barədə məlumatlandırmışıq" deyən A.Attar qarşıya qoyulan məqsədlərə çatmaqda "ictimai diplomatiya" alətlərinin səmərəliliyini vurğulayıb.

O, müasir Ermənistan ərazisində öz tarixi torpaqlarından qovulmuş azərbaycanlıların hüquqlarının bərpasına təkcə təşkilatların deyil, ayrı-ayrı ekspertlərin və alimlərin də töhfə verəcəyinə əminliyini ifadə edib.

A.Attar hələ 2003-cü ilin avqustunda Türkiyənin "Hərbi Tarix Araşdırmaları" (Askeri Tarih Araştırmaları) jurnalında dərc olunmuş "Zəngəzur necə ermənilərin əlinə keçdi?" başlıqlı məqaləsini misal göstərib. "Bu mövzuda məqalələr Türkiyədə daha sonra da dərc olunub, xüsusən 2018-ci ildə "Azərbaycan türklərinin Ermənistandan məcburi köçürülməsi" adlı məqalə nəşr olundu. "Eyni məsələ Türk Tarix Qurumunun nəşrlərində də geniş işıqlandırılıb", - deyə TADİV rəhbəri davam edib.

O, Qərbi Azərbaycan mövzusunda tədbirlərdən də danışıb. "2023-cü ilin dekabrında Türkiyə Prezident Administrasiyası Kompleksinin Milli Kitabxanasında TADİV xətti ilə Qərbi Azərbaycan mövzusunun səsləndirildiyi böyük tədbir təşkil olunub: "Müzakirələr zamanı tanınmış alimlər, aparıcı universitetlərin nümayəndələri ilə yanaşı, tanınmış strateji araşdırma mərkəzlərinin rəhbərləri, o cümlədən Azərbaycan və Türkiyə ombudsmanları da iştirak ediblər", - deyə fondun rəhbəri bəhs edib.

Onun sözlərinə görə, Türkiyə Böyük Millət Məclisinin Ailə, Qadın, Uşaq və Gənclər Komitəsi tədbirə fəal dəstək verib. "Bu, çox mühüm faktdır, çünki deportasiya və məcburi köçürmə dövrlərində ən həssas kateqoriyalar qadınlar və uşaqlardır", - deyə A.Attar bildirib.

2024-cü ilin may ayında TADİV və Qazi Universiteti rektorluğunun təşəbbüsü ilə Ankarada Qərbi Azərbaycandan deportasiya mövzusunda beynəlxalq elmi simpozium keçirilib. Müzakirələrdə Milli Məclisin deputatlarının, Türkiyənin müxtəlif universitetlərindən müəllimlərin, Harvard Kennedi Məktəbinin ekspertlərinin iştirak etdiklərini deyən fondun rəhbəri qeyd edib ki, simpozium çərçivəsində edilən bütün çıxışları bu il türk və ingilis dillərində ayrıca kitablar şəklində nəşr etmək planlaşdırılır.

Bundan əlavə, TADİV Qərbi Azərbaycan mövzusunda televiziya proqramlarının hazırlanmasına, eləcə də Türkiyənin aparıcı media orqanlarında, o cümlədən "Anadolu" Agentliyi xətti ilə xəbərlərin hazırlanmasına öz töhfəsini verib.

"Düşünülür ki, TADİV-in fəaliyyəti Türkiyə ictimaiyyətinin Qərbi Azərbaycanın tarixi haqqında məlumatlandırılması üçün zəmin yaratmağa imkan verib. Bu gün biz Qərbi Azərbaycan İcmasının fəaliyyətini yaxından izləyir və alqışlayırıq. Biz bu istiqamətdə bundan sonra da öz töhfəmizi verməyə davam etməyə hazırıq", - deyə o əmin edib.

---

## "Səyyar DOST" xidməti üçün növbə götürmə sistemi elektronlaşıb

Sosial sahədə xidmətlərin geniş miqyasda elektronlaşdırılması işləri çərçivəsində həssas qruplara aid vətəndaşların "Səyyar DOST" xidməti üçün növbə götürmə sistemi də artıq elektronlaşdırılıb.




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, vətəndaşlar dost.gov.az saytına daxil olaraq "Səyyar DOST" bölməsinə keçid etdikdən sonra açılan pəncərədə sadə müraciət formasını doldurmaqla həmin xidmət üçün e-qaydada növbəyə yazıla bilərlər.

Məlumatları daxil etdikdən sonra vətəndaşa avtomatik növbə təyin olunur və bu barədə onun mobil nömrəsinə sifariş etdiyi xidmət növü ilə bağlı ətraflı mesaj göndərilir.

"Səyyar DOST" xidməti DOST mərkəzləri tərəfindən təqdim edilən xidmətlərin göstərilməsi məqsədilə lazımi sənədlərin sifarişçidən təhvil alınması və emal edilərək ona təhvil verilməsini nəzərdə tutur.

Həmin xidmət üçün e-qaydada növbəyə yazılma imkanının yaradılması vətəndaşların xidmətə əlçatanlığının, xidmətin çevikliyinin, keyfiyyətinin daha da artmasına imkan verir.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi fəaliyyətə başlayıb







Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvləri ilə görüş keçirilib. Konfederasiya sədri Sahib Məmmədov ölkəmizdəki demokratik mühitin həmkarlar ittifaqlarının səmərəli fəaliyyətinə və əmək hüquqlarının effektiv müdafiəsinə açdığı geniş imkanlardan danışıb, dövlətimizin bu sahəyə diqqət və qayğısını vurğulayıb.

Bildirilib ki, ittifaq üzvlərinin əmək, sosial və iqtisadi hüquqlarının müdafiəsi, qabaqcıl beynəlxalq standartlara uyğun sağlam və təhlükəsiz iş şəraitinin yaradılması istiqamətində kompleks addımlar atılır, müalicə və istirahətinin səmərəli təşkili məqsədilə sanatoriya-kurort müəssisələrinin fəaliyyəti davamlı olaraq təkmilləşdirilir.

AHİK-də aparılan struktur və kadr islahatlarından, qadınların və gənclərin həmkarlar ittifaqları sistemində rolunun artırılması istiqamətində görülən işlərdən danışan konfederasiya sədri yeni layihələr, o cümlədən "AHİK könüllüləri", "Layiqli Əmək Səfirləri", "AHİK Plus", "Həmkardan həmkara qayğı ilə", "Sağlamlığa doğru qaç" layihələri barədə deputatlara məlumat verib. Vurğulanıb ki, yollayışların vahid mərkəzdən verilməsi üçün "Kurort" Turizm İnformasiya Mərkəzi yaradılıb, hazırda prosesin tam rəqəmsallaşdırılması işləri aparılır.

Görüşdə Milli Məclisin Əmək və sosial siyasət komitəsi ilə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti və həmkarlar ittifaqı sisteminin inkişafına verəcəyi töhfələrdən də bəhs olunub.

Sonra AHİK-in fəaliyyəti, eləcə də "Layiqli Əmək Səfirləri", "Həmkardan həmkara qayğı ilə", "AHİK Plus" layihələrindən bəhs edən videomateriallar nümayiş olunub.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev konfederasiya tərəfindən həyata keçirilən islahatları və yenilikləri yüksək qiymətləndirib, əmək münasibətlərinin tənzimlənməsində, ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafında həmkarlar ittifaqlarının xüsusi rolunun olduğunu qeyd edib. Musa Quliyev sosial sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı görülən işləri diqqətə çatdırıb, eləcə də AHİK-lə əlaqələrin inkişafının əmək hüquqlarının qorunmasında önəmini vurğulayıb.

Görüşdən sonra Milli Məclisin üzvləri AHİK-də vətəndaşların qəbulu üçün yaradılmış şəraitlə, həmçinin Çağrı Mərkəzi ilə tanış olublar.

Ardınca dövlət qurumları nümayəndələrinin və deputatların iştirakı ilə AHİK tərəfindən yeni yaradılan Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinin açılışı olub.

Bununla əlaqədar keçirilən tədbirdə konfederasiya sədri Sahib Məmmədov Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinin vəzifələri və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Bildirilib ki, mərkəzdə əmək müfəttişləri tərəfindən ittifaq üzvlərinin müraciətləri cavablandırılacaq, əmək münasibətlərində qarşılaşdıqları hüquqi məsələlərlə bağlı onlara yardım göstəriləcək, maarifləndirmə işləri aparılacaq.

Tədbirdə çıxış edən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli və deputat Ziyad Səmədzadə konfederasiya tərəfindən həyata keçirilən layihələrin, tətbiq olunan yeniliklərin önəmini vurğulayıb, görülən işlərin dövlətimizin sosial siyasətinə əhəmiyyətli töhfə olduğunu qeyd edib, mərkəzin fəaliyyətinə uğurlar arzulayıblar.

Sonra Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinə baxış keçirilib. İştirakçılar həmçinin eyni məkanda yerləşən "Kurort" Turizm İnformasiya Mərkəzinin fəaliyyəti ilə də tanış olublar.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# Türkiyənin "Biznes diplomatiyası" jurnalında Azərbaycanın iqtisadi imkanları barədə məqalə dərc edilib

Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumu - DEİK-in "Biznes diplomatiyası" jurnalında Azərbaycanın iqtisadi və investisiya imkanları barədə geniş məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan: fürsətlər ölkəsi" sərlövhəsi ilə dərc edilən yazı ölkəmizin Türkiyədəki ticarət nümayəndəliyinin məlumatları əsasında hazırlanıb.







Məqalədə qeyd edilib ki, Azərbaycan azad ticarət sazişləri, vergi güzəştləri və uzunmüddətli maliyyə imkanları ilə geniş fürsətlər təqdim edir. Zəngin tarixə və mədəniyyətə malik Azərbaycan təqdim etdiyi strateji üstünlüklər, sürətlə inkişaf edən müasir iqtisadiyyatı və əhatəli təşviq mexanizmləri ilə iş adamları üçün cəlbedici mərkəzə çevrilib. Bu təşviqlər vergi üstünlükləri və digər dövlət dəstəkləri sayəsində Azərbaycan investorlar üçün uzunmüddətli qazanc vəd edən sərmayə mühiti yaradır.

"Strateji mövqe və nəqliyyat şəbəkəsi", "Güclü iqtisadi struktur və münasib investisiya mühiti", "280 milyon əhalini əhatə edən bazara çıxış", "İnvestor dostu siyasət və təşviqlər" kimi bir çox yarımbaşlıqla dərc edilən məqalədə bildirilir ki, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin, eyni zamanda Orta dəhlizin üzərində yerləşən Azərbaycan hava, dəniz, quru və dəmir yolu infrastrukturu sayəsində regional və beynəlxalq bazarlara çıxış baxımından böyük imkanlar yaradır. 1995-2023-cü illər arasında Azərbaycana qoyulan ümumi sərmayə 341 milyard dolları keçib ki, bunun da 171 milyard dolları xarici investisiyalardır. Həmçinin 2015-ci ildən bəri manat-dollar məzənnəsi 1,7 səviyyəsində sabit qalaraq iqtisadi sabitliyi dəstəkləyib. On ölkə ilə imzaladığı azad ticarət sazişləri sayəsində Azərbaycan üzərindən ümumilikdə 280 milyon nəfərlik bazara birbaşa çıxış mümkündür. Ölkə "İnvestisiya fəaliyyəti haqqında" qanunu ilə investorların hüquq və azadlıqlarını təmin edərkən iş adamları üçün müxtəlif təşviq mexanizmləri təqdim edir. Sənaye parkları və məhəllələri, eləcə də azad iqtisadi zonalarda fəaliyyət göstərən investorlar üçün əhatəli vergi və gömrük güzəştləri mövcuddur. Bundan əlavə, Azərbaycan investorlarına müxtəlif maliyyə dəstək mexanizmləri və fərqli sahələrdə geniş layihə imkanları da təklif edir.

Yazıda bildirilir ki, Azərbaycan və Türkiyə arasında imzalanmış Preferensial Ticarət Sazişi çərçivəsində iki ölkə arasında 30 məhsul növü üçün gömrüksüz ticarət imkanı yaradılıb. Həmçinin sərhəd ticarətinin inkişaf etdirilməsi, iş adamları arasında əlaqələrin və kommunikasiyanın asanlaşdırılması, tranzit keçidlərin sürətləndirilməsi üçün lazımi tənzimləmələr həyata keçirilir.

Məlumat olaraq bildirilib ki, hazırda dünyanın beş ölkəsində Azərbaycanın ticarət nümayəndəlikləri fəaliyyət göstərir. Xarici ölkələrdəki ticarət nümayəndəlikləri Azərbaycanın müvafiq ölkələrlə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və bu sahədə maraqlarının qorunması, həmin ölkələrə mal və xidmətlərin ixracının artırılması, eləcə də ölkəmizin biznes mühitinin və investisiya imkanlarının təbliği istiqamətində çalışır. Ticarət nümayəndəlikləri İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmaqla, təmsil olunduqları ölkələrdə Azərbaycanın səfirlikləri və baş konsulluqlarının dəstəyi ilə fəaliyyət göstərir. Belə nümayəndəliklərdən biri də 2023-cü ilin iyun ayından etibarən ölkəmizin ən böyük iqtisadi-ticarət tərəfdaşlarından biri olan qardaş Türkiyənin İstanbul şəhərində fəaliyyətə başlayıb. "Xarici sərmayə haqqında düşünürsünüzsə, sizə yad olmayan Azərbaycana gəlin" şüarı ilə fəaliyyət göstərən nümayəndəlik türkiyəli iş adamlarının ölkəmizə investor qismində cəlb edilməsi ilə yanaşı, Azərbaycanın mal və xidmətlərinin Türkiyədə tanıdılması və ixracının stimullaşdırılması istiqamətində də mütəmadi tədbirlər həyata keçirir.

Qeyd edək ki, çap və elektron formatda dərc edilən DEİK-in "Biznes diplomatiyası" jurnalı ölkənin bu sahədə ən nüfuzlu mətbu orqanlarından biridir.

# Baş prokuror paytaxtın Sabunçu rayonunda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.



Aprelin 22-də baş prokuror Kamran Əliyev Bakı şəhəri Sabunçu rayon prokurorluğunun inzibati binasında Sabunçu rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 47 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Ukrayna ilə sosial təminat və reabilitasiya sahələrində gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuri Qusev ilə görüş olub.



Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Azərbaycan və Ukrayna arasında dost münasibətlərinə əsaslanan ikitərəfli əməkdaşlıq əlaqələrini qeyd edib. Nazir ötən dövrdə əmək, məşğulluq, sosial müdafiə, reabilitasiya sahələrində də iki ölkənin uğurlu əməkdaşlıq təcrübəsinə malik olduğunu bildirib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Ukraynanın Sosial Siyasət Nazirliyi arasında imzalanmış əməkdaşlıq sənədlərinin önəmi vurğulanıb. Ukraynada müharibədən əziyyət çəkmiş uşaqların ölkəmizə gətirilərək sosial-psixoloji xidmətlərlə təmin edilmələri üçün görülmüş işlər qeyd edilib.

Azərbaycanda əmək, məşğulluq, sosial müdafiə, reabilitasiya sahələrində son illər aparılan islahatlar, sosial sahədə elektronlaşdırma proqramının uğurları barədə məlumat verilib.

Y.Qusev ölkələrimiz arasında əlaqələrin daim genişlənməsinin məmnunluq doğurduğunu, sosial islahatlar prosesində davamlı əməkdaşlığın, təcrübə mübadilələrinin əhəmiyyətini qeyd edib. Görüşdə iki ölkə arasında sosial təminat və reabilitasiya sahələrində gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan nümayəndə heyəti Bişkekdə "Ata-Beyit" memorial kompleksini ziyarət edib

Bişkekdə keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində Azərbaycan nümayəndə heyəti aprelin 22-də "Ata-Beyit" Milli Tarixi-Memorial Kompleksini ziyarət edib.



Bu barədə AZƏRTAC-a Mədəniyyət Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli abidənin önünə çələng qoyub. Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və mədəniyyət xadimlərimiz kompleksin qarşısına tər qərənfillər düzüblər.

Sonra kompleks ərazisində dünyaşöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun məzarı ziyarət olunub, önünə çiçəklər düzülüb, ədibin ruhuna "Qurani-Kərim"dən ayə oxunub.

Daha sonra kompleksin muzey bölməsi ilə tanışlıq olub. Nümayəndə heyətinə memorial kompleks və muzey haqqında ətraflı məlumat verilib.

Qeyd olunub ki, Qırğız Respublikası Mədəniyyət, İnformasiya, İdman və Gənclər Siyasəti Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Ata-Beyit" kompleksi 8 iyul 2000-ci ildə açılıb. Çuy vilayətinin Alamudin rayonunun Taş-Döbö kəndində yerləşən kompleksə qəbiristanlıq, abidələr, heykəllər və yurt şəklində tikilmiş muzey daxildir. Memorial kompleks Çingiz Aytmatovun təklifi ilə "Ata-Beyit" ("Ataların məzarlığı") adlandırılıb.

Burada 1930-cu illər Stalin repressiyalarının qurbanları, 1938-ci ilin 5-8 noyabr tarixlərində qətlə yetirilən 137 qırğız ziyalısının və 19 etnik qrupun nümayəndələrinin xatirəsinə 1991-ci ildə ucaldılmış abidə və digər yaddaş tikililəri mövcuddur. Siyasi baxışlarına görə edama məhkum edilən Qırğızıstanın görkəmli siyasi, dövlət və ictimai xadimləri arasında Ç.Aytmatovun atası Törökul Aytmatov da olub. Repressiya qurbanlarının adları muzeydəki xatirə lövhəsində həkk edilib və orada onların şəxsi əşyaları və sənədləri saxlanılır.

Ərazidəki "Urkun" abidəsi isə qırğız xalqının rus ordusuna hərbi xidmətə çağırılmasına qarşı 1916-cı ildə baş verən üsyanı və sonradan onların Çinə qaçışını simvolizə edir.

# BMT Forumunda mina qurbanları ilə bağlı platforma təqdim edilib

İslam Əməkdaşlığı Gənclər Forumu (İƏGF) Avrasiya Regional Mərkəzinin Baş direktorunun müavini Ramin Həbibzadə ABŞ-ın Nyu York şəhərində keçirilən BMT ECOSOC (İqtisadi və Sosial Şura) Gənclər Forumu çərçivəsində baş tutan "Qoşulmama Hərəkatı gənclərinin baxışı: Mina fəaliyyətində regional və qlobal əməkdaşlıq" adlı yan tədbirdə çıxış edib.



Avrasiya Regional Mərkəzindən AZƏRTAC-a bildirilib ki, R.Həbibzadə çıxışında mina fəaliyyəti sahəsində regional və qlobal əməkdaşlığın əhəmiyyətini vurğulayıb, bu prosesdə gənclərin roluna xüsusi diqqət çəkib. O, tədbir iştirakçılarına, həmçinin İƏGF Avrasiya Regional Mərkəzi tərəfindən 2023-cü ildə təsis olunmuş "Mina Qurbanlarının Hüquqlarının Müdafiəsi üzrə Beynəlxalq Gənclər Platforması" haqqında məlumat verib. Diqqətə çatdırılıb ki, bu platformanın məqsədi mina qurbanlarının, xüsusilə gənc qurbanların səslərinin eşidilməsini təmin etmək, gənclərin rəhbərlik etdiyi müdafiə və reabilitasiya təşəbbüslərini dəstəkləmək və beynəlxalq əməkdaşlığı təşviq etməkdir. Platformanın təqdimatından sonra tədbir iştirakçıları ilə interaktiv formatda sual-cavab sessiyası keçirilib.

Qeyd edilib ki, yan tədbirdə Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasının (ECOSOC) Gənclər Forumunda iştirak edən müxtəlif ölkələrdən gəlmiş gənc nümayəndələrlə yanaşı, BMT və onun agentlikləri, Qoşulmama Hərəkatı Gənclər Təşkilatı (NAM YO), ANAMA və digər uyğun qurumların nümayəndələri də iştirak ediblər. Tədbir mina fəaliyyəti sahəsində gənclərin daha geniş iştirakının təşviqi və qlobal əməkdaşlığın gücləndirilməsi baxımından mühüm platforma rolunu oynayıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "Qərb Cənubi Qafqazda yeni hərbi-siyasi toqquşma üçün zəmin hazırlayır"

"Avropa strukturları, xüsusən Avropa Parlamenti və AŞPA-da son illər açıq fazaya qədəm qoymuş anti-Azərbaycan mövqeyi bir daha göstərir ki, Cənubi Qafqazda beynəlxalq hüququn aliliyinin təmin olunmasında ehtiva olunan status-kvo Qərb imperializmini qane etmir. Onlar regionda yeni münaqişəli vəziyyətin formalaşmasında maraqlıdırlar".

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, xüsusən Avropa İttifaqının "müşahidə missiyası" adı altında regionda təxribatçı fəaliyyətləri, hər hansı hüquqi bağlılıq olmadan Avropa Parlamentinin "Azərbaycan məsələsini" daimi gündəliyə çevirməsi sübut edir ki, Bakı və İrəvan arasında davamlı sülhə, sabitliyə və təhlükəsizliyə nail olmaq üçün unikal imkan yarandığı bir zamanda Qərb Cənubi Qafqazda yeni hərbi-siyasi toqquşma üçün zəmin hazırlamaqdadır. Sirr deyil ki, Qarabağ və Şərqi Zəngəzurun işğala məruz qaldığı 30 il ərzində Qərb Azərbaycanı ərazi itkiləri ilə barışdırmaq üçün davamlı şəkildə sülh və xalqlar arasında etimad quruculuğuna təşviq edirdi. Lakin Vətən müharibəsi və antiterror tədbirlərində zəfərimizdən sonra avrostrukturlar, xüsusən Fransanın önəmli təsir mexanizmləri formalaşdıra və alətə çevirə bildiyi Avroparlament və AŞPA-nın açıq formada sülh qarşısında maneəyə çevrildiyini gördük.

"Məsələn, Azərbaycanın Avropa Şurası ilə münasibətlərində artıq ikinci ildir ki, müşahidə olunan və birmənalı şəkildə Bakıdan qaynaqlanmayan gərginlik AŞPA-nın Qərbin təcavüzkar niyyətlərinin alətinə çevrildiyini ifşa etdi. Sirr deyil ki, Avropa Şurası Parlament Assambleyası özü belə Azərbaycanın bu təşkilatdakı nümayəndə heyətinin səlahiyyətlərinin məhdudlaşdırılmasına dair qərarı verərkən bu mövqeyini əsaslandıra biləcək praqmatik izah ortaya qoya bilmədi. Görünən odur ki, Avropa Şurası Parlament Assambleyası özünün təsis ideallarından açıq formada kənarlaşaraq insan haqları və demokratiyanı ayrı-ayrı dövlətlər üzərində təzyiq mexanizminə çevirərək bəzi üzv dövlətlərin, o cümlədən Azərbaycanın suveren haqları üzərində nəzarət imkanları əldə etməyə çalışdı. Lakin tam siyasi və iqtisadi cəhətdən müstəqil dövlət kimi özünü təsdiq etmiş, hərbi-siyasi qələbələri ilə regionun əsas güc mərkəzinə çevrilmiş Azərbaycanın bu kimi çirkin konfiqurasiyalarla təsir altına salınması, təbii ki, mümkün deyildi. Prezident İlham Əliyev özü də dəfələrlə bəyan edib ki, heç kəs bizim iradəmizə təsir edə bilməz", - deyə deputat əlavə edib.

B.Məhərrəmov qeyd edib ki, bu günlərdə AŞPA prezidenti, özünün Yunanıstanda korrupsiya qalmaqalları ilə "məşhur olan" Rousopoulosun Azərbaycana münasibətdə qərəz dolu, ikrah doğuran bəyanatları, əslində, bu strukturun özünün dilemma qarşısında qaldığını göstərir. Aydındır ki, Azərbaycanın Avropa ilə münasibətləri Avropa Şurası, yaxud Avropa Şurası Parlament Assambleyası üzərindən həyata keçirilmir. Azərbaycan Avropanın 10-a yaxın dövləti ilə strateji tərəfdaşlıq müqaviləsinə malikdir və Avropanın, o cümlədən Avropa Şurasına üzv olan bir çox dövlətin enerji təhlükəsizliyində, dolayısı ilə milli təhlükəsizliyində həlledici söz sahibidir. Habelə Azərbaycan beynəlxalq hüququn prinsiplərinə, həmçinin BMT Nizamnaməsinə sadiqdir və ölkəmiz üçün dialoq mühiti alternativsizdir, lakin bizim üçün suveren haqlarımız, milli maraq və mənafelərimiz istənilən beynəlxalq təsisatla münasibətlərdən daha önəmlidir. Xüsusən də Qərb imperializmi Cənubi Qafqazda maraqlarını "parçala və hökm sür" siyasəti üzərində quraraq Azərbaycan və Ermənistan arasında artıq başa çatmış münaqişənin yenidən alovlanması və davamlılığına özlərinin regiondakı maraqlarının təmini üsulu kimi baxırsa. Lakin Azərbaycanın 2020-2023-cü illər ərzində Ermənistan və havadarlarını iki dəfə kapitulyasiyaya məcbur etməsi, sonrakı dövrdə isə geosiyasi status-kvonu davamlı şəkildə lehinə çevirməsi ilə planları pozulan Qərb Bakıya qarşı müxtəlif platformalarda, o cümlədən BMT Təhlükəsizlik Şurası, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası kimi təsisatlarda uğursuz qarayaxma kampaniyalarına başladı. 2023-cü ilin aprelindən sentyabrına qədər "humanitar fəlakət" bəhanəsi ilə, yaxud 2024-cü il ərzində Qarabağdan "köçürülən ermənilərlə" bağlı, habelə ötən il ərzində, xü-



susilə ilin ikinci yarısından etibarən Azərbaycanın COP29-a evsahibliyinin bloklanması məqsədilə Azərbaycan və şəxsən Prezident İlham Əliyevə qarşı miqyaslı təzyiq, qarayaxma və böhtan kampaniyası buna bir misaldır. Lakin çoxsaylı hücumların fiaskoya uğraması və regionda məhz Bakının direktivlərinin reallaşması fonunda Qərb yaxşı başa düşür ki, Azərbaycan asan rəqib deyil.

B.Məhərrəmov vurğulayıb ki, istər Vətən müharibəsi, istərsə də antiterror tədbirlərində heç bir Qərb subyekti açıq formada Azərbaycanın qarşısında mövqe tuta bilməyib və onlar siyasi bəyanatlarla, İrəvana vədlərlə kifayətlənməli olublar: "Əlbəttə, Qərb bu reallığın fərqindədir və fevralın 14-də Milli Məclisdə andiçmə mərasimindəki tarixi çıxışında cənab Prezidentin də dediyi kimi, "Biz İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir". Həqiqətən də, zaman keçdikcə müşahidə olunanlar, Bakıya münasibətdə qeyri-adekvat davranışlar da sübut edir ki, Vətən müharibəsində və antiterror tədbirlərində hərbi-siyasi qələbəmizlə cənab İlham Əliyev Qərb imperializminin regionda münaqişənin və separatizmin davamlılığında ehtiva olunan imperialist niyyətlərinə köklü və nəticələri aradan qaldırılmayacaq zərbə vurdu. Sonrakı dövrlərdə Azərbaycanda həyata keçirilən uğurlu daxili və xarici siyasət, o cümlədən görülən təhlükəsizlik tədbirləri, həyata keçirilən ordu quruculuğu və müdafiə sənayesi həmlələri Azərbaycanın regionda əməliyyat şəraitinə tam və dayanıqlı şəkildə nəzarətilə nəticələndi. Təbii ki, beynəlxalq hüququn aliliyinə əsaslanan yeni reallıq Qərb imperializmini razı sala bilməzdi. Hərbi, siyasi və diplomatik yolla hər hansı nəticələr əldə edə və regionda təcavüzkar məqsədlərlə planlarını həyata keçirə bilməyəcəyini anlayan Qərb üzünü yerlərdəki dayaqlarına tutmalı oldu. Bu prosesin gedişində isə tamamilə başqa məqsədlə yaradılmış, lakin bu gün Qərbin imperializm niyyətlərinin realizəsi mexanizminə çevrilmiş Avropa İttifaqı xüsusi rol oynamaqdadır".

Deputat xatırladıb ki, hələ 10 il əvvəl "vətəndaş cəmiyyətlərinə dəstək" adı altında regiona soxulmağa çalışan təsisatlar Azərbaycanda neytrallaşdırıldı. Avrostrukturların Azərbaycandakı missiya rəhbərlərinin və bəzi Qərb səfirlərinin mütəmadi şəkildə antimilli ünsürlərlə kommunikasiyası da onu göstərdi ki, bu prosesdə Qərb imperializminin yerli dayağı qismində məhz bu dairələr çıxış edir. Qərb Azərbaycanda radikal müxalifətin güclənməsi və ictimai qayda, ictimai təhlükəsizlik üzərində təhdid mühiti formalaşdıra biləcək gücə çevrilməsində maraqlıdır. İşğal, təcavüz, o cümlədən müxtəlif qlobal platformalarda hücumların effektsiz qaldığını görən Qərb Azərbaycanı məhz daxildən bu marionetlər vasitəsilə təzyiq altına salmaq, ictimai-siyasi mühitdə birmənalı söz sahibi olmaq istəyir. "Lakin proseslərin gedişatı da göstərir ki, bu qüvvələrin Azərbaycanda heç bir güc, imkan və nüfuz perspektivi yoxdur. Xalq qalib liderin ətrafında çox sıx birləşib və bu kursa alternativ görmür. Bu mənada indiki halda Avropa İttifaqı rəsmisinin radikallarla görüşü təsisatın özünün və həmin "partiya sədrlərinin" ifşasından başqa bir şey olmadı. Görüşün keçdiyi ab-hava, yayılan şəkillərdə masa üzərində olan elementlər də bir daha göstərir ki, 30 ildir özünü milli qüvvə kimi təqdim etməyə, sırımağa çalışan bu adamlar, əslində, hakimiyyət naminə bütün dəyərlərini satmağa hazır olan antimilli ünsürdən başqa bir şey deyillər. Qərbin Azərbaycanda qanunsuz maliyyələşmə ilə yaratdığı informasiya resurslarını daha da gücləndirərək hazır vəziyyətə gətirməyə çalışması da vəziyyəti dəyişmədi, çünki Bakının qabaqlayıcı tədbirləri faktiki olaraq Avropa imperializmini bu alətindən də məhrum etdi", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, nəticədə daha da azğınlaşan Avropa strukturları artıq gizlin yox, açıq fəaliyyətə keçməklə, habelə "müşahidə missiyası"nın say və müddətini artırmaqla güc nümayiş etdirmək niyyətində olduğunu göstərdi. Prezident İlham Əliyevin də dediyi kimi, "əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı". Yəni ötən bir il ərzində Avropa İttifaqının Ermənistandakı missiyasının pensiyaçı hərbçilərdən ibarət "mülki" xarakteri ilə pərdələnən Qərb artıq regionda özlərinin hərbi mövcudiyyətlərini legitimləşdirmək niyyətini gizlətmir. Yəni faktiki olaraq bu dairələr məqsədli formada Ermənistandakı revanşist dairələrdə yeni münaqişə başlayarsa, İrəvana hərbi dəstək verəcəyinə dair illüziya formalaşdırır. Bu isə Ermənistanı yeni müharibəyə təşviq etməkdir. Belə olan halda Bakıdan da dəfələrlə ifadə olunduğu kimi, Aİ və ABŞ bölgədə sabitliyi pozan hər hansı mümkün ssenariyə görə Ermənistanla birgə məsuliyyəti bölüşəcəklər. Üstəlik, Azərbaycan da prosesləri sükutla qəbullanmaq niyyətində deyil. Rəsmi Bakı hələlik "bütün tərəfləri sülh səylərinə əks təsir göstərən və regionda yeni eskalasiya və gərginlik dalğalarına səbəb ola biləcək addımlardan çəkinməyə çağırır". Lakin qarşı tərəf daha da irəli getməyə çalışarsa, cənab İlham Əliyevin dediyi kimi, bizim cavabımız amansız, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcəkdir.

B.Məhərrəmov qeyd edib ki, hazırda sülh şərtlərinin razılaşdırıldığı bir dövrdə təbii ki, yalnız sülh realizəsini və dayanıqlı sabitlik arzu edirik. Lakin biz prosesləri diqqətlə izləyirik və əminliklə deyə bilərik ki, ölkəmizin bölgədə əməliyyat şəraitinə tam şəkildə nəzarəti, Azərbaycanın siyasi və iqtisadi cəhətdən tam müstəqilliyi bizə proseslərin gedişinə uyğun olaraq adekvat qərar qəbul etmək suverenliyi tanıyır. Bu isə o deməkdir ki, regionda maraqlarını qanuni, hüquqi əsaslarla təmin etmək istəyən istənilən beynəlxalq subyektin regionda hesablaşacağı yeganə söz sahibi Azərbaycan Respublikasıdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Paşinyanın sözləri ilə hərəkətləri üst-üstə düşmür

### Onun bəyanatlar verərkən səmimiliyinə əmin olmaq mümkün deyil



"Bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyan media nümayəndələri qarşısında çıxış edərkən birbaşa və ya dolayısı ilə Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması ilə bağlı bir sıra maraqlı açıqlamalar verib. Paşinyan xüsusilə sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı məsələyə toxunub".

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. O xatırladıb ki, Ermənistan baş naziri delimitasiya və demarkasiya prosesinin davam etdirilməsi məsələsi ilə bağlı Azərbaycana yazılı təklif göndərdiklərini və cavab gözlədiklərini bildirib. "Düşünmürəm ki, çıxılmaz vəziyyət yaranıb və biz bu istiqamətdə ardıcıl işləməyə davam edəcəyik", - Paşinyan deyib. Həqiqətən də, digər məsələlərdən fərqli olaraq, delimitasiya və demarkasiya məsələsi münasibətlərin normallaşması yolunda ən az sual doğurur və bəlkə də ən məhsuldar məsələdir. Paşinyan Ermənistanın üçtərəfli Bəyanata sadiqliyini bir daha bədnam "sülh kəsişməsi"nin bəzi perspektivləri ilə əvəz edərək kommunikasiyaların açılması məsələsindən də danışıb. Bu mənada Paşinyan növbəti dəfə manipulyativ ritorika səsləndirib: "Azərbaycanda deyirlər ki, Ermənistan həll yolu təqdim etmədiyi üçün onlar İran marşrutundan istifadə edəcəklərini qərara alıblar. Bu o deməkdir ki, İran marşrutu və şərtləri onlar üçün məqbuldur, əks halda onlar bu yoldan istifadə etməzdilər. Biz də o cümlədən bu kontekstdə hər şeyi aydın və başadüşülən etmək üçün Ermənistanın ərazisindən eyni yolu təqdim etməyə hazırıq".

K.Bayramov qeyd edib ki, Ermənistanın baş nazirinin bəlkə də ən maraqlı açıqlaması Ermənistan Konstitusiyası ilə bağlı dediyi fikirlər olub: "İllər əvvəl Ermənistan Respublikasının müstəqillik bəyannaməsinin qəbulunun ildönümü ilə bağlı mesajımda demişdim ki, bəyannamənin mətnini öyrənərək, bu mətnin müstəqil, suveren Ermənistanın mövcud olmaması ilə bağlı olduğu qənaətinə gəldim. Və əgər mən bunu deyirəmsə, deməli, Konstitusiyanın yeni mətnində müstəqillik bəyannaməsinə istinadın olmasını bəyan edə bilmərəm. Əksinə, mən deyə bilərəm ki, fikrimcə, konstitusiyanın yeni mətnində müstəqillik bəyannaməsinə istinad olmamalıdır, lakin bununla bağlı Ermənistan xalqı qərar verəcək və təbii ki, siyasi qüvvələr lehinə və əleyhinə arqumentlər irəli sürməli olacaqlar". Həmişə olduğu kimi, bəyanat bir az qarışıqdır, amma mətləbi bəllidir. Yeri gəlmişkən, xatırladım ki, Paşinyan müstəqillik bəyannaməsi haqqında "illər əvvəl" deyil, keçən ilin noyabrında, Ermənistan parlamentində 2025-ci ilin dövlət büdcəsi layihəsinin müzakirəsi zamanı danışıb. Paşinyan o zaman qeyd edib ki, bu bəyannaməni son illər dəfələrlə oxuyub və dəhşətli qənaətə gəlib ki, müstəqillik bəyannaməsinin məzmunu ondan ibarətdir ki, Ermənistan Respublikası mövcud ola bilməz".

Deputat vurğulayıb ki, o, həmin vaxt Ermənistan Konstitusiyasından müstəqillik bəyannaməsinə istinadın çıxarılmasının zəruriliyi ilə bağlı mövqeyini aydın ifadə edib. İndi isə bu fikri yenidən səsləndirən Paşinyan Ermənistan ictimaiyyətini inandırmağa tələsib ki, onun mövqeyi Bakının tələbləri ilə bağlı deyil və bu məsələ Ermənistandakı inqilabdan dərhal sonra gündəmdə olub. Bəli, həqiqətən də, hələ 44 günlük Vətən müharibəsindən əvvəl Paşinyanın komandası Konstitusiyanın dəyişdirilməsi ilə bağlı müzakirələrə başlayıb. Halbuki o vaxt müzakirələr müstəqillik bəyannaməsindən deyil, daha çox Ermənistan dövlətçiliyinin struktur islahatlarından, xüsusən də prezident idarəçiliyi formasına mümkün qayıdışdan gedirdi. Əlbəttə ki, Ermənistan liderinin əsas qanuna dəyişikliklərin edilməsi zərurətini öz cəmiyyətinə nə dərəcədə dəqiq təqdim etməsi bizi maraqlandırmır. Əsas odur ki, bu iş görülsün. Erməni xalqının nə düşündüyünü indi anlamaq bizim üçün çox vacibdir. Əgər seçicilər referendumda Konstitusiyanı dəyişməkdən imtina edərsə, bu o deməkdir ki, sülh çox uzun müddət görünməyəcək.

Deputat bildirib ki, bütövlükdə Paşinyanın çıxışını Konstitusiyanın dəyişdirilməsinin zəruriliyinin təbliği baxımından konstruktiv hesab etmək olar: "Eyni zamanda həmişə nəzərə almaq lazımdır ki, bu irəliləyiş Paşinyanın sülhsevərliyi ilə deyil, rəsmi Bakının Ermənistanı buna məcbur etməsi ilə izah olunur. Üstəlik, Paşinyanın sözləri tez-tez hərəkətlərindən fərqlənir və onun bəyanatlarında səmimi olduğuna əmin ola bilmərik. Ermənistanın fəal silahlanması isə bu fikrimizi gücləndirməyə vadar edir. Nəzərə almaq lazımdır ki, əsas qanuna əlavə və dəyişikliklərlə bağlı səsvermə günündə seçimi Paşinyan yox, Ermənistanın bütün vətəndaşları etməli olacaq. Lakin Ermənistan cəmiyyətinin bu seçimə nə dərəcədə hazır olacağı baş nazirdən asılıdır. Paşinyan erməni cəmiyyətini köhnə ideologiyadan qurtulmağın zəruriliyinə inandırmaqda aktiv və ardıcıl olacaqmı, yoxsa çiyinlərini çəkərək, "özünüz qərar verin" deyimi ilə sadəcə olaraq problemi bəyan edəcəkmi, bunu zaman göstərəcək".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## "Xristian klubları"nın bitməyən qərəzi

### Aİ və AŞPA ikili standartları ilə Azərbaycan xalqının haqlı nifrətini qazanıblar

İkili standartlar, böhtan, şantaj kampaniyası bu gün bir çox beynəlxalq təşkilatı, parlamentləri, siyasətçiləri çıxılmaz vəziyyətə salıb. Avropa İttifaqı və AŞPA bu baxımdan xüsusilə fərqlənir.

Bu təşkilatların İkinci Qarabağ müharibəsindən sonra Azərbaycana qarşı apardıqları çirkin böhtan kampaniyaları, ikili standartlar prinsipləri ilə yanaşma məsələləri daha da genişlənib. Xüsusilə də Fransa ölkəmizə qarşı həyata keçirilən siyasətin başında duraraq Cənubi Qafqazda yaranmış sabitliyin pozulması üçün əlindən gələni edir. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi müəyyən beynəlxalq dairələri, o cümlədən Fransanı ciddi narahat edir. Çünki dövlətimizin erməni işğalçılarını torpaqlarımızdan qovması ilə Fransa kimi ölkələrin Cənubi Qafqazdakı planları pozulub. Bu səbəbdən də rəsmi Paris davamlı olaraq ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirir. Fransa ermənilərdən çox ermənilik edərək hər fürsətdə ölkəmizlə bağlı qərəz və böhtan dolu mövqe ortaya qoyur. Bu ölkənin Avropa və xarici işlər naziri Jan-Noel Baronun Avropa İttifaqının XİN başçılarının iclasında Azərbaycan haqqında birtərəfli və ermənilərin mövqeyinə uyğun fikirlər səsləndirməsi də bunun göstəricisidir. Azərbaycanın Xarici İşlər Nazirliyi məsələyə münasibətini bildirib və fransız nazirin iddialarını rədd edərək pisləyib. Bəyanatda qeyd olunduğu kimi, Fransanın siyasətindəki ikili yanaşma, yəni sülh niyyətini bəyan edərkən münaqişəyə sürükləyən davranışlar narahatlıq doğuran uyğunsuzluğu nümayiş etdirir. Belə ikiüzlü siyasət isə regionda davamlı sülh perspektivlərinə



mane olur. Bu gün də Qərb, Avropa İttifaqı, AŞPA və bəzi beynəlxalq təşkilatlar öz haqqını, ədaləti bərpa edən, düşməni torpaqlarından çıxaran, sülhə, əmin-amanlığa, Cənubi Qafqazda təhlükəsizliyi təmin etməyə çalışan Azərbaycana qarşı düşmən mövqeyindədirlər.

Aprelin 12-də AŞPA prezidenti Teodoros Rusopulosun "Alpha News" qəzetinə müsahibəsi zamanı Azərbaycan əleyhinə səsləndirdiyi iddialar da bir daha təsdiq etdi ki, "xristian klubları" sifarişlər əsasında Azərbaycana qarşı çirkin kampaniya həyata keçirir.

Onu da qeyd edək ki, AŞPA-da Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılması barədə ədalətsiz və hüquqi cəhətdən suallar doğuran təşəbbüsü dəstəkləyən 76 nəfər AŞPA üzvü kimi Teodoros Rusopulosun da adı qara siyahıya daxil edilib. Onun Azərbaycanla bağlı səsləndirdiyi fikrə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə dərhal reaksiya bildirərək ölkəmizin mövqeyini bəyan etmişdi. Qeyd edilmişdi ki, Avropa Şurası nizamnaməsinin pozulması, AŞPA tərəfindən səlahiyyətlərin aşılması nəticəsində ölkəmiz əleyhinə atılan addımdan sonra belə Azərbaycan tərəfinin dialoqa açıqlığını nümayiş etdirməsinə baxmayaraq, Rusopulos, Şvabe və onlar kimi bir sıra şəxslərin davamlı şəkildə ölkəmizin beynəlxalq hüquqa və ədalətə söykənən mövqeyinə kölgə salmağa çalışdıqları məlumdur.

Həqiqətən də, əgər AŞPA sədri diktator axtarırsa, diktatorun ən böyüyü Fransa Prezidentidir, çünki o, siyasi rəqiblərinə qarşı müharibə elan edib, "sarı jiletli"lərə, vətəndaşlara qarşı da belə davranıb. Əlcəzairdə nə qədər insanın qanını töküblər. Bu kimi nə qədər faciələr törədiblər. Yaxşı olar ki, bu təşkilat ölkəmizi ittiham etməkdənsə özlərinə baxsın, Azərbaycana qarşı apardığı çirkin siyasətə son qoysun.

Elə məhz bu səbəbdən də AŞPA Azərbaycan xalqının haqlı nifrətini qazanıb.

Fransa Aİ-dəki səlahiyyətindən istifadə edərək Azərbaycana qarşı sanksiyaların qəbul edilməsinə can atır. Hayastanı yenidən revanşizmə sürükləyir. Fransanın Ermənistanı öldürücü silahlarla təmin etməsi Cənubi Qafqazda sülh üçün ən böyük təhdidlərdən biridir.

Avropa İttifaqının "mülki missiyası"nın səlahiyyət müddətinin uzadılması və bu fonda "müşahidəçi"lərin Azərbaycan-Ermənistan sərhədlərində yenidən aktivləşməsi regiona yaxşı heç nə vəd etmir və Cənubi Qafqazda yeni təxribatlara hazırlığın göstəricisidir. Təbii ki, nə missiyanın səlahiyyət müddətinin uzadılması, nə də missiyanın yenidən fəallaşması təsadüf hesab edilməlidir. Bütün bunlar Azərbaycana qarşı aparılan çirkin kampaniyanın, ikili standartların tərkib hissəsidir.

Lakin regionun lider dövləti olaraq Azərbaycana heç bir təzyiq göstərmək mümkün deyil. Cənubi Qafqazda sülhün təminatçısı kimi Azərbaycan öz yolu ilə irəliyə doğru inamla addımlayır. Heç bir təzyiq, təhdid ölkəmizi öz yolundan döndərə bilməz. Bunu ölkənin lideri Prezident İlham Əliyev yerli və xarici ölkələrin KİV-inə müsahibələrində, beynəlxalq forumlar və konfranslardakı çıxışlarında dəfələrlə bəyan edib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Ruben Vardanyanın məhkəməsində Ermənistanın mina terrorunun qurbanları danışıb:

# "Bir gündə iki oğlumu itirdim"



Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi aprelin 22-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin dindirilməsi ilə davam etdirilib. Onların əksəriyyəti bədən əzalarının bir hissəsi amputasiya edilmiş mina qurbanları olub. İfadə verən zərərçəkmiş şəxslərin əksəriyyəti məhkəməyə qoltuqağacı və əsa ilə gəlib.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Həsənəli Əliyev ifadəsində 2024-cü il fevralın 4-də Tərtər rayonunun Qızıloba kəndi ərazisində yerləşən sahədə mal-qara otararkən Ermənistan hərbçilərinin basdırdıqları minanın partlaması nəticəsində xəsarət aldığını bildirərək deyib: "Nəticədə sol ayağımın aşağı üçdəbir hissəsi amputasiya olunub".

Digər zərərçəkmiş Elnur Əsgərov isə 2023-cü il aprelin 18-də Tərtər rayonunun Borsunlu kəndində mal-qara otaran zaman Ermənistan hərbçilərinin basdırdıqları minanın partlaması nəticəsində xəsarət aldığını deyib.

Zərərçəkmiş Akif Hüseynov ifadəsində bildirib ki, yaşadıqları Ağdam rayonunun Yusifcanlı kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra Əfətli kəndində məskunlaşıb. O, oğlanları Anar, Razi və Bayram, nəvəsi Hüseynin işğaldan azad edilmiş ərazilərdə olan əkin sahəsinə baxmağa gedərkən minaya düşdüklərini bildirib. Hadisə barədə xəbər tutan A.Hüseynov özü də əraziyə gedib. Yaralı vəziyyətdə olan şəxslər ərazidən çıxmaq istəyərkən daha bir mina partlayıb.

Dövlət ittihamçısı Fuad Musayevin suallarına cavab olaraq A.Hüseynov deyib ki, mina partlayışları nəticəsində oğlanları Razi və Bayram həlak olub, özü, digər oğlu Anar ağır xəsarətlər alıb, nəvəsi Hüseyn yüngül yaralanıb və güclü psixoloji travma alıb. "Bir gündə iki oğlumu itirdim", - deyə o qeyd edib.

Hadisə zamanı onlarla birlikdə olan qonşusu Bəhruz Abdulov da yaralanıb. Zərərçəkmiş şəxs qismində ifadə verən A.Hüseynovun oğlu Anar Hüseynov və qonşusu Bəhruz Abdulov da ifadə verərək hadisənin necə baş verdiyini danışıblar.





Zərərçəkmiş şəxslər Nicat Cabbarov və qohumu Rafael Bayramov isə ifadələrində Tərtər rayonunun işğaldan azad olunmuş hissəsində eyni vaxtda minaya düşdüklərini, ayaqlarının bir hissəsinin amputasiya edildiyini bildiriblər.

Alışan Səfərov və Faiq Səfərov isə yol istismarı idarəsinin işçiləri olublar. Onlar Tərtərdə yola basdırılmış minaya düşərək yaralandıqlarını deyiblər.

Məhkəmədə ifadə verən zərərçəkmiş şəxs Hikmət Abdullayev isə hərbi xidmətini yerinə yetirərkən yaralandığını bildirib. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavab olaraq deyib ki, Vətən müharibəsindən sonra Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycanın işğaldan azad edilmiş suveren ərazilərinə mütəmadi olaraq müxtəlif tipli iriçaplı silahlardan atəş açaraq təxribatlar törədib. Azərbaycan Ordusu isə təxribatların qarşısını alaraq düşmənin planlarını darmadağın edib.

ANAMA-nın əməkdaşları Yadigar Şükürov, Qəhrəman Rzayev, Nəcməddin Hüseynov, Mahir Mustafayev, Samir Gözəlov, Əli Şükürov, Fərid Cəbrayıllı, Telman Zeynalov, Bəhruz Nəsirov, Ələsgər Quliyev minatəmizləmə işləri zamanı minaya düşdüklərini, müxtəlif bədən xəsarətləri aldıqlarını deyiblər. Ə.Quliyev dövlət ittihamçısının suallarını cavablandırarkən minatəmizləmə zamanı PMN minalarına və tankəleyhinə minalara, habelə "sürpriz mina"lara çox rast gəldiyini deyib. O, Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandırarkən bildirib: "Bu minaların ən qorxulusu tankəleyhinə və qəlpəli minalardır. OZM-72 minalarını da çox görmüşəm. O, havada qəlpələrə bölünür, ən təhlükəli minalardandır".

Zərərçəkmiş İlham Salmanov da Füzuli rayonunun işğaldan azad edilmiş Aşağı Seyidəhmədli kəndi ərazisində piyadaəleyhinə minaya düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldığını və ayağının amputasiya olunduğunu qeyd edib.

İlknur Əliyev hərbi xidmət zamanı Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alan zaman üzərinə atılan əl qumbarasının partlaması nəticəsində yaralandığını deyib.

Natiq Mamedov, Elnur Abbaszadə, Vüsal Quliyev, Ramin Babayev və digərləri mina partlaması nəticəsində xəsarət aldıqlarını diqqətə çatdırıblar.

Prosesdə, həmçinin zərərçəkmiş şəxslərlə bağlı məhkəmə-tibbi ekspertizanın rəyləri açıqlanıb.

Məhkəmənin növbəti iclası aprelin 29-na təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

## "Yeni Şafak" qəzeti:

## "Türkiyə parlamentinin arxivləri ermənilərin Anadoludakı vəhşiliklərinə işıq salır"













"Yeni Şafak" qəzeti Türkiyə Böyük Millət Məclisinin (TBMM) 1915-ci ildə və ondan sonrakı illərdə Anadoluda erməni vəhşiliklərini əks etdirən fotoşəkillərin yer aldığı arxiv sənədlərini dərc edib.

AZƏRTAC xəbər verir ki, "Türkiyə Böyük Millət Məclisinin arxivlərindən erməni cinayətlərinə dair yeni sənədlər" sərlövhəli məqalədə qeyd olunur ki, tarixi sübutlar ermənilərin müsəlman əhaliyə qarşı törətdikləri vəhşiliklərin miqyasını açıq şəkildə göstərir.

Digər sənədlər arasında yer alan Ərzurum qubernatoru administrasiyasının 4 fevral 1915-ci il tarixli teleqraf mesajında deyilir: "Artvində ermənilər müsəlmanları diri-diri torpağa basdırırlar. Erməni qiyamçılarına qarşı mübarizə davam edir. Erməni quldur dəstələri dinc əhalinin qırılması məqsədi ilə kəndlərə hücum edir".

26 may 1916-cı il tarixli digər bir arxiv sənədində deyilir: "Vanda qadınlar və uşaqlar ermənilər tərəfindən məscidlərə qovulur, orada diri-diri yandırılır".

1915-ci il mayın 19-na aid məlumatda Parsih Gülbenkyan adlı vəkilin evində aparılan axtarış zamanı dinamit və partlayıcı qurğuların hazırlanması üçün komponentlərin aşkar edildiyi bildirilir.

Nəhayət, 7 mart 1915-ci il tarixli arxiv sənədində deyilir: "Qars və Erdahanda ermənilər tərəfindən öldürülən müsəlmanların sayı 30 minə çatıb. Qadın və uşaqların cəsədləri Məhfuran dərəsinə atılır".

## İğdırın yüzlərlə sakini erməni cinayətlərinin qurbanlarının anım aksiyasına qoşulub





Aprelin 22-də Ermənistanla sərhəddə yerləşən İğdır əyalətinin məktəb və liseylərinin yüzlərlə tələbə və müəllimləri erməni quldur dəstələrinin cinayətlərinin qurbanlarına ucaldılmış abidə-muzey önündə aksiyaya toplaşıblar.

AZƏRTAC xəbər verir ki, aksiya bu Şərqi Türkiyə əyalətinin Milli Təhsil İdarəsi tərəfindən təsdiqlənmiş "Şəhərin yaddaşı tarixin işığında" layihəsi çərçivəsində baş tutub.

Aksiyada çıxış edən İğdırın valisi Ercan Turan gənc nəsli 1915-1920-ci illərdə ermənilər tərəfindən qətlə yetirilmiş yerli sakinlərin xatirəsini anmağa çağırıb.

"İğdırın bir çox yaşayış məntəqəsi ermənilərin törətdiyi qanlı cinayətlərə şahid olub. O dövrdə Oba, Xakmehmet kəndlərində və İğdırın bir çox digər bölgələrində kütləvi qətliamlar törədilib. Mən və hər bir İğdır sakini şəhidlərimizin xatirəsini ehtiramla anırıq", - deyə vali vurğulayıb.

O qeyd edib ki, hər bir millətin borcu öz gənc nəslini ölkəsinin tarixini yaddaşlarda saxlayaraq yetişdirməkdir. "Öz ölkəsinin keçmişini unudanlar məhvə məhkumdurlar", - deyə Ə.Turan bildirib və İğdır gənclərini vilayətin tarixinin faciəli səhifələrini öyrənməyə çağırıb.

Daha sonra çıxış edən İğdırın Milli Təhsil İdarəsinin rəhbəri Aziz Gün 1915-ci ildə və sonrakı illərdə baş verən qanlı hadisələri "Türkiyə xalqına qarşı soyqırımı aktı" adlandırıb.

"Erməni quldur dəstələrinin cinayətləri bütün hədləri aşmışdı, belə ki, qadınlar, uşaqlar, qocalar qətlə yetirilirdi. Qətlə yetirilənlərin bir hissəsinin adları bu günə çatmayıb, lakin həmin faciəli hadisələrin xatirəsi yaşayır. Ermənilər və onların havadarları bu cinayətlərin izlərini silə bilməyəcək. İğdırın hər yeni nəsli ədalət tələb edəcək. Nə bağışlayacağıq, nə də unudacağıq", - deyə A.Gün bildirib.

O qeyd edib ki, bütün dünya məhz ermənilərin Türkiyə xalqına qarşı soyqırımı törətdiyini bilməlidir.

Aksiya əllərində Türkiyə bayrağı olan gənclərin İğdır küçələrində yürüşləri ilə davam edib.




# Ağdərənin Həsənriz kəndinə köçmüş daha 20 ailəyə mənzillərin açarları təqdim olunub





Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam edir.

Aprelin 22-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Tərtərdən Ağdərənin Həsənriz kəndinə yola salınıb.

AZƏRTAC xəbər verir ki, Həsənriz kəndinə bu mərhələdə 20 ailə - 68 nəfər köçürülür.

Tərtər rayonundan yola salınan növbəti köç karvanı Ağdərənin Həsənriz kəndinə çatıb.

İşğaldan azad olunmuş torpaqlara keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bu gün növbəti köç karvanı ilə Ağdərə rayonunun Həsənriz kəndinə çatan ailələrə mənzillərin açarları təqdim olunub.







Ailələrə evlərinin açarlarının təqdimatı mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri iştirak ediblər.

Tədbirdə çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov doğma yurdlarına köç edən sakinləri təbrik edərək, onlar üçün kənddə hər cür şəraitin yaradıldığını bildirib.

Keçmiş məcburi köçkünlərə doğma ata-baba yurdlarında mənzillərin açarı təqdim edilib və ailələr yeni evlərində yerləşiblər. Bununla da Ağdərə rayonunun Həsənriz kəndində ümumilikdə 90 ailə - 306 nəfər ailə məskunlaşıb.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə 40 mindən çox insan yaşayır.

# Naftalandan iki xəbər





Naftalanda Azərbaycanın Səhiyyə Nazirliyinin dəstəyi, Türkiyənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutu - (İKSAD), Naftalan Şəhər İcra Hakimiyyəti və Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun təşkilatçılığı ilə "1-ci Beynəlxalq İbn-i Sina Sağlamlıq Elmləri" (Tibbi reabilitasiyada müasir yanaşmalar, təbii amillərin müalicəvi əhəmiyyəti) mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransı giriş sözü ilə Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun direktoru, tibb elmləri doktoru Mətanət Əfəndiyeva açaraq "Sağlamlıq amillərinin potensialına yeni yanaşmalar" mövzusunda məruzə ilə çıxış etmişdir. Sonra tibbi reabilitasiyada müasir yanaşmalar və təbii amillərlə müalicə üsulları haqqında biliklərin artırılması və bu sahədə göstərilən tibbi xidmətin təkmilləşdirilməsi, naftalan nefti, müalicəvi palçıqlar, müxtəlif tərkibli mineral suların əhəmiyyəti haqqında müzakirələr aparılmışdır.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun, Səhiyyə Nazirliyinin şöbə müdiri Ramik Quliyevin, Türkiyənin Adıyaman Universiteti Elmi Araşdırmalar xəstəxanasının professoru Şeyho Cem Yucetaşın çıxışları da maraqla qarşılanmışdır.

❖ ❖ ❖

Naftalanda Şəhər İcra Hakimiyyətinin və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Qərbi Azərbaycan: Tarixin sınaqları, müasir çağırışlar" mövzusunda tədbir keçirilmişdir.

Torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin, soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra icmanın idarə heyətinin sədri Əziz Ələkbərli Qərbi Azərbaycan İcmasının məqsədi və fəaliyyət istiqamətləri barədə məlumat vermişdir. Qeyd etmişdir ki, indiyəcən görülən işlər, qarşıda duran vəzifələr bu hərəkatın sistemli və davamlı xarakter aldığını göstərir. Bildirmişdir ki, son iki əsr ərzində ata-baba yurdlarından məcburi şəkildə didərgin salınan qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı qaçılmazdır.

Naftalan Şəhər İcra hakimiyyətinin başçısı Vüqar Novruzov isə tarixi ərazimiz olan Qərbi Azərbaycanla bağlı tədbirlərin keçirilməsinin vacibliyindən, Prezident İlham Əliyevin təşəbbüsü ilə Qərbi Azərbaycana Böyük Qayıdış ideyasının reallaşdırılması istiqamətində atılan məqsədyönlü addımların əhəmiyyətindən danışmışdır.

İcmanın İdarə Heyətinin sədr müavini Hikmət Babaoğlu da çıxışında Qərbi Azərbaycan həqiqətlərinə geniş şəkildə toxunaraq bu prosesin həm tarixi ədalətin bərpası, həm də Cənubi Qafqazda dayanıqlı sülhün əsas şərtlərindən biri olduğunu vurğulamışdır.

İcmanın Qadınlar Şurasının sədr müavinləri Telli Pənahqızı və Aytən Sultanova qərbi azərbaycanlı xanımların bu prosesdəki fəal rolundan, Qərbi Azərbaycana Qayıdış hərəkatında göstərdikləri təşəbbüskarlıqdan söz açmış, doğma yurd yerlərinə qayıdışın təkcə milli kimliyimizin bərpası deyil, həm də gələcək nəsillərimiz üçün ədalətli və dinc gələcəyin qurulması baxımından zəruri olduğunu bildirmişlər.

Sonda Qərbi Azərbaycandan olan bir qrup şəxsin və onların varislərinin müraciətləri əsasında onlara Qərbi Azərbaycan İcmasının üzvlük vəsiqələri və döş nişanları, həmçinin xatirə hədiyyələri təqdim olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## “AZƏRBAYCAN” *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri Roma Papasının vəfatı ilə bağlı bəyanat yayıblar

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri Roma Papası Fransiskin vəfatı ilə bağlı bəyanat yayıblar. AZƏRTAC bəyanatın mətnini təqdim edir:

"Sülh, mərhəmət və dialoqa sadiqliyi ilə dünyamızda silinməz iz qoymuş liderin - Roma Papasının vəfatını dərin hüznlə yad edirik. Onun cəmiyyətin həssas təbəqələrinin müdafiəsində yorulmadan çalışması və dinlərarası dialoqa olan dərin bağlılığı milyonlarla insana ilham verərək müxtəlif mədəniyyətlər arasında anlayış ruhunu gücləndirib. Roma Papası Fransisk harmoniya, dözümlülük və müxtəlif sivilizasiyalar arasında qarşılıqlı hörmətin təşviqinə yönəlmiş Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin missiyası ilə uyğun dəyərlərin təcəssümü idi. Onun 2019-cu ildə Mərkəzimizlə əməkdaşlığı mədəni diplomatiyanın əhəmiyyətini və iqlim dəyişikliyi ilə sosial ədalətsizlik də daxil olmaqla, qlobal problemlərin həlli üçün birgə səylərin vacibliyini vurğuladı.

Onun irsinə nəzər saldıqda, dialoqun daha dinc bir dünya qurmaq və müxtəliflikləri aradan qaldırmaq üçün nə qədər mühüm rol oynadığını bir daha xatırlayırıq. Katolik icmasına və onun sevgi, həmrəylik mesajından təsirlənən hər kəsə dərin hüznlə başsağlığı veririk. Papa Fransiskin xatirəsinə hörmət əlaməti olaraq, biz anlayış və mərhəmət prinsipləri əsasında birləşmiş dünya vizyonunu davam etdirmək öhdəliyimizi bir daha təsdiqləyirik və insanlıq arasında əlaqələrin qurulmasına töhfə verməyə davam edəcəyik".

# Fransada kriminal gərginlik

## Həbsxana işçilərinə qarşı hücumlar getdikcə çoxalır





Fransanın müxtəlif şəhərlərində həbsxana işçilərinə qarşı hücumlar baş verib. İstintaqın bir versiyasına görə, bir həftə əvvəl başlanmış hücumlar narkotik mafiyasının ölkədə xüsusilə təhlükəli kartel üzvləri üçün iki ciddi rejimli həbsxana yaratmaq qərarı ilə əlaqəli ola bilər.

Əvvəllər məlum olmayan "DDPF" qrupu Fransa penitensiar sisteminin əməkdaşlarının əmlaklarının dağıdılması (əsasən avtomobillərin yandırılması) aktlarına görə məsuliyyəti öz üzərinə götürüb.

Aprelin 21-də səhər saatlarında Fransanın ədliyyə naziri Jerald Darmanen X sosial şəbəkəsi vasitəsilə hücumlar barədə məlumat verib: "Dünən gecə penitensiar xidmətin əməkdaşlarına və islah müəssisələrinə yenidən hücumlar edilib. Heç bir itki olmayıb, lakin həbsxanalarımızda hakimiyyətin və asayişin bərpa olunduğu bir vaxtda bu hərəkətlər respublika üçün təhdiddir. Bu, dövlət və onun işçiləri üçün çətin, lakin zəruri məqamdır".

Ədliyyə naziri həmçinin ümid etdiyini bildirib ki, Daxili İşlər Nazirliyi bu hücumları təşkil edən şəxsləri tez bir zamanda həbs edib iğtişaşlara son qoyacaq.

Lion prokurorluğunun verdiyi açıqlamaya görə, gecə yarısı Korbes rayonundakı həbsxananın mühafizə olunan dayanacağında iki avtomobil yandırılıb və daha iki avtomobilə zərər verilib. Bir neçə saatdan sonra azyaşlı şübhəli şəxs həbsxananın yaxınlığında saxlanılaraq nəzarətə götürülüb, lakin prokurorlar onun hadisədə əli olduğunu hələlik müəyyən etməyiblər.

Həmkarlar ittifaqı və polis mənbələrinin AFP agentliyinə verdiyi məlumata görə, həmin gecə Villefranche-sur-Saone həbsxanasının yaxınlığındakı dayanacaqda mühafizəçilərdən birinə məxsus avtomobil yandırılıb.

Bundan əlavə, Villefontendə, Sen-Kventin-Fallavier şəhərindəki həbsxananın yaxınlığında bir evin qapısı yandırılıb və fasadda güllə izləri aşkar edilib.

Milli Terrorla Mübarizə Prokurorluğunun (PNAT) press-relizində qeyd edilib ki, odlu silahlardan bir neçə atəş açılıb və "Molotov kokteylləri" həbsxana xidmətinin bir neçə əməkdaşının yaşadığı İsere departamentindəki yaşayış massivində olan evlərə atılıb.

Prokurorluq "şəxslərə qarşı cinayət törətmək məqsədilə terrorçu qruplaşmada iştirak etmə", "terror fəaliyyəti ilə əlaqədar vəzifəli şəxsi öldürməyə cəhd", "mütəşəkkil dəstə tərəfindən terror fəaliyyəti ilə əlaqədar təhlükəli vasitələrdən istifadə etməklə əmlaka ziyan vurma və ya məhv etmə" kimi halların istintaqını öz üzərinə götürdüyünü açıqlayıb.

"DDPF" qraffitisi Saint-Quentin-Fallavierdəki daha bir evdə tapılıb və bu xüsusiyyət, son bir həftə ərzində həbsxana işçilərinin avtomobillərinə və ya evlərinə, eləcə də Tulondakı həbsxanaya edilən demək olar ki, hər hücumda görünüb. Qrupun iddia edilən üzvləri adından sosial şəbəkələrdə yayılan xəbərlərə görə, abbreviatura "Defense des droits des français" ("Fransız məhbusların hüquqlarının müdafiəsi") mənasını verir. Eyni zamanda Fransa mediasına müsahibə verən çoxsaylı ekspertlər bu abreviatura haqqında əvvəllər heç bir şey eşitmədiklərini bildiriblər.

Aprelin 15-də prokurorluq "həbsxana əleyhinə" hücumların təhqiqatını öz üzərinə götürdüyünü və onu Terrorla Mübarizə Şöbəsinə (SDAT), Milli Polisin müvafiq zona müdirliklərinə və Daxili Təhlükəsizlik Baş İdarəsinə (DGSI, daxili kəşfiyyat) həvalə etdiyini açıqlayıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı İlkin Yusifova anası

**ZÜLEYXA ƏSGƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3516
Sifariş 815

Qiyməti 60 qəpik